# Bulud Qərəçorlu
# Səhənd

## Seçilmiş Şeirlər

***Taleimə sən bax!***

Dərdlər
Ürəyimdə qalanıb,
Qalaq - qalaq
Belə getsə əgər,
Bu balaca çanaq
Pərəm - pərəm Olacaq.

Bir dərd bilən axtarıram,
Bir eşidən axtarıram.
Diyə biləm dərdimi,
Söyləyə biləm kədərimi.
Bir aça biləm sandığı,
Tökə biləm pambığı.

Demişlər:
Ürək süfrə dəyil
Hər gələnin qarşısına açasan
Lakin, inan
Mən,
Süfərədən də açıq
Sinəmi açmaq istəyirəm
Bu süfrənin dövrəsinə
Bütün aləmi yığmaq stəyirəm.

Qonaqlıq üçün yox,
Dədəmə ehsan üçün yox,
Yediyim taturanı,
İçdiyim zəqqumu,
Hamılara dadızmaq üçün
Hamıya göstərib tanıtmaq çün
Dərdimi, acımı.
Axı bilirsən mən kiməm?
Mən dili – ağzı qıfıllı dərdliyəm.

Ürəyim bir zərrə qayğı,
Bir zərrə məhəbət üçün
Əfil - əfil əsir,
İnanın,
Məni öldürmür yanqı,
Bircə zərrə ədalət üçün,
Can verirəm, dərdimi qanın!
Sözümə inanin!
Bilirsiz niyə?
Mən öz doğulduğum evdə,
Öz ana diyarımda,

Ata – baba olarımda,
Yadam, yad!
Şirinini
Yadlar qoynuna buraxmış
Fərhadam, Fərhad!

Taleimə sən bax!
Düşüncələrim yasaq.
Duyğularım yasaq.
Keçmişdən söz açmağım yasaq.
Gələcəyimdən danışmağım yasaq.
Ata – babamın adın əkməyim yasaq.
Anamdan ad aparmağım yasaq.
Baba diyarım isə
Pıdraq, pıdraqdır.
Bilirsən?
Anadan doğulanda belə

Özüm bilmiyə - bilmiyə
Dil açıb danışdığlm dyldə,
Danışmağım da yasaq imiş, yasaq!

***Qurbanımı qəbul elə Araz!***

Səməd!
Nə yazım Səməd?!
Dənli xərmənimin yanmasın yazım?
Sərin su küzəmin calanmasın yazım?
Dağlı sinəmin alovlanmasın yazim?
Mən sənə nə yazım Səməd?

Həsrətimi kim yaxacaq?
Göz yaşıma kim baxacaq?
Araz?..
Yenə də axacaq!
Səməd!

Kimi çağırım?
Nə qədər bağırım?
Sə...məd!

Söylə mənə, söylə Araz!
Nə dən bizlə oldun beylə Araz?
Kəsdin iki qardaş arasın,
Aldın Muğanın Sarasın,
Boğdun elimin dəyərli balasın!
Bəsdir!

Bəs...dir!.
Qurbanımı qəbul elə Araz!

### *Düşünmək*

Düşünürəm,
Düşünənmirəm.
Sanki istəyirəm düşünəm,
Düşünənmirəm.
Duyğularım qol – budaqdır.
Düşünənmirəm.
Bilirsən niyə?
Düşünmək yasaqdır.

Nə edim,
Hara gedim?
Yer üzü buzdu, qardı.
Dört çevrəm divardı.
Divarlar qaf dağı
Bayırda köpək var
Gözləri qan çanağı.

Qapılar qapanıb,
Xəndəqə su bağlanıb,
Haray, haray,
Nə ulduz var, nə ay,
Təkəm, tək.
Nə yar – yoldaş qalıb,
Nə kömək.
Yer – göy baş atıb yatıb,
Ayaqlara qarğı batıb.

Səhərin ağ çadırı
Pülüklüyə doğranıb,
Qara nəftə bulanıb,
Qlaq – qalaq qalanıb.

Vay, indi çaxmaq çaxacaqlar,
Od vurub, məni yaxacaqlar.
Qoy bıdır - bıdır bıdarranım,
Qoy qənarəyə aslanım,
Qoy şişə taxılım,
Qoy yanım – yaxılım.

Odumdan alov qalxa,
Görənlər görə, baxa,
Güzəranımı eşidələr
Eşidib düşünələr:

“İnsan yaxırlar”
Qafıldan bir səs bağırır,
Diyəsən məni çağırır:
-Hey.......
Ey baba.......ey
Nə qoyub, nə axtarırsan,
Tikanlıq suvarırsan,
“Düşün” gör nə vaxtdır?!

Qafıldan daha bir səs bağırır
Məni yox, səsi çağırır:
-Hey.......
Nə dedin?!
Nə söylədin?!
“Düşünmək”?!
Yox – yox!

Baş aparma çox!
Yasaqdır - yasaqır.
*Tehran 24 bəhmən 1338*

***Mədiyneye Fazilə***

Nağıllarda eşitdiyim
“Tülü quşu”
Böyümüş!

Məni arxasına alacaq,
Qanadlanacaq,
Qaf dağın aşacaq,
Aparacaq məni
Çıxaracaq məni tə`rifini sinələrdən, sinələrə
Dinlədiyim,
Nərədə olduğunu
Bilmədiyim,
Haralara, haraya
“Mədiyneye Fazilə”
Deyilən diyara.

Ürəgim tələsir,
Əfil - əfil əsir,
Haydı,
Polad qanadlı quşum,
Gecikmə, aman!
Aç qanadlaruvı,
Ulduzlan.
Heç zaman, heç zaman,
Anamdan az sevmədiyim,

Qoynunda sevinmədiyim,
Diyarımdan, olarımdan
Qopar məni,
Qopar məni, apar məni,
Arzularımın abidəsinə,
Səadətin zirvəsinə.
Apar görüm
Tikib, yaradıb, baş uzada bilmiyəcək,
Pişirib, düşürüb, dada bilmiyəcək, Zəhmətə,
mehnətə gələndə,
Qələmdən yayılmayan,
Ne`mətə, rahətə gələndə sayılmayan,

Fəlakətə son qoyası insan.
Necə həlal süfrəsini qarşısına açır,
Necə əli qabarı, alın təri ilə,
Qazandığı yağlısını, yavanını
Qabağına qoyur,
Necə udur?

Apar görüm bir də
Gündəlik şərəfli çalışmasından sonra,
Qabar əlilə, həlal əməgilə
Tikdirdiyi evdə, evcikdə,
Neyləyir, neyləyir,
Necə qolun – qıçın uzadır,
Necə dincəlir?
Necə, necə,
Yorğunluğunu canından çıxardır?

Apar məni görüm,
Yaradılışından tutdu,
Hər ayağın götürüb qoymasına qədər,
Varlığına mütləq bir “cəbr” hakim olan,

Həlalikdə,
Bəndəlik zəncirlərini qıra bilən
İnsan!
Neçə, neçə kəmalın
“İxtiyar” boyda
Yüksək zirvəsinə çatmağa
Can atır,
Çata bilmir, ya çatır?
Qəsrlərin,
Sarayların,
Mal – matah dolu bazarların, yeyinti, geyinti,
Qisa desək
“Sərvət, ehtişam”
Görüb, görməmək,
Məni maraqlandırır.

Bu kimi şeylərin
Olub, olmaması əslən,
İçimi qandırıb, andırmayır.

Mən insan görməyə tələsirəm,
Düşünürsən, insan!
Özlük, özgəlik hədd – səddini aşıb,
Ucalara, ucalara dırmaşıb,
Özünü hamılar,
Hamıları özü kimi, görüb bilən
İnsan!

## *Həsrət*

Dünən oğrun baxışlarım,
Dərə - dərə ayaqların,
Qara hilal qaşlarının
Altın, üstün gəzdı gəldi.

Al ınaqdan önlük asan,
İki quldur can alanın,
Arxasında yayı görüb,
Candan əlin üzdü gəldi.

Dar ağzında abi həyat,
Çeşməsini gördü keçdi.
Susuzundan dili çıxdı,
Bir qurtum da içənmədi.

Sinəsində qoşa – qoşa
Tər şamama baş vermişdi.
Lakin, bağlı yaxasının
Çəpərindən keçənmədi.

O, gül üzlü, gündüz üzlü,
Şən baharın, güllü yazın,
Nəş`əsindən, nəfəsindən,
Zövqu - səfa alanmadı.

Min aşıqlı, yaraşıqlı,
Uca boylu sərvnazın,
Kölgəsində bir an belə,
Dincəlməyə qalanmadı.

Birdən - birə könül quşu
Qəfəsindən uçdu, getdi.
Qanadlandı, havalandı,
Olurundan, yuvasından.

An içində uzaqlandı,
Ulduzlandı, gözdən itdi.
Birdə gördüm səsi gəlir
Tellərinin arasından.

Dedim aman, könul aman
Hər tükündən bir tor qurub
İlişərsən, yıxılarsan
Cələsinə, duzağına.

Dedi: yazıq, hayandaydın
Qanadıma min ox vurub
Can atıram, can verərkən,
Baş qoymağa qucağına.

***Qara yazı şair***

Pərəstarım,
Şəfqət bacım,
Bəri gəlgil.
Min xəstəxanaya girərkən,
Uzadılırkən təxt üstə,
Sənə dedilər: bu xəstə,
Əsrimizin böyük şairlərindən biridir.
Belə dəyil?

Əynindəki ağ xalat tək
Təmiz olan o mehriban ürəginlə
Sən dinlədin bu tanıtmanı
Çünkü, sözlərinə mütləq inam bəslədiyin
Özünə dərin hörmət qoyduğun
Ən böyük həkim idi
Bu sözün söyləyəni.
Sən bu sözə inandin mehriban qız.
Xəstəvi məhəbbətlə, hörmət ilə qorudun.

Yadigar saxlamaqçın,
Bir şe`r də ondan dilədin.
Ölümün fırtınalı dənizində boğulanlara

Umud mayağı kimi görünən ulduz,
Mənə qulaq as,
Gəl indi sənlə,
Bu “Böyuk” şairdən danışaq:
O sənin

Pak məhəbbətlərini itirmiyəcək.
Sənə ürəyindən coşan bir şe`r də yadigar verəcək.
Sən onun verdiyi şe`ri
İmtinanla alacaqsan
İftixar və həycanla bir çoxlarına da oxuyacaqsan.

Tifil qız!
Kimsə sənin bu “böyük” şairivi
Tanımayacaq!
Yazdıqlarını da nə sən, nə də özgələri
Oxumayacaq!Sənə onun adını,
Başqa adamdan daha eşıtdigini
Söyləyəcək kimsənə
Bu isə sənə,
Bir sırr, bir mü`əma olacaq, şübhəsiz:
“-Axı bunu mənə danışan həkim,
yalan danışan adam dəyil, hərgiz!”

Bir daha qulağıvı mənə gətir,
Səni rahatlayım zavallı qızım!
Sənin o inandığın həkim,
Yalançı dəyildir hərgiz!
Bu “Qara yazı” şairin ancaq,
Adı da, özü də,
Şe`ri də, sözü də,
Danışdığı dilinə görə,
Yasaqdır, yasaq!

***Şərqin axşamı***

Axşamın süpürgəsi
Ağacların kölgəsin,
Yollardan süpürürdü.

Məğribin lül gözləri
Əzəl dəniz rəngli idi.
Vərəmləmiş məşriqin
Qanlı tüpürcəyindən
Dənizin rəngi döndü.

Şərqə doğru yürüyən,
Gəminin yelkəninə
Bir kəllə rəsimlənmiş
Məqqarə gözlərinin
Hər biri min adamcıl
Əjdəhanin yuvası.

Günəş,
Bu gəzəyənti,
Bu min üzlü səlitə
Sallanır, cumur gedir
Uzaq dağlar dalına
Qaş eləyir,
Göz vurur
Yeni oynaşına

Məğribin səhəri idi,
Şərqin axşamı idi.

### *Əldə qayırma çiçəklər*

Altunluca naxışlı,
Ağ güldanda bir dəstə.
Əldə qayırma "çiçək"
Qoyulmuş mizin üstə.

Yam – yaşıl yarpaqları
Ağ, qırmızı, bənəfşə,
Nə su, nə qayğı istər
Arsız – arsız, təp təzə!

Uzun illər geçsə də
Durub yaşayacaqlar.
Riyakar təravətlə,
Hələ də qalacaqlar.

Kimsə nə deyir, desin,
Nə söyləyir, söyləsin.
Yox!
Nə susuzundan ölən,
Nə ətir saça bilən,
Bu pılastikləri mən
Çiçək sana bilmirəm.

Mən bəzək – düzəkləri,
Gözəllik sananmıram.
Gözəllikdən nə rəngə,
Nə şəklə aldanmıram.

Nə sevən, nə sevilən,
Nə umub küsmək bilən,
Nə yaşamaq anlayan,
Nə də ki, ölmək bilən.

Cansız tör – töküntülər,
Gülmü, çiçəkmi olar?
Gül kəmaldır, həyatdır,
Həm açar, həm də solar!

Bu, gül dəyil, ölümdür,
Aldanışdır, dəhşətdir.
Yox, ona ölüm desəm,
Ölümə əhanətdir.

Olsun! Ölümdə solmaq,
Çürümək dəhşəti var.
Vəlakin toxum olmaq,
Cücərmək qüdrəti var.

Nə qızarıb saralmaq,
Nə açılmaq, nə solmaq,
Nə utanıb, qıpçınmaq,
Məhəbbət tanımamaq
Gülmək bilməyənlərdə
Qəhbəlik sifəti var.

*Tehran 1353/1/13*

***Kələməsiz, sözsüz şe`r***

İgirmi – otuz il əvvəl,
(Vuruşma illərində)
Böyük bir şair yazdı:
Müharibə bitərkən,
Öldürülən son əsgər,
Dəhşətli cür yazıqdır.
Mən, o yazıq əsgər,
Olmağı diləyirəm.

O gün sərhədlər aşan,
Bu şe`r, bu nəcib dilək,
İnsan sevər bir qəlbin
İstəyi, arzusu idi.

Dünən cəriydələrdə,
Bir şe`r də oxudum.
İki viyetnamlının,
Kələməsiz, sözsüz
Şe`rin:
*Bu gün iki vietkonq partiyzanı, özlərinə*
*partlayıcıMaddələr bağlayıb, Sayqonun ən*
*böyük mühümmat Anbarına soxulub, özləri*

*parça – parça olmaqla bərabər, minlər ton mühümmatı oda çəkdilər.Partlayışlar hələ də şiddtlə dəvam edir.*

Haman nümrə qəzetdə,
Daha bir xəbər də var:
*“Viyetnam barış müqavilənaməsinin üç günə qədər imzalanması gözlənilir.”*
Nə qədər gözəldir,
Nə qədər sehr edicidir,
Nə qədər “Şe`r”dir,
Adsız – sansız şairlərin yazdığı
Kələməsiz, sözsüz şe`rlər!

Olmaz!
Viyetnam həmasəsi,
İnsan həmasəsi,
Sözü kələmə ilə yazılmaz!

Nə qədər böyük,
Nə qədər ülvisən, ey insan!
Rəzalətə qapılarkən şeytan,
Fəziylətə uğrarkən,
İlahi boyda, əl çatmazsan!

***Gileylik***

-Səni “bulud” sanırdım.
Çöllərə yağar olsan
Quru, susuz kolları,
Yaşardıb göyərdərsən.

Bir gün də baxıb səni,
Qara nəft kimi gördüm!

Olsun
Nəft ışıqlıqdır
Çıraqlara tökülsə,
Komalar ışıqlanar.

Bulutlarda nəft kimi,
Tutulub qaralmasa,
Yağıb tökülə bilməz
.Aydınlığa çevrilməz.

## ***Bir hamı hamı bir***

Biri yarıya böldüm
Yarını da yarıya
Yenə də, yenə də,
Yenə də...

Yrilardan hər yarı
Hesabsız yarıların biri və bütünü idi!

Birin özü hamı idi
Və hamı,
Hədsiz – hesabsız birlər!

*Tehran - 1351*

## ***Səfər***

Sel axışlı bir axın
Hesabsız ləhzələri,
Bir bə bir ötüb keçir.
Dnizi əbədiyyət.

Sahilsiz kəhkəşanlar
Hər bir anı
Tamsız anlar boyunda anlar...

Bir ulduz parıldayır
Sönüb ya hələ qalır
Sönərsə də sönəcək
Sönsə də sönməyəcək

Parıltı müsafirdir
Hər sönüşü bir köçüş
Hər parlayış bir qonuş.

Yol uzunlardan uzun
Məqsəd uzaqdan uzaq
Çatacaq, çatmıyacaq!
Batacaq batmıyacaq!

***Səbir daşı***

“Səbir daşı”
Bu sözü də sözlərimin çoxu kimi
Mən anamdan eşitmişəm.
İnsanın qoparı analıq bağı,
İlk məktəbi Ana qucağıdır.
He... y analıq dünyası...
Ananın səsi...
İnci dolu sədəf sinəsi...
Başımı tövşək döşünə qoyduğum anlar...
Eşitdiyim hekmətlı dastanlar...
He...y...
O mənə
Qara baxtın
Faciəli taleinin,
Əlində sarsılan anasız bir qızın
Ürəyini “səbir daşı”na açdığını,
“Səbirə səbir daşı, mən deyim, sən səbir elə”-
Dərdini söylədiyini söylərdi.
Qardaşdan yardım dileyigini söylerdi.
Nə bilim?
Bəlkə də yazıq anamın
Əfsanəvi dona geydirdiyi
“Səbir daşı”ndan məqsədi mənimişəm?!
Yox!
Bu dastanı anasından eşitdiyini söylərdi o.
Anası da öz anasından
Olsun...
Ola bilir ki, hər törəyən nəsil
Qabaqkıların “səbir daşı” olsun.
Səbir...səbir...
Axı nə qədər..., neçə əsir?...

Mən səbir eləmək istəmədim,
Bəlkə də səbir edə bilmədim.
Axı sayın – hesabın bilmədiyim nəsillərin,
İnsanin yadına gəlməz illərin
Səbiri, dözümü
Mənim xırdaca bağrıma
Daraşlıq sinəmə dolmuşdu!...

Eşidirdim:
Məndən qabaq, məndən iraq,
Ayrı – ayrı diyarlarda
Səbiri – dözümü daşanlar vardılar.
Yenə eşitmişdim:

İnsanlıq adına ləkə
İnsan həyatına təhlükə olan
Yaramazlıqlarla
Duruşanlar, çürümüş nizamları dağıdanlar,
Yarlı – yaraşıqlı həyat quranlar var dünyada.

Vəhyin, ilhamın həyatdan alan
Allahsız bir “peyqəmbər”
Bu yolun, bu məzhəbin

Rəhbəridir – dedilər.
Can atdım,
Axtardım “Quran”ın tapdım.
Oxudum kəlmə - kəlmə
Sətir – sətir.
Varaq – varaq...
Daimən fikrinə daldığım.
Hər yandan sorağını aldığım.
Sin – sin axtardığım
Fəziylət dünyasının,
Səadət röyasının
Nişanaların onda tapdım.
Qəriybə dildə yazılmışdı bu “Quran”

Ağ, Qara, Sarı,
Əəb, Türk, Əcəm,
Rus, Fransız,
Savadlı – savadsız
Dünyanın hər beş qət`əsində
Ameriykada, Avropada,
Hindustanda, Çində
Oxuya bilərdi onu hamı.

Çox qısa,
Çox da aydınıdı sözləri.
Vaqe`də aydın ıdı sözləri.
Vaqe`də bir kələmə, təkcə bir: Əgər
Hər kəsin əməyi özünə verilsə
Kimsənin haqqını dartıb almasa kimsə

Dünyada samansızlıq olmaz,
Fəlakətdən, rəzalətdən iz - əsər qalmaz.
Bununsa bircə yolu var demək:
Dünyada. Yer üzündə
Haqsızlar çalışıb ac yatanlar
Birləşsin gərək!

Mən də səsimi ucaltdım.
Dünyada ucalan səslərə qatdım.
Haray çəkdim, hay saldım,

Hər yandan başıma toplandı mənim kimilər,
Səbiri. dözümü tükənənlər-
“Səbirə səbir daşları”!
Xoşluqla olmadı.
Bizi saymaq istəmədilər
Babamın içini yeyib,
Qabağına da şıltaq edənlər.
Tuşluq elədik,
Üsyan borusun çaldıq,
Acı - acı zəqqumları
Badə yerinə içdik,
Ömrümüzdən, canımızdan keçdik,
Çox öldük, az öldürdük.
Bir yerdə sındıq,
Bir yerdə qalib gəldik,
Biz təndirin hisli yerinə yapıldıq
Tətuzladıq, küt getdik,
Başımıza nələr gəldi, nələr...
Dönərgəmiz döndü,
Ocaqlarımız söndü.
Dal boyunlar sürahi qapağı kimi
Ağaclardan asıldı,
Kimlər öldü qurtuldu,
Kimlər gedər – gəlməz oldu,
Kimlərin necə olduğu bilinməz oldu
Güc tükəndi, haq gizləndi,
Bir daha nələr, nələr, nələr oldu...
Ömürlərin, günlərin, qızıl yarpaqların yel
apardı.
Qara başlar ağardı,
İsti ürəklər buza,
Güllər yarpıza döndü.

Tülək düşman qol – qanad açdı,
Ölümcüllər dirçəldilər,
Qarqış, nifrət çanaqları
Hörmət tapdı.
Işıq ürəklərin abidəsində
Pərəstiş olunan əllər
Şeytanların, fironların əlin sıxdı.
Bəli!
Güvəndiyimiz dağlara qar yağdı.
Kor olmuş gözlərim daha nələr görmədi?!
Bülül piyalələr dolu al şərab,
Qurtum – qurtum, dolab – dolab
Cırınq – cırınq
-Sağlıq!
-Sağlıq!
-Qan tökən əllər yorulmasın!
İlqarından dönənlərə eşq olsun!

Tarix həmişə cəlladlara boyun əyəcək?

Yox, yox!
Ey haqsevər insanların
Qibləsi olan əziz diyar!
Ey zəncirlərin qıranların
Ehtişamlı çıxışına tanıq olan
Qızıl meydan!
Bir gün "qorxunc İvanların
Başına kölgə saldığı günbəzin üstə
Nazlana - nazlzna əsən bayraq!
Ziyarət etdiyim müqəddəs tabut!
Səhər – axşam həqiyqi bir insan xatirəsini
Əzizləməyə gələn,
Duz – çörək bilənlərin qatarı!
Daşlara, metallara qazılan
Əbədi siymalar!
İsti qucağın
Əmək yorqunlarına açan
Yaşıl baş Suçu!
Yüz əlli illik yarasından
Hələ də qan axan vətən –
Mehriban Bakı, vəfalı Gəncə!
Başı bəlalı diyarımın
Axmaq  həsrətiylə çağlayan göz yaşı –
Göygöl!
Parçalanan yurduna ürək körpüsü olan
Namuslu oğul!
Ormanlı vətən torpağında
Bir çinar kölgəsinə həsrət qalan qardaş!
Hər gecə - hər gecə
Qardaş yuxusunu görən bacı!
Dərdini, odunu yazmaq uçun
Bir ömür daha borc eləmək istəyən dostum!
Qucaqlaşan qollarımızı
Vətənə nisgil edən yanar şair!
Yaradan əllərini öpdüyüm qocaman ustadlar!
Dərdlərini nəğmələrində dinlədiyim ölməz
sənətkar!
Gördüyüm, görmədiyim ürək dostları!
Axıtdığımız Araz – Araz, Xəzər – Xəzər göz
yaşları!
Ötəridir, ötəridir bu hal!
Bir daha "səbirə səbir daşı" olmayacaq
Səhənd!

*1350*

*Cəhan piyr əst bəd bonyad*
*Əz in fərhad koşha fəryad*
*Ke kərd əfsun o neyrəngəş*
*Məlul əz cane şiyriynəm*
*Hafiz*

Vəqtiy fərhad miymiyrəd
Eşq miymiyrəd
Ensan miymiyrəd
Fəryad miymiyrəd.

Ey donya, ey ensan!
Fəryad! Fəryad! Fər....ya....d!...
Əz dəste Fərhadkoşha fəryad!

***Fərhad***

*Proloq*
"Fərhad"
Bizim eldə,
Bizim yerdə,
Hamılara, hamılara,
Tanış ola,
Məmə yeyəndən, pəpə yeyənə,
Hər kimsənə
Taninan
Bu ad.

Nəsillərdən, nəsillərə,
Atalardan oğullara,
Oğullardan nəvələrə,
Miras qalan,
Bir arxalıq dəyil,
Bir doğmalıqdır.

Bu ad,
İstək, sədaqət.
Demək, doğruçu məhəbbət,
Özlüyün unutmaq,
Sevdiyin tutmaq.
Əbədiyyəti,
İstək uğrunda,
Fənalıqda axtarmaq səmbolu,
Gələcəyə
Toxum olmaq uçun,

Açıb solan gülü.
Elimin – günümün
Mə`nəvi siymasıdır
Yoğrulduğumuz xəmirin
Əsas mayasıdır.

İnan!
Heç zaman, heç zaman!
Sevgi – məhəbbət diyərək,
Külüngünü başına əndirərək
Əbədiyyət qazanan Fərhad,
Bizdən ayrılmaz.
Bu irsiyyəni bizdən almaq olmaz.
Hər vətən oğluna ata adıdır , bu ad.
Sanırsan,
Qranit dağları
Pənir kimi çapan
"Fərhad külüngü"
Doğrudan da əfsanədir?
Yox!
Həqiyqət aləminə gəlincə
Məncə həqiyqi istək,
Tam varlıqla məqsəd dalıca getmək,
Haman külüng,
Haman Fərhad külüngü dəyil,
Bəs nədir?

## *Birinci hissə*

Mən balaca Fərhadidim uşaqkən,
Gözəllikləri qanmışdım.
Elə bil süddən yanmışdım.
İlk əzəldən, tifil mən.

Kövrək ürəyim köklü idi
Saz tellərindən də.
Mizrabı, gözəlliklər.
Çalınardı
Sız-sız sızldardı
Gözəllik görəndə!...

Tüklərim biz – biz durardı,
Ürəyim çabalardı.
Bağrımı alışdıran
Döyüntülərin
Odu, alovu
Par - par parıldardı,

Gözlərimin yaşında.

Biləsən nə boyda idi
O zaman
Bu bicəkman
Bu “Fərhad”
Bədzat!
8-9 yaşında!

Dünyada hər nəyin,
Heyvanın, insanın
Gözəlin sevərdim
Gözəllərdən ötür ölərdim.
“Güləndam”dan ötür lap çox,
Həddi, hesabı yox!
Axı o,
Gözəllərin gözəli idi!.
Hələ eşqi, məhəbbəti tanımazdan əvvəl,
Eşqimin əzəli idi!
Gülər üzlü,
İri gözlü,
Ağ qabağı ay kimi,
Qara qaşları yay kimi,
Ətli – canlı,
İsti qanlı,
Dilbər bir qız idi Güləndam.
Kim bilir?
16 - 17 yaşında!
Şirin gülüşləri,
Gözəl kəhlik kimi
Qaqqıldayanda ağarışan
Sədəf dişləri,
Başa düşə bilmədiyim cazibə ilə
Titrəşən qaba döşləri,
Qara daşa dəysə dəlib keçən,
Süzgün baxışları.

Salxım – salxım,
Vurğun ürəkləri
Hörüklərinə hörülən
İpək tellərinin
Qıvrışları
Çırpındırardı körpə qəlbimi,
Quş ürəyi kimi,
Su üzündəki kimi.

Paltar yumağa gələrdi hər gün
Çay qırağına,
Mənim oynağıma.
Arxasında düyünlərdi

Gül pıtalı,
Qırmızı çadırasının üclarını.

Dizə qədər çırmalardı,
Yol – yol yusifi şalvarını,
Həm də dirsəkdən yuxarı
Sarı köynəyinin
Qollarını.

Şaqqıldayıb keçən
Bülül suların içində
Ağ biləkləri,
Mərmər əlləri
Paltarları övkələdikcə
Üzünə dağılan telləri
Lalə ürəyinin kakili idi diyəsən!

O, tez - tez
İşdən çəkərdi əllərini,
Ağ üzünə dağılmış tellərini,
Gümüş sırqalı qulqlarının
Dalına verərdi.
Gəldik dodaqları,
Qırmızı gülsabah qonçası kimi
Gülümsərdi.

Mən məftun – məftun,
Ona baxdıqcan
Füsunkar ədalarına
Say saldıqcan
O, məmnun – məmnun
Güləş qabaq
Alnın qırışdıraraq
Üzümə baxardı.
Duzlu gülüşlərin,
Gül çələngi kimi,
Üstümə atardı.
Taxta dəyirmanımı
Çox zaman
Suyun əks axışı ilə,
Aşağıdan yuxarıya
Fırlada – fırlada
Lap yaxınlaşardım ona.

Üzüm,
Sünbül şəlaləsi kimi çağlayan,
Əsmər boğazına ağnayan,
Qıvrım tellərinə sürtüşərdi.
Sinəm,
Tövür, tövür tövşərdi.

Saçlarından qovrulu buğdanın,
Çadırasından səhər ayazının
Ətiri gələrdi.

2

Hvalar payızladıqcan,
Sular soyuduqcan,
Yanıb yaxılmağa başladım.
Mən də Güləndam ilən.
Sevərdim, - söylədiyim
Sevgili əllər
Sır – sıralı suların içində
Nə hallar, nə hallar keçirərdi.
Bulaq otu yarpaqları kimi,
Göm – göy göyərərdi!
Dəqiqədən bir qızcığazın
Bükükləri arasında sıxılan,
Donuq əllərin zoqqultusunu,
Yanıb, yaxılan
Fənar kimi
Yığılıb, açılan
Alnının qırışlarında
Düyünlənib açılan
Qara qaşlarında oxuduğum kimi,
Yanar ürəyimin
Başında da duyardım.
İlan vuran adama oxşardım.

Nə edə bilərdim...
O il qış uzunu
Bütün röyalarımı,
Fikir dünyalarımı,
Qapsadı, Güləndamın
Bu işkəncəli həyatı.

Məgər yuxlardım?
Qışın sakit gecələrində,
Saatlar, saatlar,
Ayıq, göz açıq
Qalardım!
Neylərdim?
Gözlərimi damcıların
Hıslı pəncərəmizin
Qaralmış qıraqlarına
Rəsm etdiyi cür bə cür naxışlara
Zillərdim,
Nəqşələr çəkərdim,
Planlar tökərdim.
Çaya qalxan dolayının

Kıran sinəsində
Bir köhül çapa bilərəmmi?
Köhülün içərisində
Bir gölməş yapa bilərəmmi?
Yer altı ılıq sulardan
Bir bulaq çıxarıb,
Bu gölməşə buraxa bilərəmmi?
Oyuncaqlarımın içində
Cəm – cümhur
Kiçik bir belçə,
Çəkıc yerinə işlətdiyim
Başı əyri bir dəmir
Bir də bir uzun şişə
Gümanım gəlirdi

Hər gecə - hər gecə,
Xəyalımda,
Bu qazma alətlərimi
İşə salardım.
Anamın nağıllarında
Eşıtdiyim "Fərhad" kimi
Qırmızı kıranları
Pənir təkin kəsib çapardım.

Sonra da
Bilmirəm gecənin nə vaxtlarında
Şirin röyalarımla
Qucaqlaşıb yatardım.

***3***

Bayram ayı başlar, başlamaz
Havalar xoşlar, xoşalmaz
Baxçamızda dağ təkin qalan
(Çay qırağı dolayısına oxşayan)
Qar qalağının döşündə
Təcrübə etməyə başladım.
Uzun günlər çalışdım,
Tər tökdüm,
Buzlamış qarları
Qazdım, sökdüm.
Arzıladığım köhülü, köhülciyi
İstədiyim şəkildə,
Qarın altında
Qazıb bitirə bildim.
Məktəbdən qayıdarkən,
Könlüm xoş, ürəyim şən,
Saatlarımın çoxu

Bu soyuq daxmacığın
İçində keçərdi
O gündən.

Qazıb torpağa çıxardığım
Arxın içi ilən
Nazik qar altı sular
Axışıb keçdikcə,
“Bistun” dağlarının altından
“Şirinə” arx qazıb qayıran
Arxına süd axıran
“Fərhad”dan
Zövq alıb sevinərdim.
Mənə bu daraşlıq
Balaca, sop – soyuq,
Qapısız - bacasız daxmacığın
Vaqe`də olduğu kimi,
Buz kələva kimi yox,
Bəlkə daş divarla,
İsti havalı
Köhül kimi gələrdi,
Ürəyim dincələrdi.

Arxcacığın təkində
Zinə - zinə axışan,
Cansız. soyuq. lil sular
Gözümə istilikdən
Buğur – buğur Buğlayan
Arılıqdan
Büllül kimi parlayan
Zor – zor şaqqıldayıb çağlayan
Sular kimi görünərdi...

Paltar yuyan qız – gəlinləri görürdüm
Arxın otay - bu tayında.
Güləndam isə hamıdan başda,
Suyun lap çıxarında,
Hırıldaya, hırıldaya,
Ağ biləkləri, mərmər əlləri ilə
Paltarların suya çəkir.
Yoldaşları ilə
Pıçıldaşa, pıçıldaşa,
Deyib gülüb,
Qaqqıldaşa, qaqqıldaşa
Gahdan bir üzümə gülümsəyir,
Məmnun baxışları,
Duzlu işarətləri ilə
Mənə məhəbbət dəməti göndərir.

Qarlar əriməyə
Yerlər keşikəyə başlamışdı
Bir günəvər yaz günündə,
Belçəmi, çəkicimi, şişimi,
(Demək Fərhad babam kimi)
Ələ aldım mən də.

Tək başıma,
Bir özüm,
Bir də başımdaki sevda,
Gəldim çay qırağına.
Dolayının hər yanın
Gəzdim dolandım
Hər yeri dəhətlədim,
Zinəcar bir yerdə
“Qazacağam köhülün!” – diyə
Qapı yerisin xətlədim,
Çırmalandım,
Haydı, tappatab.
İşə başladi balaca “Fərhad”.

Yerin üst layı yumuşaq,
Alt qatı, qatı idi.
Az – maz sonra,
Belçəm batmadı daha.
Balaca çəkicimin,
Körpə qollarımın,
Gücü çatmadı daha.
Daş üzlü kıranları,
Qazıb çapmağa.

Qaş qaralana qədər tər tökdüm.
Yorulmaq bilmədən yeri qazdım, sökdüm.
Çox can atdım.
Gecəni yorqun - arqın,
Xurd düşdüm, yatdım.
Yerimdən duranda yarınkı gün,
Qollarım xərgəzləmiş budaq kimi,
Qup - quru qurumuşdu.
Ux, ux!
Əllərim suluq – suluq,
Qabar vurmuşdu.
Neçə gün işi dayandırdım
Qollarım yumuşaldı,
Əllərimin qabarı isə,
Az – çox sağaldı.

Yenə də çəkicimi işə saldım.

Bu dönə
Yoldaşlarımdan da
Kömək aldım.
O gün də bitdi,
Lakin köməkçilərim getdi ki getdi.
Axı hamısı xamlamışdı.
Hamısının əlləri,
Suluq bağlamışdı.

Bir də onların heç hankısı
Nə məhəbbət ağrısı,
Ürəkdə duymuşdular
Nə Güləndamın
Acımasiylə acımışdılar.
Sabahdan tək canıma,
Bir özüm, bir də başımdaki sevda,

Tək canıma çalışırdım,
“İynə iylə gor qazırdım”,- atalar demışkən.

***5***

Havalar qızdıqcan,
Yenə çay qırağı qaynaşırdı.
Paltar yoyanlarilə,
Nədənsə,
İz - əsər yox idi
Güləndamdan.

Hər yana soraq saldım,
Qabağıma gələndən xəbər aldım, dedilər:
Qulluq etdiyi ailə ilən,
Başqa məhələyə köçüb gediblər.
Kim bilirdi daha
Hansı çaya paltar yumağa
Gedirdi indilər.

Əl – qolum soyudu,
Yanlarıma sürüşdü.
Balaca “Fərhad”ın külüngü də demək,
Səsdən düşdü!
Məsum məhəbbətimin bağ- bostanı da
Soldu, saraldı.
Şirin arzılarimdan,
Gözəl röyalarımdansa,
Daş üzlü kıranların altında
Təkcə bir “qapı yerı” nişana qaldı.

***İkinci hissə***

Böyüdüm boy atdım,
Başımı başlara qatdım,
Lakin, yenə həmən
Gözəllikləri sevən
Gözəllərdən ötür ölən,
Vurğunudumki , dünən!...

Bu dönə dünyanı
Bütünlüklə Güləndam kimi görürdüm,
Həyatı, Təmamiylə faciəli görürdüm,
Güləndamın həyatı təkin.
Həqiyqi gözəllikləri itgin,
Səadət günəşin isə
Yatqın görürdüm!

Nağıllarda eşitmişdim:
"Abi Həyat" deyilən
"Xizri İlyas" adlı peyqəmbər içən
O suyu içənlər ölməyən
Bir su var zülmətlər içində.

Dastanlarda dinləmişdim:
"Övliya"dan olan
"Dəli ya bilici Bəhlul" deyilən,
Hər gün qarğı atını minən,
Fırtınalı dənizləri çapıb keçən,
Bir qələndər var imiş
O, hər gün qarğı atını
Suların üzündə çaparmış,
"Mədiyneyi Fazilə" adlı
Bir şəhərə vararmış,
Pul – pələ deyilən "sarı şeytan",
Bu şəhərə addım bassanmaz.
Orada yaşayanlar:
Fəlakət, şəqavət, həqarət,
Aclıq, yalavaclıq, məzəllət,
Hərbə - zorba, zülm, sitəm,
Qara – qorxu, qussə, qəm
Kimi şeylər, sözlər qanmaz,
Sələvata işlər.
Hər nə sevsə,
Hər nə istəsə,
Sələvata dilər.

O, suyu ışıq dunyaya,

Calıya bilərəmmi – dedim,
O şəhərə, diyara,
Vara bilərəmmi dedim.
Mənim dəli qələndər mindiyi
Qarğı atım yox idi,
Dənizlərdə sürməyə.
Xizri İlyasın üzündəki,
Işığım da yox idi,
Zülmətlərə girməyə.

Uşaqkən dinlədiyim,
Yolunu izlədiyim,
“Fərhad”ın həmasəsi
Yadımda idi hələ də.
Tay – tuşlarımı çağıraram, - dedim.
Yolu - məqsədi aydınlaşdıraram - dedim.
“Nəft” fanarlarımızı yaxarıq,
Polad uclu qazmalar taparıq,
Zülmətin bağrına doğru bir arx qazarıq,
Gedərik “abi - həyata” çatarıq,
Suyu arxımıza açarıq,
Axar ışıq dünyaya çay,
Hamimiz, hamılar,
O sudan qantararıq,
“Əbədi həyata” çatarıq.

Ölüm olmasa,
Dəryalar da bizə keçid verməyə bilməz.
“Qarğı atı”mız yoxsa da,
Dalğalı dənizləri,
Üzə - üzə keçərik,
“Mədiyneyi Fazilə”yə yetərik.
“Güləndamı”, güləndamları da
Oraya apararıq.
Sır – sıralı sularda
Paltar övkələməkdən,
Əlləri gövür – gövür göynəməkdən,
Canların qurtararıq.

Hay saldım çağırdım.
Boğaz yırtdım, bağırdım.
Uzun söz sovdan sonra
Məqsədi başa salabildim dostlara.
Tay – tuşlar birləşdik,
And icdik, himləşdik.
Çörək məndələrin
Dalımıza saldıq
Polad uclu qazmaları
Əlimizə aldıq.
Qazdıq, zülmətlərə çatdıq,

Fanarları yaxdıq.
Çoxları yoruldu.
Döndüm, geriyı baxdım,
Beş – üç nəfər canından keçən,
Bir də mən,
Qalmışdıq, çalışdıq
Uzun illər məşəqqət çəkdik
Hesabsız bəlalara dözdük.
Başımızın tükü ayağımıza salama gəldi
Bir çoxları yarı yolda cana gəldi.

Bilmədim işin harasında
Qazmalarımız qara daşa dəydı,
İşdən düşdü, kütəldi.
Bu işə sən demişkən,
Həqiyqi Fərhad külüngü
Gərək imiş əzəldən!
Bir nəsilin əzilməsindən,
Bayılıb can verməsindən,
Qara zülmətin köksündə,
Ancaq bir qapı yeri,
Nişana qaldış

***Qurtarış***

Son illərdə
Yolum düşdü ana şəhərimə,
İlk məhəbbətim gəldi xatirimə.
Uşaqlıq olurumun,
Getdim ziyarətinə.

İllər – illər keçdiyinə baxmayaraq
Elə gördüyüm sayaq
Kıran dolayı
Əvvəlki görkəmiylə
Dayanıb qalmışdı,
Tam daş ürəkliyi ilə, lakin
Döşündə qazdığım nişananı
Qaşı düşmüş boyunbağı
Ortalığı təkin
Əzizləyib saxlamışdı.
Çay qırağı
Onlar il qabaq
Qoyub getdiyim sayaq
Paltar yuyanlar ilə
Qaynaşırdı.

İlk baxışda
İri gözlü,
Qara qaşları yay kimi,
Ay qabağı ay kimi,
Ətli, canlı,
İsti qanlı,
Dilbər bir qızı,
Ağ biləkləri,
Mərmər əlləri,
Su içində
Paltar yuyar gördüm - yenə
Kim bilirdi, bəlkə
Güləndamın qızı iydi.

Bir az o yanda isə,
7 – 8 yaşlı,
Öz uşaqlığıma bənzər bir oğlanı
Taxta dəyirmmanı
Suyun əksi axını iylə
Aşağıdan yuxarıya
Fırlada – fırlada
Qızcığaza
Lap yaxınlaşar gördüm.
Hey..........
Əbədi yaşayırmış demmək.
Təmiz əməllər,
Yaradan əllər,
Dönməz iradələr...

Haydı oğlum!
Köhül qazmaq istəsən,
Fərhad babamızın
Qazmasın axtar gilən!
Bir də köməkçi axtarsan əyər
Eşq atəşi iylə alışıb yanan,
İstəklisi uğrunda can qoyan,
Doğruçu vurğunlarla yoldaşlaş – diyə
Çağırıb oğluma tapışırıq verərkən
“Sazımın sözündən”
Bunları pıçıldayırdım:

“Ayaqların qabardır, yollar daşlıdır,
Hər addımda müdhiş bir uçurum var.
Lakin qafiləni çəkib aparir
Sönməz bir iştiyaq, dönməz bir ilqar.

Yorqunlar yorulub qaldıqcan, çavuş
Yeni yolçulara gəl, gedək, deyir
Yiyəsiz qalmayır dəmir çarıqlar,

Atalar çıxarır, oğullar geyir!

***Şallaq***

Qanun?
Bütün qanun kitabların,
Vərəq – vərəq,
Yırt, doğra!
Qanun yazan əlləri burx,
Qələmləri,
Sındır, tulla!
Quranları, İncilləri
Mallaların, keşişlərin
Vur başına!

Ədalət?
“Ədalət”dən boş danışan
Boşboğazlın
Sıx boğazın!

Ədalət mələyi?
O min üzlü
Kor ləvəndinYol şahpərin!
Qəməsin al,
Başına çal!
Tərəzisin dart
“Ədalət naminə günahsız məhkum olan,
Qara zindanlarda saralıb solan

Məzlumların göz yaşınadan toplanan
Dənizə at!

Qazı?
Gözləri bərəlib sökülən,
Üz – gözündən “mətanət” tökülən
O qaş- qabağı sallağın
Qap gülməli papağın,
Qazalax yuvası qayır!

Haq?
Haq - deyə, həqiqət - deyə
Banlayan bayquşlara hayxır:
- Sus
Uladığın boş və mə`nasızdır!
Nahaq tökülən qanlara
Haqsevərlər başına qoparılan
Qanlı tufanlara

Milyonlar, milyonlar
Göz baxır!

İnsan?
Bu dişi qarnında quduzun
"Mədənyyət" çuxasını qap,
Başına bir cüt buynuz,
Gövdəsinə bir quyruq tap!
Siz!
İnsan taleini həll edənlər!
Nə söyləyim daxı,
Bir utanın axı,
Tüpürüm, baxın,
Bu "Midalı" da
Boylu arvad qarnı kimi
Qabağa verdiyiniz
Zınqırovlu döşünüzə taxın!
Hələ də, hələ də mən
Nə bu gun, nə də dünən
Babalarımdan qalma
Öz doğma torpağımda
Əti ətimdən olan,
Qanı qanımdan olan
Doğma qardaşım ilən
Görüşməyə haqlı dəyiləm.

*Tehran – Azər – 1345*

### *Xoruzlar banlayanda*

Gecə, gecə,
Necə deyim, necə!
Buludluq, dumanlıq.
Qaranlıq,
Qalaq – qalaq qalanıb,
Üfüqlər yerə yamanıb.

Yollar, yolçusuz,
Ay, ulduz,
Bulut altda gizlənib,
Ocaqlardaki közlər küllənib.

Kərvanlar?...
Neyləsin?...
Baş atıb yatıb,
Yügürək atlar yorulub,
Baş – başa çatib.

Gündüz gecəsiz olmaz!
Kim deyir yol gedən yorulmaz?

Sanırsan düşərgədə bir kəs yoxdur?
Yox! Nəfəs var, səs yoxdur.
Işıqlıq daşı sinəsinə vurub yalandan,
Hay - haray qoparan!
Yorulub yatan kərvanları,
Yorğun insanları,
Qoyun sürüsü tanıtdırma utan!

Meydanı boş görüb kükrəmə, xəfələn!
Sən də çobanlıq fikirindəsən, deyəsən!
Çox əl – Ayaq çalma!
Ortalığa qəhbə şüvəni salma!
Çək cilovu dayan!
Qoyun sorusu olmaz insan!

Yalan yerə əsmə,
Tələsmə, tələsmə,
Sənə deyirəm,
Sənə göstərərəm,
Xoruzlar banlayanda,
Dan ulduzu parlayanda...

## *Buz çiçəyi*

Gəldi çəpiş kimi şən, şeytan, vərhov
Nazlana – nazlana üzümə baxdı.
Əldə neçə pıta buz çiçəyi, o
Gülləri həvəslə güldana taxdı.

“Bunları yadigar saxlarsan məndən”
Diyə - göyərçin tək pırladı getdi.
Qəmzəsi ox kimi dəydi sinəmdən,
Ov ikən ovçusun ovladı, getdi.

Güldanda pıtalar qaldı bir zaman
Gülləri qurudu, töküldü bir – bir
Mənimsə içimi doğradı hicran:
“Bu nazın, ədanın mə`nası nədir?”

O, sellər üzündə üzən bir gülün,
Pıtasında açan gülə oxşardı,
Hər an bu dəhşətli talein yolun
Löhmə dalğaları bağrın oğardı.

Yarda – yaraşıqda pəriylər kimin,

Peşəsi yaramaz devlərə xidmət.
Qoynu bəxtəvərlik ocağı lakin
Nəsibi qaragün, qisməti həsrət.

O, sərt qayaların quzu ceyranı,
Qurşunlu, pıçaqlı şəhərdə dustaq.
Bir qarın minnətli çörək qurbanı,
Hər gecə bir qurdun evində qonaq.

Eşqə, məhəbbətə susuz ürəyi,
Gah ikiyəbağlı, gah. üçə bağlı,
Umudu, arzusu, eşqi, diləyi,
Bilməz nəyə bağlı, lap heçə bağlı.

Məni bir dəfəlik atırdı əyər,
Gedəndə gül niyə verdi yadigar?
Bilmirdi, bilmirdi, bilmirdi məyər
Gül nə qədər ömür edər, nə qədər yaşar?!

Ona söyləmədim, demədim nədən
Dərilən çiçəkdən yadigar olmaz.
Yüz də gözətləsən, yüz də su versən,
Kökündən ayrılan saralar, qalmaz.

Nə bilim, bəlkə də, o, ac maralın
Gümanı bu gülə gəlirmiş təkcə.
Bir də yarımaza nə yarcı – yarın
Sabahı o necə düşünsün, necə?

Sabahsız geçərkən günü həmişə,
Kədərlər ömürlük, şadlıqlar bir an
Sabahdan nə umub–küsəcəkdir, nə
Səhəri sıxıntı, axşamı hırman.

Şənliklər şadlıqlar, deyiş–gülüşlər,
Ona bir ötəri sazaq kimi idi.
Yıxıq ürəyində, sevgi, sevişlər,
Ancaq birgecəlik qonaq kimi idi

Birzaman dalınca dolandım xəstə,
Yerə - göyə zəncir saldım, tapmadım.
Axtardım, qoymadım daşı daş üstə,
Hər yandan sorağın aldım, tapmadım.

Gün keçdi, ay keçdi, il də qurtardı,
Qəmini könlümdən ata bilmədim.
Mənim də Saramı sellər apardı,
Nədənsə əlindən tuta bilmədim.

Özü itdi batdı, dumanda, çəndə,

Gülü də qurudu töküldü – olsun,
Qəmini yadigar saxlaram mən də,
Qəm ki, çiçək dəyil saralsın–solsun.

Unudan dəyiləm dərdin nisgilin,
Səhənd taqəti var məndə də qallam.
Şirinin özü tək qəmi də şirin
Gedibsə mehrimi qəminə sallam.

Dünən qar yağırdı, baxdım baxça, bağ
Son yarpaqlarını da tökübsaçmışdı.
Yalıncıq pıtalar əsirdi zağ – zağ,
Lakin, buzçiçəyi çiçək açmışdı.

Bir anda elə bil aləm dəyişdi,
Dumanlar danışdı, səs gəldi çəndən.
İçimə səslərdən vəlvələ düşdü,
"Bunları yadigar saxlarsan məndən"

Yenə yumaqlanan arzım, diləyim,
Açıldl həsrətə, qəmə dolaşdı.
Saz kimi çalındı yanan ürəyim,
İlhamım fışqırdı, nəğmələr daşdı.

Buz çiçəyi mənim sevgi çiçəyim,
Alqış bu dözümə, ilqara alqış.
Şaxtaya, borana kim dözərmiş, kim?
Səndə gör nə dərin mə`na var imiş!

Qızın ürəyimin oduna, qızın,
Sən mənim eşqimin son baharısan.
O günahsız qızın, pənahsız qızın,
Xəzanda gül açan yadıgarısan.

Səni ürəyimə əkirəm barı,
Köksümdə kök salıb budaq atasan.
Yağdıqca başıma zəmana qarı,
Hey çiçək açasan, çıçək açasan.

*Tehran – bəhmən ayı – 1350*

### ***Axır sujə***

*(Can İştayn Bəkə)*
Heyifsilənirəm, o günlərimə,
Xırsız bir namərdə aldanmağıma
O, insan adını oğurlayanın
Təzvirkarlığına tovlanmağıma.

Az dəyil, 20 il, mən bu namərdi,
Bir insan tanıyıb, tanıtdırmışam.
Bir çox özümdən də sadələrinə,
Bütün yazdıqların oxutdurmuşam.

Sən demə.deyənlər dediyi kimi,
Böyük məhək imiş insana zaman.
Şələ nə qədər də qaba olsaymış,
Axırsı keçərmiş ip dovanaqdan.

Dünyanın qəriybə oyunları var
İnsan da bu qədər tez aldanarmış?
Bu aldanmaq dəyil, satılqanlıqdır,
İştayn Bəki də almaq olarmış?

Bazar çox qızqındır yeni dünyada,
Vicdan da bir matah kimi satılır.
Bir ovuc dolara, bir ovuc pula,
Şərəfin, namusun daşı atılır.

"Qəzəb salxımlarln" yaradan əllər,
Qəzəb ordusuna top da atarmış.
Faşizm əleyhinə yazan qələmlər
Ələnib – dolanıb faşist olarmış.

Bu gün Viyetnama soxulanların,
Faşıst ordusuyla fərqi hardadır?
O da insan qanı içirdi, bu da
Baxsan haman aşdır, haman kasadır.

Bu quduzluqlara qarşı dünyada,
Etiraz səsləri göyə gedərkən
"Sartr"lar, "Rasel"lər məhkəmə qurub
İnsan cəlladların məhkum edərkən,

Masqalı bir yankı, axmaq bir kaboy,
Var – yoxun utuzur, vicdanın satır.
Məzlum və mübariz bir xalqa qarşı
Şərəfin güllə eyləyir, atır.

Viyetnamda çox toplar atılır hər gün
Sən də at topunu, gəlsin "Qəhrəman"
Bəli, zatı qırıq bir "ziyalıya"
Şərəfli yaşamaq dəyildir asan.

İndiyə qədər heç fikirləşmisən,
Viyetnamda nə gəzib, nə axtarırdın?
Maşanı çəkərkən heç bir düşündün
Kimlərin üstünə atəş açırdın?

Qələm – top, ərimiş qurşun mirəkkəb,
Kağaz bir haqsevər insan sinəsi.
Yaz, “böyük mühərrir” əsirgəmə yaz:
Can İştayn Bəkin axir sujə.si

Yaz, qoy şeytanların barigahında
Keçmişinin üstün örtsün bu ləkə
Yaz, qoy baş əydiyin yeni tanrılar
“Əski günahından” göz örtsün bəlkə!”

Viyetnamda çox toplar atılır hər gün
Sən də at topunu, gəlsin, “qəhrəman”
Bəli, zatı qırıq bir “ziyalıya”
Şərəflı yaşamaq dəyildir asan.

At gəlsin, topundan çıxan güllələr,
Təkcə viyetnamlını qırıb öldürmür.
Həyatın maraqlı sınaqları var,
Onlarla “İştayn Bək”lər də ölür.

Baxma, hələ nəfəs çəkirsən satqın
Ölüm, təkcə dəyil, nəfəs çəkməmək
Çoxlar  nəfəs çəkmir, yaşayır, amma,
Çoxlar nəfəs çəkir, ölüdür – demək.

*Aban ayı – 1346*

***Aydınlıq aşığıyam***

“Puçluq” səfsətəsinə,
Könlüm inanmayıbdı,
Əzəldən, lap əzəldn.
Bu qurqunu, dünyanı,
Hədər şey sanmayıbdı,
Nə bu gun, nə də dünən.

Bu necə puçluqdur ki,
Varlıq, təbiət kimi,
Çıxışı, cilvəsi var.
Bu, nə hədərlikdir ki,
Sevgi, məhəbbət kimi,
Quş qonmaz zirvəci var.

Əbədiyyət suyunu,
Neçün “İskəndər” kimi,
Zülmətlərdən axtaraq.
Həqiyqətin pərisi,

Bir gün doğsa da yəqin,
Aydınlıqdan doğacaq.

O dur ki, doğan gündən,
Aydınlıq axtarmışam.
Qaranlıqdan qaçmışam.
Bir qığılcım oluban
Közərib ışarmışam,
Ənginə yol açməşam.

***Ovçu ceyran***

Ovçu baxışların ıldırım kimi,
Şaxdıqca canları külə döndərir.
Kimsəni öldürsə, yaxsa da kimi,
Mənə həyat verir, umud göstərir

Könül quşlarına sallanıb baxmaz,
Əslan şikarına çıxıb bu ceyran.
Tərlan da oxundan can qurtaranmaz,
Yayiva, oxuva, özüvə qurban.

Oxuva gələndə zavallı sinə,
Ürək qan içində əl – ayaq çalır.
O, zalım gözlərdən yalvarım kimə,
Yolsuz nə dil qanır, nə tanrı tanır.

Eşqinlə köklənən bu şair könlüm,
Bir saza dönübdür, mizrabı sənsən.
Çal gülüm, çal gülüm əlivə dönüm,
Qoyma, bu sehrikar saz, düşə səsdən.

Şe`rimin pərisi, şe`rimin qızı,
Getmə nəzərimdən, getmə önümdən.
Qaranlıq gecəmin sənsən ulduzu,
Bəxtimin ulduzu batar sən getsən.

Şimşək baxışların şaxdır üstümə,
Şaxdır qoy od alsın bu sönük ocaq.
Məni yandırmaqdan qorxma, çəkinmə,
Mən yansam, yurdumuz ışıqlanacaq.

Səhənd sinəsidir, dəli ceyranım,
İçərisin odla, eşiyin odla.
Qoy eşq atəşində alışım, yanım,
Ocağın hörməti odladır, odla!

*Tehran - fərvərdin ayı - 1351*

***Gözlər***

Yenə kaman kimi çəkib qaşlarım,
Quldur baxışları vay məni gözlər.
Dağıdıb könlümün baxçasın, barın,
Yaxıb yandırmağa xərməni gözlər.

Əlindən kim qaçdı canın qurtardı,
Hər yanda min yanan, min–min alışan,
Dağıdıb tellərin edib pəriyşan,
Qəlb evin yıxmağa şanəni gözlər.

Süzgqün baxışdan ürəkler şan-şan,
Hər yanda min yatan, min-min alişan,
Dağıdıb tellerin edib pərişan,
Qəlb evin yıxmağa şanəni gözlər.

Həsrəti lalənin bağrın dağlayıb,
Şövqundan gül gülüb, bulud ağlayıb,
Yığıb dalısında dəstə bağlayıb,
Sünbülü, nərgizi, sürməni gözlər.

Zülfləri qap – qara, üzü aypara,
Nazı – qəmzəsəindən ürəklər yara,
Qüdrətdən çəkilib qaşlara qara,
Neyləyir – neyləyir sürməni gözlər.

Baxışı, gülüşü, hiyləsi, fəndi,
Qatıb – qatışdırıb püstəni – qəndi,
Bilmirəm ilk əzəl kimdən öyrəndi,
Çəmxəmi, işvəni, qəmzəni gözlər.

Sordum, şərmdəndir bu ya nixvətdən,
Başını qovzayıb baxmaz əbədən.
Dedilər özüylə dəyil, xilqətdən
Şiyvadan alıb bu şiyvəni gözlər.

Eşqi ürəyimdə talan qopardı,
Səbir – qərarımı çapdı – apardı.
Vurğun olmasaydı nəyə yazardı,
Səhənd bu qoşmanı, nəğməni gözlər.

***1340***

***Özgədir***

Açıq qabaq, alma yanaq, bal dodaq,
Canlar alan, o cananım özgədir.
Hər aşıq öz sevgisindən danışar,
Lakin, mənim şirin canım özgədir.

Çox gözəllər dünyaya gəlib – keçib,
Çox sonalar bu gölə qonub – uçub,
Çox cüyürlər bu bulaqdan su içib,
Mənim sonam, şux ceyranım özgədir.

Tellərini ağ üzündən yan verir,
Kiprikləri süngü kimi san verir,
Çox vurğunlar yar yolunda can verir,
Mənim yolsuz can alanım, özgədir.

Gül üzü gülşəndi, baxçadı, bağdı,
Dodağı bal ilən qarışmış yağdı,
Doğma vətənimin hər yanı dağdı,
Səhənd ilən Savalanım özgədir.

***İncilər***

Göy öz incilərini,
Saçıb qəlbirləyirdi.
İncilər damla – damla,
Tökülüb ələnirdi.
Gor təkin ağız açan
Gecənin daxmasına.

Bulud ətəyin açdı,
İncilər yağış oldu,
Yağdı dənizlər doldu.
Yel əsdi bulud qaçdı,
Göyün qəlbiri yenə,
İncilərlə dolu idi.

***Bayatılar***

Səhəndim ovçu gözlər,
Yay qaşlar, ovçu gözlər.
Burda bir maral gördüm,
Oturub ovçu gözlər.

Səhəndin daşlarına,
Çıxaydım başlarına.
Gözləri mənə baxmaz,
Vuruldum qaşlarına.

Səhəndin başı qardı,
Gün keçdi, baş ağardı.
Hamını yad öldürdü,
Məni öldürən yardı.

Səhənd dilər yaz gəlsin,
Qış tükənsin, yaz gəlsin.
Könlüm yarı arzılar,
Qələm götür yaz gəlsin.

Səhəndim, gül iylidir,
Yar məndən gileylidir,
Gül üzündən öpmüşəm,
Dodağım gül iylidir.

Səhəndin içi oddu.
Başımı duman tutdu.
Yar özün insaf eylə,
İlqarın kim unutdu?

Yar mənə qaş – göz atdı,
Südümə şəkər qatdı,
Dodaqlarından öpdüm,
Dodağım bala batdı.

Gül dərdim budağından,
Bal axır dodağından.
Ağzım dolub şəhdilə,
Öpmüşəm dodağından.

Ay çıxıb qəmgin – qəmgin,
Çən bürüyüb dövrəsin.
Ulduzların itirib,
Tək qalıb mənim təkin.

Səhənddə quzu mələr,
Ağ sinə, şux məmələr,
Ağlımı başdan aldı,
Başıma gətdi nələr.

Köynəyi ağ mış – mışa,
Dağlar çatıb baş – başa.
Elə bil bulud altdan,
Ay çıxıb qoşa – qoşa.

Tərlanın sar alması,
Yarım asar alması.
Ayrılıq dərdindəndir,
Rəngimin saralması.

Səhəndəm, məməqanlı,
Diş qanlı məmə qanlı.
Məməni qanlı qoyun,
Olsada qəmə qanlı.

Dağların qızı ceyran,
Otla yarpızı ceyran.
Könül ac qurda dönər,
Görəndə quzu ceyran.

Ağacda gül budağı,
Ceyran otlar bu dağı.
Yar məni atdı, getdi,
Necə çəkim bu dağı?

Oba köçər dağ qalar,
Gül solar, budaq qalar.
Dağları sellər oyar,
Ürəkdəki dağ qalar.

***Rübailər***

Gəlməz gözümə zərrəcə dünya mənim olsa
Dolmaz ürəyim kasəsi dərya mənim olsa
Şiyriyni də, Leylanı da, Əzranı da billah
Verrəm surusiylən sizə Şiyva mənim olsa.

Üqbanı verin zahidə dünya mənə bəsdir.
Kovsər nədi, bu sağəri səhba mənə bəsdir
Cənnətdə də, tubada da vallahi gözüm yox
Bir dilbəri xoş qamətu rə`na mənə bəsdir.

Ey sərvi səhi qaməti tubadan alıbsan
Sərxoş baxışı nərgisi şəhladan alıbsan
Yox! Nərgisi cadu da bu əfsunu bacarmaz
Bu sehri, bu əfsanəni Şiyvadan alıbsan.

Diyvanə könül gör necə Leylaya vuruldu
Hər gün yeni bir lövbəti rə`naya vuruldu
Sən`an kimi bir ömr üzün torpağa qoydu
Axırda atıb diynini tərsaya vuruldu.

Hüsnün bağına seyrə varan gülşəni neylər
Sünbül nəyə lazimdir ona, susəni neylər

Söylərlə ki, baxmaz sənə, mən söylərəm:
Əlbət,
Min aşiqi dilxəstəsi vardır, məni neylər?!

***Ərməğan***

*1*
Dinlə sözlərimi qardaşım Rüstəm,
Dinlə, qoy danışım, boşalsın sinəm.
Nigaranlıq xəyal atın axsadır,
Çünki, sözüm çoxdur, gecə qissadırş
Sözün qissasını qoy deyim sənə,
Sən iki səbəbdən əzizsən mənə
Bir bu ki, səninlə fəxr edirəm mən
Elimin layiqli bir oğlusan sən,
Bir də ki, tutduğum yolun mücəssəm
Mündəricəsini səndə görürəm.
Our ki, adınla güvənsəm əyər
Deməsinlər şair yaltaqlıq elər.
Ancaq bu sözləri buraxaq birbaş,
Sən mənə qardaş ol, mən sənə qardaş.
Ayrılıq saəti yaxınlaşdıqcan
Bu mə`nanı artıq duyuram ancaq.
Nə çəkirəm səndən ayrılmaqda mən
Şe`rim natəvandır, bu ifadədən.
Ayrılıq! Dünyaca qəm, qussə, həsrət
Toplanıb olmuşdu bu məş`um luğət.
Ayrılıq, ayrılıq, aman ayrılıq,
Amansız ayrılıq, yaman ayrılıq.

Mən el şairiyəm, sözüm elindir,
Ürəyim elindir, gözüm elindir.
Elimin namına ürək sözümü,
Qəlbimi, könlümü, iki gözümü
Ərməğan olaraq verim sənə,
Apar ellərimə, apar vətənə.
Yolun düşər olsa o şən diyara,
Bizdən salam apar 26 – lara.
Ən əvvəl Bakıya yolun düşəndə
Vurğunun torpağın ziyarət elə.
Xatırla bizim o ölməz ustadı,
Heyif ki, görməyi mümkün olmadı.
Cə`fər Cabbarlını, Hüsen Cavidi,
Şaiqi, Sabiri, bizim Vahidi,

Xəndanı, Bulbul tək el nəğməkarın,
Hacibəyof kimi xalq bəstəkarın.
Çoxdur vətənimdə batan ulduzlar,
Hələ də hamısı gün tək parıldar.
Hamısın – hamısın xatırla bizdən,
Adları silinməz ürəyimizdən.
Sonra böyük ustad Mirzəylə görüş
Bizlərə ən böyük arzudur bu iş.
Mehdi Hüsen kimi böyük sənətkar
Qəlbimiz daima onunla vurar.
Şexəli yoldaşla görüşəcəksən,
O, böyük talantı alqışla bizdən.
Yaradan əlindən öp Süleymanın
O, el dərdi bilən yüksək insanın.
Söylə ki, hələ də "Axırı Araz"
Dünyada heç belə "insafsız" olmaz.
Sıx Vahabzadənin "Bəxtiyar" əlin
Söylə qocalmasın şair əməlin.
Səlamla qardaşım Rəsul Rizanı
Göstər yurdumuzda "Qazan  Asanı"
Rahimi hörmətlə qarşıla gilən
Eşq olsun sənə, ey bəxtəvər insan.
Ürəkdən salamla Azəroğlunu,
Dönüb soruşarsa "Nir Kərvanından"
Hələ də "Ac qalır çalışan insan"
Mirvari bacımla görüşsən əyər,
Söylə "Dərdli Təbriz" yoluvu gözlər.
Heç xəbərim yoxdur Əli Tudədən,
Görsən söylə qardaş susmusan nədən!?
Söylə Kürçaylıya "Basma Əyləni"
Görəsən aldımı "Mirov Tikini".
Mədinə bacımın öp ana gözün
Söylə "Əyilməsin görüm heç dizin"
Bil ki, "Səhənd"ivin hər damla qanı
Bir "Səhənd" oluban tutur İyranı.
Bütün obalara, bütün ellərə,
Çalışan əllərə, azad dillərə,
Hamıya, dənizə, dağlara, daşa,
Böyügə, kiçiyə, yara, yoldaşa,
Bizlərdən alovlu səlamlar apar,
Söylə gözlərimi Araza baxar.

Qardaşım bir aaz da dinləsən məni
Bu səfərdə yalqız qoymaram səni.
Qonağı tək qoymaq bizlərdə pisdir,
Şe`rimin pərisi sənə munisdir.
Səninlə göylərdə qanad çalacaq,
Gələcək sizlərdə qonaq qalacaq.
Gəl ey xəyalımın yaşıl – qırmızı,
Yuyun daşğın axan gümüş sularda,

Ətirlən ətirli – güllü baharda.
Gecədən vəsmə çək qara qaşıva
Səhəri yaylıq et, bağla başıva.
Hənalan axşamın al şafağında
O, əziz diyarın bayram çağında.
Bir dəstə gül bağla al şəlalədən,
Şəhidlər qanından bitən lalədən.
Səhəndin ətirli çiçəklərindən,
Bənovşə, nəstərən, sunbul, yasəmən.
Apar ellərimə ərməğan olsun,
Sönməz eşqimizə tərcuman olsun.

*Tehran – 30 Azər ayı.-.1345*

***Ərməğan***

*2*
Gəldi xatirimə uşaqlıq çağım,
O sərxoş günlərim, şən gecələrim.
Silindi illərdən qalanıb qalan,
Üstünü toz basmış xatirələrim.

Gügürd kibritilə hər axşam üstü,
Onluq lampamızı anam yaxardı.
Düzülərdik hamı kürsü başına,
Samavar qaynardı, buğu qalxardı.

Atam çox gecələr evə gəlməzdi,
Səfərdə olardı yayıban qışı.
Söz sözə gələndə adına anam,
Deyərdi: Çöl quşu, biyaban adaşı.

Hər gecə atamı gözətləmədən...
Qəlyə şorbamızı töküb yeyərdik.
Bə`zən başımızı atıb yatardıq,
Bə`zən də oturub nağıl deyərdik.

Anamın mehriban, hüznülü səsi,
İndi də var hələ qulağımdadır.
Sevimli, vuqarlı, tutğun siyması,
Elə bil gözümün qabağındadır.

Çox nağıllar demiş o zaman anam,
Hər zadı zamanla adam unudur.
Çoxu xatirimdən silinib gedib,
Bu saat yadıma düşəni budur:

Keçmişlərdə iki istəkli varmış,

Şöhrətləri tutmuş kəndi – şəhəri.
Səfada, vəfada. eşqu ilqarda,
Hər yanda adları dillər əzbəri.

Bir gün iki aşıq, iki dildadə,
Məhəbbət aləmin seyr eləyərkən,
“De görüm nə qədər sevirsən məni”?
Deyə, qız soruşur sevgilisindən.

Oğlan ürəyinin sandığın açır,
Söyləyir: Dağlarca, göylərcə, yercə.
Ey dəli könlümün səbiri, qərarı,
Amma söylə görüm, sən məni necə?

-Səni o qədərlik dost tuturam ki,
Hər zaman sataşır gözüm, gözünə,
Elə bil qurbətdə, uzaq ellərdə,
Görüşürəm doğma elliyim iylə.

Oğlan acıqlanır, dodağın büzür:
-Görünür sən məni sevməyirmişsən,
Bütün el – obanın daşını atır,
Baş götürür gedir o vilayətdən.

Gün keçir, ay keçir, illər dolanır,
Qəriblik iyidin amanın kəsir,
Vətən deyə, göynür ucu,
Ürəyi ağacda yarpaq tək əsir.

Bir gün tükanında oturan anda,
Uzaq bir elliyi girir qapıdan.
Bilmirəm oğlana nə hal üz verir,
Ancaq ki, ayağa durur oradan.

İşindən – gücündən əlini üzür,
Var – yoxun buraxır, hər zadın atır,
Vətən deyə yolu qabağa qatıb,
Gəlir sevgisinin evinə çatır:

-Ölüncə götürməm üz ayağından,
Kəmallı sevgilim, bağışla məni...
Başım daşdan – daşa dəydı usandım,
Ayıldım, düşündüm, tanıdım səni.

Qardaşım, məqsədim boş dastan dəyil,
Bu nağılı çoxdan eşitmişdim mən,
Ancaq, o zavallı tükançı kimi,
Mən də mə`nasını düşündüm dünən.

Dünən ki, sən birdən qapımdan girdin,

Demirəm nə halət üz verdi mənə,
Düşünürəm, hər nə desəm artıqdır,
Baxışım hər sözü söylədi sənə.

Duyduq ikimiz də bu mə`nanı biz,
Ancaq o oğlanla bir fərqimiz var,
Onun ixtiyarı öz əlində idi,
Lakin, hani məndə - səndə ixtiyar?

Ürəklər də, yollar kimi bağlıdır,
Duyğu qapıları torpaqlanıbdır,
Sanki, vicdanlar da dodaqlar kimi,
Tikilib, qapalıb, qıfıllanıbdır.

Çoxlarına açdım ürək sandığın,
Ancaq ki, dərdimi bircə sən bildin.
Kaş görüşməyeydim sənlə də əsla,
Məni bükük gördün sən də büküldün.

Bəlkə "yol azıbsan" sən də nə bilim,
Qəribi, yoxsulu, yoxlayan olmaz,
Bu nə faci`ədir, nə quruluşdur?
Qardaş da qardaşın halını sormaz?

Çoxlarına salam göndərdim səndən,
Hanı salamımı alan kim oldu?
Sayarkən bağrımın yaralarını,
Hansı göz yaşardı, hansı göz güldü?

Qəribə "yengim ye" zəmanəsidir,
"Həyatın qəribə romanları var"
"Payandaz" döşənər "sultan"lar gəlsə,
Obalı qardaşdan salam almazlar.

Qarqış zəmanənin qanunlarına,
Qarqış ürəkləri ayıranlara.
Qarqış insanları qəfəsə salıb
"Bəşər huququndan" dəm vuranlara.
(bu şeri yazanda Tehranda bəşər hüququnun
iclası keçirilirdi)

Kimə deməliyik dərdimizi biz?
Dil bilənim hanı söz qanan hanı.
Əsir bir millətə, məhkum bir elə,
Qayğı çəkən hanı, ağlayan hanı?

Kora gecə - gündüz yəqin ki, birdir,
Nədən qorxuram qoy deyim sözümü.
Mən ki, baxar koram qoyun dustaqban,
Heç əsirgəməsin, oysun gözümü.

Dilimi dalımdan çıxartsalarda,
Qoy, qardaş dərdimi deyim, barı bil.
Güneydən quzeyə, şərqdən qərbə,
Hansı xalqi gördün bizim tək zəlil?

Demirəm dünyada əsarət yoxdur,
Çox yerlərə süngü taxmış iste`mar.
Ancaq bizim kimi əzilən azdır,
Harda “haq verməz” var, “haq batırmaz”var.

Korə, Viyetnam, Alman bölünüb, amma
Dünya bilir belə bölünmələr var.
Söz gəlib çatanda Azərbaycana,
Farsda bir məsəl var: “enqar nə enqar”!

Milli azadlıqlar əsri olsa da
Hər yerdə, hər yanda adı bu əsrin,
Nə etmək “dünyanı buğda tutsa da,
Kəhliyin ruzusu çınqıldır” həmin.

Bu “şərəf” bu.”şövkət”. bu “qüdrət” bu “şan”
Havar, doğrudanda bizə ar olsun.
Həyatın amansız bir qanunu var,
Tə`sübsüz millət gərək xar olsun.

Milli tə`sübdən danışdım, olsun,
Əslini itirən həramzadadir.
Mərd oğul vətənin haqqın itirməz,
Vətən insana ən böyük anadır.

Qoyun məhkum olum “millətçiliyə”,
Dünyada millətin sevməyən kimdir?
Dilin, elin, yurdun talan etsələr,
Acıyıb başına döyməyən kimdir.

Gərək gözlərindən göz ötə bir kəs,
Qarqa yuvasına yanaşa əyər,
Niyə vətənimi sevməyim, niyə...
Mən bir qarqadan da əsgiyəm məyər?

Mən demirəm “üstün nəjad”danam mən,
Demirəm, ellərim ellərdən başdı.
Mənim məsləkimdə, mənim yolumda...
Millətlər hamısı dostdu, qardaşdı.

Çapmaq istəmirəm mən heç millətin,
Nə dilin, nə yerin, nə də əməyin.
Təhqir etməyirəm, hədələmirəm,
Keçmişin, indisin, ya gələcəyin.

Mən ayırmayıram, ayrı salmıram,
Qardaşı qardaşdan, arvadı ərdən,
Atanı baladan, əti dırnaxdan,
Ürəyi ürəkdən, qanadı pərdən.

Pozmaq istəmirəm mən birlikləri,
İnsanlıq birliyi idealımdır.
Qardaşlıq, yoldaşlıq, əbədi barış,
Dünyada ən böyük arzılarımdır.

Ancaq bir sözüm var: mən də insanam,
Dilim var, xalqım var, yurdum – yuvam var.
Yerdən çıxmamışam göbələk kimi,
Adamam  haqqım var, elim – obam var.

Qul yaranmamışam yarananda mən,
Heç kəsə olmaram nə qul, nə əsir.
Qurtuluş əsridir insana bu əsr,
Əsir olanlarda buxovun kəsir.

Ey doğma elimin namuslu oğlu,
Ağlama, Gözünün yaşına qurban.
Gəldiyin o doğma əziz diyarın,
Olum torpağına, daşına qurban.

Səndən gileyləndim dilim lal olsun ,
Qardaş gileylənsə, qardaşa neylər?
Atalar demişlər dünyada insan,
Həmişə umduğu bir yerdən küsər.

Nə etməli? Dərdli deyingən olur,
Əyər çox danışdım bağışla məni.
Bu qədər qonağı darıxdırmazlar,
Bilirəm, incidib yormuşam səni.

Bir az da sən danış, dilinə qurban,
Danış el – obadan, danış vətəndən.
Əyləş, qoy istəkli, doğma xalqımın,
Ətrini, iyini iyləyim səndən.

Bu sənsən gəlibsən? Gözlərim aydın,
Yenə gedəcəksən labüd vətənə,
Yenə də “Ərməğan” istəsən məndən,
Bilmirəm – bilmirəm nə verim sənə?

Qəlbimi, gözümü ilk səfər verdim,
Layiqli bir zadım yoxdur bir daha.
Ancaq bir quru – boş canım var qardaş,
Yeri gəlsə verrəm, verrəm onu da.

Yenə də alovlu salamlar apar,
Yurduma, elimə, qardaş – bacıma.
Bu dəfə “Cəmili”, “Sarıvəlli”ni,
“Nəbi Xəzri”ni də ancaq unutma.

İstə, qardaşlarım səs versin mənə,
Sözümüz də haqdır, yolumuz da haq.
Həqiyqət yoludur insanın yolu,
Nahaqqı haqqına tapışırar haq.

Yenə düşünürəm bir faciəyə,
Yenə qardaş səndən ayrılmalıyam.
Qarqış ayrılığa bu uğursuzun,
Əlindən bilmirəm nə olmalıyam?

*Tehran – Fərvərdin ayı – 1347*

***Üçüncü ərməğan***

Yenə qanadlanıb şahin xəyalım,
Hicran sabahının Ala dağında.
Durub yatağında gərnəşir günəş.
Səhər gözün ovur dağlar dalında.

Işıq kərvanının çovuşuyam mən,
Çəkil qənşərimdən, qaranlıq, çəkil!
Fələq bayraq açıb başım üstündə,
Keçdi sən görənlər, vaxt o vaxt dəyil!

Bəsdi yalqızların yolunu kəsdin,
Yolumda yarqanlar, quyular qazdın.
Yetər uzun illər, uzun zamanlar,
Ayrılıq hökmünü adıma yazdın.

Çəkin qəzəbimdən yolumu tutma,
Qardaş arxalıyam, qardaş köməkli.
Hər qarış bir nər fınxırır,
Qaplan səlabətli, aslan ürəkli.

Günəş yumuruğun döyüb dalımda,
Ovcunda milyonlar almas cida var.
İşarət eyləsəm qaşın tərpətsə,
Qara seyvanuva od vurar, yaxar.

Çaylar keçid verin, dağlar yol açın,
Müjdə gətirmişəm, sizə bahardan.
Aşıq, qəm sazıvı çal daşa sındır,

Sənə peyğamım var sevgili yardan.

Dağıvı görməyim Rüstəm qardaşım,
Dar gündə qəriybə dadıma durdun.
Doğma vətənimdə, doğma elimdə,
Məni qərib görüb halımı sordun.

Bir ömür dərdimi gizli saxladım,
Odlandım, alovum özümü yaxdı,
Oduma su səpən olmadı, bircə,
Gözlərimin yaşı içimə axdı.

Həkimsiz, qayğısız, dava – dərmansız,
Simlədi, sümüyə işlədi yaram.
Üzümə bağlandı bütün qapılar,
Özümdən əl üzdüm, kəsildi çaram.

Çoxlar başım üstə gəldi, sovuşdu,
Lakin əhvalımı soran olmadı.
Dərdimi, yanğımı soran çox oldu,
Ancaq, yanıxmadı, gözü dolmadı.

Nə bilim "lazimi mülahizələr",
Yalnız qorxutmadı səni qardaşım.
Elimin əməyi həlalın olsun,
Baxdım qeyrətüvə ucaldı başım.

Açdım göz önüvə qəm kitabımı,
Oxudun dərdimi sən varaq – varaq.
Qoymurlar söz deyim ana dilimdə,
Mehriban gözlərin parıldayaraq,

Ürək yanan tapıb ürəklənərək,
Ağladım, gözümdən sellər atlandı.
Yaşımın vəryanı dövəcə getdi,
Qayalar şumladı, daşlar islandı.

Ürəklə dinlədin qardaş qəmini,
Ürəkdən bağlandın qəmə, kədərə.
Bağırdın, höykürdün abdala döndün,
Car çəkdin çov saldın bütün ellərə.

Dilimi, ağzımı bağlı görübən,
Mənə ağız oldun, mənə dil oldun.
Bir dərdli şairin dərdin deməyə,
Dil açdın, sevdalı bir bülbül oldun.

Sənlə qanadlandı şe`rim, ilhamım,
Axdı xəyalımın qaynar çeşməsi.
Səninlə səsləndi boğulmuş səsim,

Yayıldı qəlbimin ahı, naləsi.

Ellər, xəbər tapdı halımdan mənim,
Bir daha dərdimiz dillərə düşdü.
Qələmlər, zəxmələr cövlana gəldi,
Nəğmələrə düşdü, tellərə düşdü.

Ürək nalələrim, ürək şe`rlərim,
Titrətdi onlarca şair ürəyin,
Qaralmış odumuz közərdi yenə,
Qızdırdı xalqımın arzı çölməyin.

Ana südü kimi şirin nəğmələr,
Fışqırdı hər yandan, üstümə axdı.
Sərin dan yelləri ruhuma əsdi,
Yenə yatmış baxtım səmrədi, qalxdı.

Mənim Süleymanım, mənim Rahimim,
Qabilim, Mədinəm, Balaşım mənim.
Kimlərim, kimlərim, bir daha kimim,
Tofiqim, Bəxtiyar qardaşım mənim,

Səs verdi səsimə doğma Bakıdan,
Coşdu qanlarımız Xəzərimiz tək.
Açdı qurşağını "köynəyin cırdı",
Şahdağı Səhəndi yaralı görcək.

"O acı fəryadlar, şirin nəfəslə
Mənim də könlümün ahı, naləsi.
Qardaşım, Təbrizdən gələn bu səslər,
Bakının səsidir, Bakının səsi."

Qabilim göstərdi qabiliyyətin
Dərdimdən, dərdindən yandı alışdı.
Şirin nəğməsiylə, şirin sözüylə,
Nələr pıçıldadı, nələr danəşdı!

Təmiz arzısıyla, niyyətiylə o,
Qardaş harayına Təbrizə gəldi.
Bu şanlı vusala fikirləşərkən,
Bir gözdə ağladı, bir gözdə güldü.

Rahimim yağdırdı rəhmət yağışn,
Suvardı eşqimin baxçasın bağın.
Göy tək guruldadı, şimşək tək çaxdı,
Yandırdı qəlbimin umud çırağın.

Bu namərd zamanda Koroğlu kimi,
Qardaş diyə - diyə meydana gəldi.
Işığa vuruldu pərvanalar tək,

Başından keçməyə mərdana gəldi.

Nəğmələr mülkünün Süleyman şahı,
Başımı heşmətdən ərşə ucaltdı.
Odlar ölkəsinin xalq şairi,
Səhəndin şə`nində nəğmə yaratdı.

Əbədi çırpınsın el diyə vuran,
Ürəklər, ürəklər, ışıq ürəklər,
Gül açsın, bar versin, hasilə dolsun,
Vətənə bağlanan böyük diləklər.

Savalan ürəkli, Səhənd köməkli
Arzısı, əməli, diləyi vətən.
Elimin gül oğlu, vətən şairi,
Şe`rinin nəfəsi, ürəyi vətən.

Azəroğlu, mənim könül sırdaşım,
Harındı, yarasın çəkdi, qopardı.
Qəlbinin kamanın dilləndirərkən,
Fəxrə bax Səmədə məni oxşatdı.

Dərin yarasıyla, sönməz oduyla,
Qardaşım Tofiq də yandı, alışdı.
Vətəndə vətənsiz qalan qardaşım,
Mənə nələr dedi, nələr danışdı.

Yurdumun, elimin namusli qızı,
Mədinə, mənim o vəfalı bacım.
Vətən həsrətindən, hicran qəmindən,
Mehriban ürəyi yaralı bacım.

Eşitdi səsimi ağladı güldü,
Bulud tək tutuldu, dəniz tək daşdı,
Yanar nəğməsiylə, yanar hissiylə,
Yenə də Təbrizdən söz – söhbət açdı.

Dinlədim bacımı göz yaşlarımla,
Həsrətdən ciyərim yandı – yaxıldı.
Bağrım başı kəsik bir quşa döndü,
Soyuldu, ütüldü, şişə taxıldı,

Xəyalım şe`rindən qanad bağladı,
Mən də uçdum, getdim tozlu Təbrizə.
Şibli gədiyindən boylandım, baxdım,
Qıfıllı dodağı sözlü Təbrizə.

Yenə yaslı gördüm ana şəhəri,
Şəfəqlər qanlıydı üstündə yenə.
Tüstüyə batmışdı Eynalıdağı,

Qara çəkilmişdi Ərkin üstünə.

Səmirsiz – səmirsiz mürgüləyirdi,
O, sərxoş gecəli – gündüzlü şəhər.
Bum–buz bozarmışdı, zağ–zağ əsirdi,
O isti ürəkli, gül üzlü şəhər.
Solmuşdu Basmıncın badam “bağları”,
Sarı gül açmışdı gilanar – alça.
Gəzirandan çıxan sular qanlıydı,
Bir lalə yox idi “Lalə” boyunca.

Gəzdim şəhərimdə qəriblər kimi,
Tanıyıb qarşıma çıxan olmadı.
Gəzdim küçə - küçə, ev –ev dolandım,
Dönüb bir üzümə baxan olmadı.

Baş alıb vətəndən qaçıb getmişdi,
Bütün tanıdığım doslar – tanışlar.
Bülbül uçarında, gül budağında,
Tikan gördüm, bir də püsmüş bayquşlar.

Şəhərim boyunda qəm şələsini,
Çiynimdə gəzdirdim, tər tökə - tökə.
Bircə nə gəzirsən, nə dolanırsan,
Diyə soruşmadı halımı kimsə.

Axtardım, Şəhryar qapısın döydüm,
“Kimdi?” səsi belə eşitmədim mən.
Dedilər: nələrə...qarışıb başı,
İnanma, özünü görə biləsən!

Başıma dar oldu doğma şəhərim,
Tutuldum, hövkürdüm fəğana gəldim.
Yenə də üz qoydum dağlara - daşa,
Savalana gəldim, Muğana gəldim.

Yaşıl döşəməsin yığmışdı çöllər,
Qurumuşdu yorğun gözlər bulaqlar.
Coşğun şəlalələr səsdən düşmüşdü,
Susub lal olmuşdu sözlü bulaqlar.

Dağlar duman idi, üfüq görünməz,
Dörd bir yanda ancaq qurd ulaşırdı.
Azıb itirirdi yolçular yolun,
Kimi büdrəyirdi, kimi şaşırdı.

“Nanə”lər quruyub Yovşan olmuşdu,
Tir – tir titrəyirdi soyuqdan kollar.
Oyulub, uçurum, yarqan olmuşdu,
Zirvələrə gedən cığırlar, yollar.

Elatlar yaylaqdan köçüb getmişdi,
Yurd da odlar sönüb, ocaq qalmışdı.
Ağaclar kəsilib odun olmuşdu,
Yerdə neçə quru budaq qalmışdı.

Dumanlar içində gözdən itmişdi,
Başı Savalanın, başı Səhəndin.
Ağ kürkün başına çəkib yatmışdı,
Dərəsi, təpəsi, daşı Səhəndin

Yenə başə lovlu, günü qobarlı,
Kəslərdən nakəsə pənah gətirdim.
Səmalar başına dar olan quş tək
Qayıtdım, qəfəsə pənah gətirdim.

Ömürlük zindan iymiş pəs mənim taleim,
Qaradan qara imiş alnımın yazısı.
Dünyada məndən də yazığı olarmı?
Arzısı dilində danışmaq arzısı!

Əyər ah yerinə sinəmdən ah çıxsa,
Əyər bir od olsam, yandırsam aləmi,
Yer – göyü, dünyanı, insanı qarğasam,
Qardaşım, qınama, qınama sən məni.

Zəhhaklar, Neronlar, Hitlerlər dünyada,
Neyləsə, neyləsə, neyləsə, neyləsə,
Açgilən tarixi, varaqla baxgilən,
Dilində - danışma! Demədi bir kəsə.

Ovçular ovları, quşları ovlayıb,
Tükünü dağıdıb, içsələr qanından,
Ördəyə qarqa tək qarılda deməzlər.
Heçzaman, heçzaman, heçzaman, heç zaman!

Yurdumu, elimi dustağa salanlar,
Söyləsin mən daşam, torpağam, ax nəyəm?
Qoymurlar sözümü ana dilində,
Söyləyəm, söyləyəm, söyləyəm, söyləyəm!

Bu dərddən, bu qəmdən, bu fəlakətdən,
Qəm zinhara gəldi, kədər hövkürdü.
Ürək atəşindən, ürək odundan,
Səhəndin ağzından alov püskürdü.

Bir əsrin fəryadı, dadı səsləndi,
Hər qışqırığımda, hər harayımda.
Hayıma toplanan qardaşlarımla,
Səsimə səs verdi Bəxtiyarim da.

Dərdimi dinlərkən qardaş dilindən,
Gülüşün itirmiş gözlərim güldü.
Dərd anlayan tapdım, dərd bilən tapdım,
Sinəmdən elə bil dağ götürüldü.

Bəxtəvər başıma bəxtiyar oldum,
Mənə namə gəldi Bəxtiyarımdan,
Vaqif yaraşıqlı, Vurğun siymalı,
El nəğməkarımdan, iftixarımdan.

İylədim ətirli qardaş nəfəsin,
Könlüm sözləriylə qucaqlaşaraq.
Dinlədi elimin, yurdumun səsin,
Doğmadır nəğməyə ac qalan qulaq.

Yaram neştərləndi, dərdim deşildi,
Sazımın telləri fəğana gəldi.
Buludlar toqquşdu, ıldırım çaxdı,
Od, oda yetişdi, alov yüksəldi.

Qoy olsun, dərd əhli dərddən çəkinməz,
Ərimiş dəmirin nə bakı közdən?
Demişlər dərd, eşqin yaraşığıdır,
Ürək yanmayınca yaş çıxmaz gözdən.

Mən od yaranmışam sudan bezaram,
Odumu yelləsin ürək yoldaşım.
Mənə töhfə versin bir tonqal odun,
Yox, su istəmirəm, vermə qardaşım.

Od, oda çatmasa qardaşım haçan,
Alovlar yüksəlib, ışıq saçacaq?
Bulud toqquşmasa, şimşək çaxmasa,
Qaranlıqda kimlər yolun tapacaq?

Haray çək, haray çək Luqmanım qardaş,
Dərdimi, dərdini yaxşı tapıbsan.
Tanıdaq dünyaya bu dərdi ancaq,
Dərd tapılsa olur çarəsi asan.

Demə eyni dərdi sənlə bölüşdüm,
Yox, yox – varımıza sənlə şərikəm.
Dərdim də yurdum tək bölünüb əyər.
Bilənlər bilirlər mən bölməmişəm.

***Arazı ayırdılar,***
***Qum ilən doyurdular.***
***Mən səndən ayrılmazdım,***
***Zülm ilən ayırdılar!***

Necə ki, bağırıb ağlamamışam?
Qışqırmaqdan səsim tutulub baxsan.
Çağirsam səsimə əl – üzü qanlı,
Yüz şəhid səs verər hər bir məzardan.

Mənim Sübhilərim, Cavidanlarım,
Gör nələr dedilər tapşırdılar can:
“Bu ürək sözümdür dönmərəm səndən
Boğsada gər məni dar, azərbaycan!”

Görən tarix niyə utanmayır bəs?!
İnsanda dünyada vətənsiz olar?!
Utansın, utansın, utansın bəsdir,
Haqdan, ədalətdən boş danışanlar!

Şairim, çox gözəl söylədin dərdi,
Əlivi düz qoydun yaramın üstə.
Qardaşım, gəl indi birgə düşünək,
Dərdimin, dərdinin davası üstə.

Müşkülü tapışıraq ağıllı başlara,
Dişlənsin dodaqlar, qırışsın alınlar.
Şübhəsiz dünyada hər dərdə çara var,
Qapalı qapılar çalınsa, açılar.

Şairim, şairim, kökləyək sazları,
Vətənin borcunu ödəyək, ödəyək.
Haq sözdə əsər var, həqdə bir kəsər var,
Haq deyək, düz deyək, yüz deyək, min
deyək.

Dərdimiz – nəğməmiz, nəğməmiz dərdimiz,
Dinləsin xalq bizi, dinləyək xalqı biz,
Düşünsün, duyuxsun şəhərimiz, kəndimiz,
Təkanı yaradaq, özümüz, özümüz.

Biz - vətən, vətən biz, xalqımız bir dəniz,
Tanıdaq ellərə mən səni, sən məni.
Dalğalar gəmimiz, fırtına şortamız,
Bərk tutaq sükkani, qaldıraq yelkəni.

Eyləyək həlhələ, qavzayaq vəlvələ,
Şəfələr bayrağım, el olsun dayağım,
Yapışaq əl - ələ, qopsa da vəlvələ,
Büdrəməz ayağın, büdrəməz ayağım.
Gücümüz el gücü, “el gücü – sel gücü”,
Əlimiz xalq əli, qolumuz xalq qolu,
Arxamız insanlıq, üzü ağ, alnı açıq,
Yolumuz – Leninin açdığı haq yolu.

“Güneydən, quzeydən yollayaq sürgünə,
Naləni, naləni, naləni, naləni,
O sahil, bu sahil taxsınlar köksünə,
Laləni, laləni, laləni, laləni”

Bölünən ürəklər yapışsın, qovuşsun,
Dünyamız insana sə`adət paylasın,
Ellərin başından hər qada sovuşsun,
Körpələr dinləsin “Elçin”in laylasın.

Alnın açıq olsun, üzün ağ olsun,
Vətən qasidisən bu gün bizə sən,
Mən yazdım, tarix də yazacaq bunu,
Namuslu oğlunu unutmaz vətən!

Şairin töhfəsi nəğmədir, sözdür,
Ürək sözlərimi ərməğan apar!
Layiqsiz olsada, əsərsiz dəyil,
“Ən böyük şö`lələr bir qordan qalxar”.

Şən gedib, şən gələsən,
Sağ və əsən gələsən,
Yolların açıq olsun,
həmişə sən gələsən.

Bakıda gül dər mənə,
Sal suya göndər mənə,
Şadlıq göndərənməsən,
Göndər qəm – kədər mənə,

Dərdimiz qalax – qalax,
Ayaq qabar yol uzax,
Yadına mən düşəndə,
Gecələr ulduza bax!

Dağlarda yağın olsun,
Günəş çırağın olsun,
Açılsın bağlı yollar,
Səhənd qonağın olsun.

*Tehran azər ayı – 1347*

***Qardaşım Əliağa Kürçaylıya məktub***

Üç saatdır gecə yarıdan keçib,
Əlimdə qələmim qarşımda dəftər.

Məktubum bitmədən yatmayacağam,
Gözlərim tökülüb çıxsada əyər.

Bu gunlər gözlərim ağrıya gəlib,
Oxuya bilmirəm, yaza bilmirəm.
Qaranlığa a`dət edəndən bəri,
Qamaşır, ışığa baxa bilmirəm.

Bu gun "İncə sənət" əlimə çatdı,
Yoldaşımdan oxumasın dilədim.
"Fillər də ağlayır" adlı şe`r var,
-Dedi, Kürçaylıdan. –Oxu, söylədim.

Oxudu ş`erivi qardaşım, mənə,
Oxuduqca dedim: Gözüvə qurban.
Qoy durum dolanım dönüm başıva,
Şe`rivə, özüvə, sözüvə qurban.

Oxudu şe`rivi mən qulaq asdım,
Büküldüm, açıldım nə hala qaldım.
Ağlar görən kimi şahin gözüvü,
Ucalasan qardaş, mən ki ucaldım.

Səni ağlar gördüm, könlüm sevindi,
Qardaşın da ağlar görən sevinər?
Bəli, ağlamaq var gülməkdən yeydir,
Bu mə`nanı ancaq az adam bilər.

Demişlər: "Dərd əhli dərd əhlin tanır",
Bilmirəm kimlərdir ağladır səni.
Dərdivi duyuram səni ağladan,
Çoxdandır, çoxdandır ağladır məni.

Bəli, güvəndiyim uca dağlara,
Təkcə qar yağmayıb, dolu da yağıb.
Ömrümün meyvəli – güllü bağında,
Nə bir yarpaq qalıb, nə pıta qalıb.

Gileyli dəyiləm özgələrdən mən,
Nə gəlib başıma özümdən gəlib.
Yolunda başımdan, candan keçdiyim,
Ürəyimdən gəlib, gözümdən gəlib.

Qartal doğuluban qartal böyüdüm,
Dedim: Göylər olsun məskənim gərək.
Qol – qanad yetirib uçmaq istərkən,
Dedilər: "İlan tək gərək sürünmək".

Ağla! Qoy ağlayım, qoy ağlasınlar,
Axsın göz yaşımız ümmana dönsün.

Dolsun yer üzünün dəlik – deşiyi,
“Sürünənlər” bəlkə boğulsun, ölsün.

Həyatın qanunu dəyişməz qardaş,
Qoy üzü qralar özün göstərsin.
Baxma şax – max duran buz heykəllərə,
Gün çıxsa hamısı əriyər yəqin.

Hər ləhzə, hər saat gəlib keçdikdə,
Bəlkə yüzlər adam ölür dünyada.
Milyonlar dünyaya gəlib gedirlər,
Qonub – köçdüyünü kim bilir amma.

Mə`nalandıranlar insan həyatın,
Əyər “Nəsiymi”lər dəyil bəs kimdir?
Yüzlər il keçsə də, minlər il gəlsə,
“Diri”lər ölürlər, onlar diridir.
Buraxıbsan burax “ötəriləri”,
Əbədi insana əbədi söz yaz.
Ürəklərə qazsa sözün sənətkar,
Aləm də pozulsa o söz pozulmaz.

Bir plakard elə, bir bayraq elə,
Əlində “Qorki”nin “Şahin nəğməsin”.
“Sürünməyi” təklif eləyənlərə,
Qıy vur, qoy utansın, səsin gizləsin.

Səni ağlar gördüm könlüm sevindi,
Qardaşın da ağlar görən sevinər?
Bəli ağlamaq var gülməkdən yeydir,
Bu mə`nanı ancaq az adam bilər.

Alqış mərd yaşayıb mərd ölənlərə,
Alqış qoçaqların dəliliyinə.
Qarqış qorxaqların rəzalətinə,
Qarqış iki üzlünün doğan ilinə.

Yaz – yazaq qardaşım, əlivə dönüm,
Yazaq qoy bilsin “o” alçaq yaramaz.
Bilsin rəzalətin duyuram mən də,
Bilsin ki həqiyqət sərhəd tanımaz.

### *Mən Təbrizdən gəlmişəm*

Bilmirəm ağlayım, bilmirəm gülüm,
Bilmirəm açılıb, ya solub gülüm.
Danışmağa tutmur ağzımda dilim,
Axı doslar, mən Təbrizdən gəlmişəm.

Məndən soruşmayın toydan bayramdan,
Nəğmədən, mahnıdan, badədən, camdan,
Oğul uşağımdan, bala – bulamdan,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Söz açmayın mənə yazdan, bahardan,
Ya isti ürəkli, istəkli yardan,
Sormayın o əziz ana diyardan,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Sormayın, sormayın yaşıl dağlardan,
Şaxta qarsılayan barlı bağlardan,
Ya da bağrımdakı çarpaz dağlardan,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Ariflər dərdimi anlayar – qanar,
Alışqanlar alovlanar odlanar,
Bə`zilər sözümü əfsanə sanar,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Yaradan dil verib insan danışa,
Əl – qol verib həyat üçün vuruşa,
Ürək verib sevə, küsə, barışa,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Günahım: sərvətim, düşüncəm, dilim,
Əl qolum zəncirdə, yurd dilim – dilim,
Ürəyim şan – şandır bağlıdır dilim,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Şairin silahı kəlmədirr, sözdür,
Yaxan şapalaqdır, yaxılan üzdür,
Göyərən yanaqdır, qızaran gözdür,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Qələm süngü ilə qarşı dura?...Hey...
Kağaz qalxan ola, can qoruya?...Hey...
Nahaq qan quruya, qurumaya?...Hey...
Aman doslar mən Təbrizdənmişəm.

Söz doslarına mən dayananmıram,
Boş boğaz sözünə inananmıram,
Can qoymaqla sözü, bir sananmıram,
Çünkü doslar, mən Təbrizdən gəlmişəm.

Badə məclisində, isti otaqda,
Öyünmək də olar, bəlkə coşmaq da,
İş mərrə başına yetişən vaxtda,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Lalənin tutuldu bağrı qaraldı?
Bulbulun nə oldu rəngi saraldı?
Qan qardaşlarım bəs hayanda qaldı?
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Tale`im bəllidir dosta, düşmana,
Demirəm o başı dumanlı ana,
Laləyə bürünüb ya batıb qana,
Ancaq doslar, mən Təbrizdən gəlmişəm.

Savalan ürəkli Təbriz anası,
Əlləri üstündə qalıb balası,
Toyu çalınarkən başlayıb yası,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Dırnaxlanıb gəlinlərin yanağı,
Gərdəklər olubdur Qasım "otağı",
Qırmızı geyinib Eynalı dağı,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Duman çulqayıbdır dağları, düzü,
Şəhərin ağzında qalıbdır sözü,
Ancaq, səhər – axşam qızarır gözü,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Dönüm – döngələrdə qurdlar ulaşır,
Sümsük – sümsük gəzir, gah quduzlaşır,
Bə`zən də dişləri qana bulaşır,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Dərin dəniz kimi sakitdir şəhər,
Səssiz yırqalanır qalın ləpələr,
Bu sükutda nələr gizlənib, nələr?...
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Səhəndin içində köpsünür vulqan,
Başında gah duman, gah da ki, tufan,
Boylanır şəhərə baxır niyaran,
Aman doslar, mən Təbrizdən gəlmişəm.

Vətən dəmirdədir, vətən dardadır,
Gözləri yol çəkir intizardadır,
"Şəhriyar" qardaşım görəsən hardadır,
Aman, doslar mən Təbrizdən gəlmişəm.

*Tehran isfənd ayı – 1356*

***Qardaşım “Valeh”in məktubuna Cavab***

Valeh öymə məni, öymə, amandır,
Odumu yelləyib alovlandırma.
Öyüb – öyülməkdən ürəyi qandır,
Bu dərdli şairi çox utandırma.

Rəhm elə qardaşım, rəhm elə mənə,
Başımın qadasın yaxşı bilirsn.
Niyə qoparırsan yaramı yenə,
Danışıq gözləmə dil kəsikdən.

Yaranan gündən mən dərdli yarandım,
“Vay nənə” çağırar bizdə dərdlilər,
Haray çəkdim, qapı – qapı dolandım,
Dedim: Anam vətən qayğımı çəkər.

Bilmədim yetiməm vətəndən sarı,
Bunu gizlətmişdi hamılar məndən.
Üz qoydum çöllərə gəzdim dağları,
Soraq tapam bəlkə, anam vətəndən.

Səhər – axşam yollar üstə dayandım,
Gələndən – gedəndən xəbər soruşdum.
Cavab alanmadım, od tutdum yandım,
Gündən – günə dərdə qəmə qovuşdum.

Bir gün bir qocaya tuş gəldim sordum,
Baxdım, atdan – atdan mənə göz vurdu.
Vardım, xəlvət yerdə yolunda durdum,
Əlimə köhnə bir bəyaz qısdırdı.

Oxudum, alışdım şimşək tək çaxdım,
Külək kimi əsdim, tufana döndüm.
Bulud tək kişnədim, sel oldum axdım,
Köksü dağ dalğalı ümmana döndüm.

Tarix quraşdıran qəlbəzənlərlə,
Mərd tək yaxa tutdum, mərd tək vuruşdum,
Yalan – palanların tapışırdım yelə,
Haqsızlığa qarşı yaman vuruşdum.

Ürək sözlərimi, haq sözlərimi,
Şe`r supanıma qoyuban atdım.
Düşmanlara comərd babalar kimi,
Gah qan utduruban, gah qan ağlatdım.

Həqiyqətə faiq gələnmədikdə,

Qəddərə qullanıb, qəmə taxdılar.
Haq sözümə cavab verənmədikdə,
Köpək küşgütdülər, it buraxdılar.

Gücüm güclərinə çatmadı daha,
Hər tərəfdən məni dövrələdilər.
Süngünü böyrümə sancıb, adıma,
Gah “vətənsiz” gah “millətçi” dedilər.

Yenə dağlar kimi durdum dayandım,
Nə çəkindim, nə də sözümü çaşdım.
Məhkəmələrini əyləncə sandım,
Nə kükrədim, nə də qaynadım daşdım.

Ayağı qandallı, qolları bağlı,
Səsimi ucaltdım, açdım dilimi.
Gözləri qubarlı, ürəyi dağlı,
Dedim hər dərdimi, hər nisgilimi.

Ey “dahi” alimlər, tarix “bilənlər”,
“Böyük” ağıllılar, “müdrik” ağalar.
“Cəsarət” ya “günah” olmasa əyər,
Qulluğunuzdan bir soracağım var.

Sizcə, mən yuvasız – yurdsuz şairəm?
Nə dilim, nə elim, nə vətənim var?
Nə bilim, bəlkə mən qana bilmirəm,
Sizə nə “savadım”, nə “ağlım” çatar.

Göbələk olsam da bir yerdn yəqin,
Göyərib, baş verib, tapılmışam mən.
Lütf edib o yeri mənə göstərin,
Nə torpaq istirəm sizdən, nə vətən.

Tanrı qoysa “alim” deyirlər sizə,
Alim uydurma söz deyib danışmaz.
Bütün dünya gülür səfsətənizə,
Elmdə döğruya yalan qarışmaz.

Saxtakarlıqları atın, utanın,
Şarlatanlıq başqa, elm başqadır.
Yüz də özünüzü yırtsaz, inanın.
Ağ, yenə də ağdır, qara qaradır.

Hey “ırq” əfsanəsin üzə çəkməyin,
Ruhunuzu şeytan çoşlayar bütün.
Qardaş qırğınına toxum əkməyin,
Əkdiyizə peşman olarsız bir gün.

Bir para sözü çox çəkməyin üzə,

Boş sanmayin çoxda belə meydanı.
Qıpçının, bu qədər gözə soxmayin,
Ananızdan qalan kirli tumanı.

Kaş bu “təmiz” nəjad, pak qanlarızla,
Hitlerin ortağı ola bileydiz.
Xam xəyallar, gülünc yalanlarızla,
Qubelzdən ibrət ala bileydiz.

Gedəydiz Berlinə ya da‘
Üstün “ırq”ların görəydiz halın.
Bəlkə sığınaydız insan qoynuna,
Sonun düşünəydiz puç qalmaqalın.

Görəydiz nə qoyub, nə axtarırsız,
Bütün alt – üst olub keçmişki dövran.
Görəydiz boş yerə fırıldayırsız,
Əsarət zəncirin qırıbdır insan.

Görəydiz hamılar qalxıb ayağa,
Mənliyin, varlığın axtarır sin – sin.
Kimsə nə nökrdir daha, nə ağa,
Nə istəyir əysin, nə də əyilsin.

Tarix kədərlənməz güzgüyə bənzər,
Onda görmək olar, əyrini, düzü.
Bir məsləhətim var, dinləsəz əyər.
Bu aynada görün öz – özünüzü.

Dirəşə bilsə də kim həqiyqətlə.
Xalqı aldadanmır, özü aldanır.
Dizə çökdürülsə milyon Qaliylə,
Yenə yer dolanır, yenə fırlanır.

Çox yaxşı bilirsiz fırıldaqçılar,
Mən nə vətənsizəm. nə də “göbələk”.
Doğma diyarım var. Böyük elim var,
Mənimdir həm keçmiş, həm də gələcək.

Mənə nə “ırq”, nə də dədə yontayın,
Özüm, öz kökümü yaxşı tanıram.
Gedin özünüzə “baba” arayın,
Sizin yerinizə mən utanıram.

Qatır kimi çoxda beş aparmayın,
Qudurmayın, büş gün yayan olmuşam.
Məni çoxda belə həqir sanmayın,
İynəmi yeyənə qıyıq qusdurram.

Beş günlük bəylik də bəylikdir ancaq,

İşin dalısını düşünün, duyun.
Ellərim sel kimi aşıb – daşan vaxt,
Dalı gününüzə bir körpü qoyun.

Güvənməyin, bu gün yalvardım sizə,
Anam ayaq altda qalmamaq uçun.
Ana müqəddəsdir əzəldən bizə,
Qoymarıq ayaqlar altına düşsün.

Döndüm sözlərimə dəvam edərək,
Boğazdan yuxarı "insançılara",
"Mənimkin oynadaq, səninkin yeyək",
Deyə istismarçı yalançılara.

Amansız "umanist" intiligentlər,
"İnsançılıq" daşın döşə vuranlar,
"Beynəlmiləlçilər, impiryalistlər",
"Mədəniyyət" keşiyində duranlar.

Tutaq, Məsiyhiyyət, abadlıq – deyə,
Dünyanı sız qana çalxamamısız.
İnsan kütlələrin "insanlıq" deyə,
Boyundurq altda saxlamamısız.

Tutaq, İnsanları qara mal təkin,
Siz satmamısınız, siz almamısız.
Xəlqlərin varın talamaq üçün,
Qardaş qırqınların sız salmamısız.

Tutaq, siz mərhəmət mələklərisiz,
İnsanların canın "əzrail" təkin,
"Biz anlamırıq, siz yaxşı bilirsiz",
Alırsız behiştə aparmaq üçün.

Siz tanrının yaxın qohumlarısız,
Allahın "oğlu"dur peyqəmbəriniz,
Siz bəşəriyyətin "ağa"sısız,
Sizlər "sahab"larsız, biz "kölə"lərik.
Əf edin, "cəsarət" olmasa əyər,
Bir soracağım var qulluğunuza.
Soruşmağa haqqım yoxsa da əyər,
Bağlıdır, varlıq ya yoxluğuza.

Biz orta əsirdə yaşamayırız,
Vicdanlar ayılıb, qırıb zəncirin.
Ağ, qara, qırmızı, sarı baxınız,
Mənliyin axtarır, yalnız mənliyin!

Sizlər ki, vaxt – bevaxt, hər gün, hər zaman,
Mən – mən çağırırsız, mən – mən deyirsiz,

Televiziyondan, radiyolardan,
Hey...boy boylayırsız, söy söyləyirsiz.

Böyük xalqımızdan, kültürümüzdən,
Sıcırlama sözlər deyib yayırsız.
Yeri başınıza dar görüb bə`zən,
Qalxıb ulduzlara da boylanırsız.

Nədən, kiçik bir xalq qalxıb, oyanıb,
Talein həll etmək istəyən zaman,
Umanizmə qarşı təhlükə sanıb,
Qışqırıq salırsız hər dörd bir yandan.

Hal buki, mənlik, yurd, vətən, axtarmaq,
Ən təbiyi haqdır hər bir insana.
Hüriyyətlə insan kamal tapacaq,
Quş qəfəsdən üça bilməz bir yana.

Köləliyə qarşı vuruşan bir xalq,
Mütləq, nə millətçi, nə şovunistdir.
İstemarçılığa qarşı duruşmaq,
İnsanpərvərliyin özü, içidir.

İnsanlar birliyi gözəldir lakin,
Dünya evsə, vətən odadır demək.
Evdə neçə qardaş olsa hər kəsin,
Ayrıca odası, diriliyi gərək.

Təbii hissdir vətənpərvərlik,
“Millətçi”lik adı verilməz ona.
Doğma bir sevgidir torpaq sevərlik,
Torpaq insanlara anadır, ana.

Hər kəs dünya boyu xoş dolansa da,
Yenə vətən diyər, vətən çağırar.
Quşlar havalara, havalansa da,
Yenə yenər, gələr yuvasın arar.

İnsanın məqsədi, yolu ülvikən,
Qoyun nəfəs alsın, qoyun dincəlsin.
Polad zəncirləri açın əlindən,
Uca zirvələrə varsın yüksəlsin.

Burnuz yellənməsin çoxluqdan, zordan,
İnsanpərvər gedişlərdə tapılın.
İnsan ola bilməz, insan aldadan,
Umanizmin iç üzünə qapılın.

Çox impiratur quylayıb dünya,
Hələ də xəlqlər durub, yaşayır.

Göy çox buludluqlar geçirib, amma,
Hələ də - hələ də günəş parlayır.

Namərdlər zinhara gəldi əlimdən,
Çarmıxa çəkdilər məni hər yandan.
Qənnaraya asladılar dilimdən,
Yatağım quru yer, otağım zindan.

İçimdə boğulan qışqırıq səsim,
Dəmir qalaları titrətdi yalnız,
Tək başıma artıq nə coşub əsim,
Ulduzsuz yaranıb zavallı – yalqız.

Nə qədər bağırdım, haray qopardım,
Boşluqlarda itdi ancaq harayım.
Dəmir zəncirləri çeynəyib, dartdım,
Dadıma çatmadı havadarlarım.

Çürüdüm, ağardı saqqalım, saçım,
Qapını açdılar, dedilər, "itil!"
Bilmədim hayana üz qoyub qaçım,
Umudsuz, arzısız, yer – yurdsuz, səfil.

Yenə də üz qoydum dağlara sarı,
Bəlkə daldanacaq araya biləm.
Bəlkə tapa biləm anam diyarı,
Qoynuna sığınıb, bir az dincələm.

Yoruldum, xurduşdum, getdim uyğuya,
Dərbədər gəzməkdən demək usandım.
Əprimiş bir "qarı" gəldi yuxuma,
Diskindim, xoflandım, isklet sandım.

Başıma əl çəkdi, qorxum töküldü,
Xoş baxışlarından gördüm tanışdı.
Mehriban – mehriban üzümə güldü,
Döndü dilə gəldi mənlə danışdı.

Qorxma, əziz balam! Gəzdiyin mənəm,
Əprimiş olsam da, gəl qucaqlaşaq.
Haman axtardığın doğma vətənəm,
Ana ölüsündən çəkinməz uşaq.

Bilirəm dərdivi, hər nisgilivi,
Dolanım başıva, dönüm gözüvə.
Danış, qoy dinləyim dərdli dilivi,
Canım qurban olsun şirin sözüvə.

Söylədim: Yox ana! Sən danış gilən,
Söylə nə olub bu günə qalıbsan.

Danış taleindən, danış günündən,
Danış, yazıq ana! Zavallı vətən.

Quru kəllədəki göz yerlərindən,
Baxdım, damla – damla yaş damcılad.
Lakin, kəlmə verib almadı asla,
Ruhum alov çəkdi, alışdı, yandı.

Ətəyin axtardım ələ gəlmədi,
Yalvardım, aslandım sümüklərindən.
Ana ürəyi idi dözə bilmədi,
Axır dilə gəldi, danışdı mənlən:

-Dinlə, dərdlı balam, dərdimi dinlə,
Dərd əhlı artıq dərd çəkməyə nə var?
Gəl, bir- bir tanış ol kədərlərimlə,
“Dərdin yolu gərək” demiş atalar.

Günahkar tutursan, get, tut hər kəsi,
Ancaq, o gündən ki, əsir tutuldum,
Boyunduruq altda qara mal kimi,
Yer şumladım, holalara qoşuldum.

Yaralı çiynimlə, çəmənlər sürdüm,
Tarlalar yetirdim, çayirlıqlardan.
Yük daşıdım, minik verdim, tər tökdüm,
Dizimin taqəti tükənən zaman,

Döndülər ətliyə kəsdilər məni.
Qoşa çatma qurub tonqal yaxdılar,
Çağırdılar bütün yoldan ötəni,
Dərimi soydular, şişə taxdılar.

Dövrələndim şülən buryanı təkin,
Hər kabab iyinə yığışıb gələn,
Pıçağın çıxartdı, çəkdi qəməsin,
Bir parça siyirdi, kəsdi tənimdən.

Yaramaz oğullar yarımasınlar,
Çox qafasız çıxdı son babaların.
Yurd verib qulluğu satın aldılar,
Darın getdı, bütün varlığın – varın.

Dönərgə dolandı, ocağım söndü,
Doğma yurdun, doğraq – doğraq doğrandı.
Qarqalar qartala, laçına döndü,
Qartal quzğun oldu, quş qarqalandı.

Ətim yeyilsə də, neylək yeyilsin,
Çalış xatirəmi əzizlə, saxla.

Qoyma barı məzarım ola itgin,
Yığ sümüklərimi, bir yer tap quyla.

Sadə bir vəsiyət isə də bu söz,
İmkansız oğula ağır bir yükdür.
Hər daşı qaldırmaq mümkündür sözsüz,
Ancaq, qüvətsizə iş çox böyükdür.

Biz də ana haqqı, tanrı haqqıdır,
Məyər vəsiyətin unutmaq olar?
Ana tapışırığın yerinə yetir!
Mərd iyit borc üstə canını qoyar.

Ananın hər sözün, hər vəsiyyətin,
Göz üstünə qoyar comərd iyitlər.
Nə qədər də ağır olsa ya çətin,
Həlal süd əmənlər unuda bilməz!

O qorxunc röyadan ayılan gündən,
Nə gecəm qalıbdır, nə də gündüzüm.
Ancaq bir sevdanın dalıncayam mən,
Quru sümük gəzir hər yanda gözüm.

Can atıb, axtarıb, yurddan – yuvadan,
Ancaq bir torbacıq sümük yığmışam.
Gəzib – dolanıram, səfil – sərgərdan,
Harada quylayam, harda basdıram.

Bu geniş diyarda ərlər, yaranlar!
Hər yer başdan – başa qapsanmış bütün.
Ey vətən daşını döşə vuranlar,
Məzar da tapılmır vətənim üçün.

Mən ki, bir vətənsiz, yurdsuz şairəm,
Bir ömürdür sıtqayıb inləyirəm.
Kimsədən nə qan, nə diyət istəyirəm,
Bir məzar boyunda yer diləyirəm.

Yurdumu – yuvamı basıb alanlar!
Fəqət, neçə qarış yer verin mənə.
Bütün sizin olsun bu ölkə, diyar,
Bir məzar qayırım ana vətənə!

Qardaşım! Nəyimi öyürsən mənim,
Bu dünyada məndən yazıqmı da var?
Özündən küsənə umub küsənim,
İnsan da dünyada vətənsiz olar?

Qəm kitabımızı oxuyum hardan?
Bəlalı başımız çəkməyib nələr?

Qızıl qanlar axıb dırnağımızdan,
Biz çəkən dərdləri kim çəkə bilər?

Atamızdan qalan yurdu – yuvanı,
Çaldılar, çapdılar biz baxa – baxa.
Varın taladılar, çulu – çuxanı,
Yaxdılar, çaylardan qan axa – axa.

Əkib becərdiyim barlı bağları,
Düşman baltaladı, qırdı, odladı.
Dənli əkinimi, yaşıl dağları,
Qaban sürüləri basıb otladı.

Biz neylədik? Baxdıq, ağladıq gizlin,
Bəzən də, sıtqadıq, yalvardıq, ancaq.
Haqqın gücə tabe olduğu üçün,
Bərə bitirmədi yanıb yalvarmaq.

Yox! Dözə bilmirəm mən bu qaxınca,
Yolu yumulsun bu namərd zamanın.
Ərənlər demişkən, "ər qocalınca,
Əcəl dada yetsin, qurtarsın canın."

Tək əldən səs çıxmaz, bunu bil yəqin,
Nə qədər bağırıb boğaz yırtsaq biz.
El uyquda ikən, babalar təkin,
Bizə tüpürəcək gələn nəslimiz.

Palçıqlı yollara kərvan oluban,
Dedim ki, ağartdım saç – saqqalımı.
Güvəndiyim dağa qar yağan gündən,
Nə söyləyim, baxıb gör bir halımı.

Sarsıldı, can verdi mehriban anam,
Dalımca bir daha kim su səpəcək?
Sümüyü sürməyə çevrilən atam,
Hardan durub bir də nə`rə çəkəcək?

Beləlik, haranın qoçağıyıq biz,
Gördüyümüz yalnız bir quru candır.
Söylə: qorxanların qorxağıyıq biz,
Verdiyimiz düşmana "bə`li qurban"dır.

Bilməm hara getdi o qan, o qeyrət,
Hamı dal – qabağın, qarnın otarır.
Əfsanəyə dönüb ərlik, şərafət,
Qardaş bacısına oynaş axtarır.

Qardaş nə qoyubsan, nə axtarırsan!
Sən görən ağaclar kürəklik oldu.

”Yurd yerindən qurd axtarma gilən”,
Kişilik dövrəsi bitdi, qurtuldu.

Barıtım şeh çəkdi, qurşun tükəndi,
Kosova çevrildi paslı tüfəngim.
Qılıncım kütəldi, atım peyləndi,
Bircə mənə qaldı yügürək əngim.

Sən demişkən ”basıb kəsənim” sözdür,
Quru sözlə basıb – kəsmək olarmı?
Haq sözdə əsər var, doğrudur – düzdür,
Lakin danışmağa heç imkan varmı?

Qardaşım! Yüz belə yazıb–pozsam da,
Kimsəni qoymazlar eşidə məndən.
Nə yazsam daxmamdan çıxmaz bayıra,
Çün, məhrum bir elin şairiyəm mən.

Balıq qulağı ilə doludur sahil,
Ürəyin istəsə, yığ, qalaq – qalaq.
Dür tapmaq fikirində olsan bəlli bil,
Gərək dərin – dərin yerlərə varmaq.

Bu işdə bir qorxaz üzgünçü gərək,
Cuma ummanlara candan əl üzə.
Kükrək dalğalarla çəngələşərək,
İnci tapa dönə sapına düzə.

Nə qədər asandır söz quraşdırmaq,
Lakin, sözdən məqsəd dərin mə`nadır.
Kəlməni – kəlməyə xoş yaraçdırmaq,
Sənətdir, ancaq şe`r başqadır.

Şe`r qıdıqlqsa ürək tellərin,
Hər ürək özünün nəğməsin çalar.
Evsəsə şe`rin yel sünbüllərin,
Daşlar dilə gələr, dağlar sızıldar.

Sevinclər, kədərlər, şirin röyalar,
Dirçələr, fəryada – fəğana gələr.
Könül yatağında yatan xulyalar,
Gərnəşər, dəniz tək tuğyana gələr.
Xəyal tərlanına qol - qanad verər,
Zirvələrə - zirvələrə qaldırar.
Göyün ulduzların yerə əndirər,
Çəkər yaxasından ülkərin qırar.

Bir zamanlar mən də keçdim canımdan,
Dərin dənizlərdən inci ovladım.
Uçdum səmalara kəhkəşanlardan,

Ətək - ətək ulduz dərib topladım.

Gərək ad aparam yenə ”Vurğun”dan,
Şe`r - sənətə bu ad yaraşıqdır.
Nə gözəl söyləmiş o ölməz insan:
“Dünyada ən böyük qüvvət ışıqdır.”

Mən də ömür boyu günəş yolçusu,
Ustadım tək ışıq gəzib süründüm.
Dağıldı gözümdən qəflət uyqusu,
“Dədə Qorqud” cəbbəsinə büründüm.

Daşdan – daşa çalıb ürək çaxmağın,
Bağrımı qov edib, tonqallar yaxdım.
Alışdırıb elin sönən çırağın,
Gecənin bağrına məşə`llər taxdım.

Həlal xəzanəmi, taleimə bax,
Saçıb göstərməyə qoydular məyər?
İlk qada, can qoyub sərvət qazanmaq,
Can verib gizləmək, sonku dərdisər.

Bununla yenə də yoldadır kərvan,
Lakin, doğan ulduz, kərvanqırandır.
Çox çətindir keçmək kora yollardan,
Saqın, yol yoldaşım, saqın, amandır.

Məqsədim yolçunu qorxutmaq dəyil,
Atalar demişkən qorxan tez ölər.
Yersiz cəsarət də, ancaq, bəllibil,
Qada qavzar, comərdlik gətirər.

Bələdçilik etmək yol axtarana,
Babamız “Qor Qud”dan bir vəsiyətdir.
Düz yol göstərməmək yoldan azana,
Yola – yolçuya da bir xəyanətdir.

Yol getməyə yolu tanımaq gərək,
Tanınmamış yollar gedər – gəlməzdir.
Zülmətə varmağa “şəbçırax” gərək,
Işıqsız, xeyir – şər görsənilməzdir.

Əldə çırağım var, yolçu arxadaş,
Səhər umub – küsmə kərvan qırandan.
Umudla başa vur yolu daş badaş,
Dəmir çarığı gey, zirvəyə dırman.

Mən də yaraşıqlı boyuna baxım,
Güvənim, fəxr edim, başım ucalsın.
Çıxardım cəbbəmi əynivə taxım,

Nəsildən – nəsilə yadigar qalsın.

Ancaq, bu umudla yaşayıram mən,
Qocaman “Səhəndəm”, dağım, daşım var.
Ölsəm düşməyəcək qopuzum kökdən,
Çünkü “Valeh”lər tək nəğmədaşım var.

Tikanlıqdan sən tək çiçək göyərmək,
Böyük gələcəyin nişanasıdır.
Quru yerdən gül butası cücərmək,
Qaralan qanıma nar danasıdır.

*Tehran 1345-ci gönəş ili*

***Nişana***

Ac toxlular kimin boğazın, boynun,
Dodaqlarım gəzib çöpsündü dünən.
Ağca buxağının pozub qoruğun,
Otlayıb keçərkən qulaq dibindən.

Ağzıma toxundu kiçik bir damla,
Sandım yasırqadı, ya da daş – qaşdı.
İpək tellərini verdim bir yana,
Gözümə xırdaca bir xal sataşdı.

Necə xal, elə bil gün doğan vaxtda,
Səhərin üzünə gecə daşlanıb.
Ya qara incidir, cədəf qulaxda,
Ya da ki, mərmərə şəvə qaşlanıb.

Soruşdum, gözəlim bu xal nə xaldır,
Könül quşlarına dənmi qoyubsan?
Görünən xəyalın başqa xəyaldır,
Dalında tellərdən tor da qurubsan.

Qara gözlərində qaş parıldadı,
Xumar baxışından qəm səpələndi.
Sankı tufan qopdu, göy guruldadı,
Bahar buludundan yağış ələndi.

Sanmışdım sözümdən aşıb daşacaq,
Öyünüb, sevinib zövq alacaqdır.
Sərxoşdur, daha da sərxoşlanacaq,
Həvəslən boynuma qol salacaqdır.

Qutumdan qurudum avara qaldım,
Özüm, öz işimdən məlul, kor–peşman,

Öpdüm, tumarladım, gönlünü aldım,
Sildim göz yaşların al yanağından.

Çürüyüb yanaydı kaş bu dil – dodaq,
Nə dedim, nə dedim mən yara dəydi?
Dedi – yox incikli dəyiləm, ancaq,
Sözün çox duzlu idi yarama dəydi.

Götür, ürəyimdən əlivi götür,
Ürək dəyil, qandır bu açıb baxsan.
Ötür bu şərə - şür bardağın, ötür,
Əl vursan calanar, qana qalarsan.

Hər tüstü qalxarın dudman sanma,
Ürəkdir, bu bərbad ocaqda yanan.
Çəkin yanğınımdan, çəkin dayanma,
Sən də alışarsan, sən də yanarsan.

Şəfqətlə başını basdım sinəmə,
Taqət də əlimdən çıxdı qərar da.
-Bəsdir ürəyimi şan – şan eyləmə,
Bircə söylə görüm nə var bu xalda?

Mərmər barmaqları, qara saçların,
Yığdı yanağından bir yan eylədi.
Bir daha göstərdi zavallı xalın,
Mənim “nişana”mdır bu xal, söylədi.

Nə üçün soruşdun sırrını məndən,
Dərdimə, qəmimə dözə bilməzsən.
Biləsən, biləsən, kaşkı, biləsən,
Nə gündə yaranıb doğulmuşam mən.

Açdı taleinin qəm kitabından,
Oxudum, oxudum, oxudum nələr?
Qələm dayan, ürək qapalan, bağlan!
Dərdlərin söyləmək olarmı məyər?

Oxudum hamısın varaq ba varaq,
Lakin məyər açıb söyləmək olar?
Desəm öz ürəyim patlayar, ancaq,
Demərəm, nə qədər dilimdə var, var.

Soruşma dastanın bütünün aman,
Qoy mənim ağzımdan çıxmasın bu sırr.
Çıxsa da qoy xıxsın başqa ağızdan
Deməsinlər qılınc öz qının kəsir...

...Dinlədim dastanı, dinlədim lakin,
Sandım varlığımı sellər apardı.

Başımda naquslar çalınar təkəin,
Qız, öz sərgüzəştin belə qutardı:

-Anam dustaqdaymış məni doğanda,
Süngü ilə kəsilib göbəyim mənim.
Əsir doğulmuşam mən doğulanda,
Zəncirlən bağlanıb biləyim mənim.

Şeh yerlər beşiyim,yatağım olub,
Dəmir pəncərələr novrağım olub,
Daraşlıq suallar oynağım olub,
Buxovlar, qandallar qolçağım mənim.

İlk nəfəslərimi çəkən zaman mən,
Yanıqlı ahlardan nəfəslənmişəm.
Körpə dodaqlarım əmzik gəzərkən,
Ağı sormuşam, irin əmmişəm.

Sonra da anamı ediblər sürgün,
Zindandan zindana köçüb gəlmişik.
Zəmanə fəlakət donun əzəl gün,
Bizim əynimizə biçib ,gəlmişik.

Daha nələr çəkib başım, nə deyim,
Nələr yazılıbdır alnıma, nələr?
Olmuşam analı – atalı yetim,
Mən ki, görməmişəm, belə deyirlər.

Bizi gəlib yola salanda atam,
Üzümdən öpərkən xalımı görüb.
Bu xal ilən gəlib onu taparam,
Diyə ürəyinə təsəlli verib.

Anamın bu sözün eşidən gündən,
Bu xal mənə yaman bir dərd olubdur.
Arzılarım bir – bir sönüb getdikcə,
Yerinə qəm dolub, vərəm dolubdur.

Hələ də, gözlərim intizardadır,
Lakin, nə gələn, nə soraq verən var.
İl gəlir illərin üstə qalanır,
Hələ də, bağrım tək bağlıdır yollar.

Budur insanlığın talei, günü,
Bu qara lövhəni qazana qarqış.
Əzəldən dirilik, həyat sözünü,
İnsanlıq alnına yazana qarqış.

Bir əsirdə ki, gündə 24 kərə,
İnsan yer kürəsin dövrə dolanır,

Ulduzdan da uzaq fasilələrə,
Peyqam verir, dönür cavabın alır,

Bir əsirdə ki, insan ışığa dönür,
Şaxır, ulduzlara, aylara qonur,
Bağlı qapıları açır bir bə bir,
Dünyada tanımaz bir sırr qoymur,

Ata balasından, bala atadan,
Xəbər tuta bilmir, fəlakətə bax!
Bir "xal"a xoşlanır, bəlkə bir zaman.
Onunla balasın gedib tapacaq.

İnsanın dühası, elmi gör necə,
Qayıdıb başının bəlası olub.
Səadət yaradan min cür vəsiylə,
Nikbət vasitəsi, qadası olub.

Bir yemiş yetişib düşənə qədər,
Yüz qonçə quruyur, yuz çiçək solur.
Bir qarın müzvərə pişənə qədər,
Xəstənin əl – qolu alışıq olur.

Nə havalar çalır, nələr oxuyur,
İnsan öz – özünü tovlamaq üçün.
Şeytan toru kimi cələ toxuyur,
Qardaş qardaşını ovlamaq üçün.

Nə uydurmalar var bəşər işində,
Vah nə saxtakardır min üzlü insan,
Yüz təzvir gizlənib hər gedişində,
Əməllər saxsıdır, sözlər qızıldan.

Həd çəkir, səd çəkir geniş dünyanı,
Özü, öz – özünə zindan eləyir.
Sitəm qazmasıyla qazır hər yanı,
Düzəngahlıqları yarqan eyləyir.

Məhəbət çiçəyi, dostluq çiçəyi.
Dərilir, əllərdə solur, saralır.
Analıq ürəyi, sevgi ürəyi,
İlişir tikanlı simlərə qalır.

Qəlbinin dalıca gedən bir qadın,
Unudmaq üçün eşqin, ilqarın,
Cərmə verməlidir irzin – həyasın.
Qanuna bir bax sən ruzgarın.

Cavab versın hanı, hardadır, harda,
"Bəşər huququndan" danışan sarsaq?

Hansı quruluşda, hansı diyarda,
Zalım qalxıb zülmə qarşı duracaq?

Bax gör, yerin üzü boyanıb qana,
Gör nə faciələr törədir insan.
Törənə baxsana, dölə baxsana,
Bilməm daha nələr doğacaq ondan.

Uydurmaya çönüb həqiqət sözü,
Dünya zordan başqa bir haq tanımır.
Zorlu meydanda tək özüdür, özü,
Özündən özgəsin mütləq tanımır.

İnsan iradəsiz maşına dönüb,
Kilidi pul, sərvət, uydurma sözlər.
Vicdanlar satılış malına dönüb,
Nə günlər keçirir insan nə günlər.

Cəbhələrdə min – min günahsız əsgər,
Tanımazcasına bir – birin qırır.
Bu qırğına tanış fərman verənlər,
Salonlarda gilas – gilasa vurur.

***Qala eşiyi***

Dolayıdan zinələnib,
Süzüb axan sızqı sular,
Göz yaşı tək kıranların,
Yanağına şoruldayır.

Qulağıma pıçıldayan,
Həzin – həzin mızıltılar,
Oğlu ölmüş anaların,
Naləsi tək sızıldayır.

Əyri – burux dolanan arx,
Düyün – düyün ipə bənzər,
Qəbristanın belin boğub,
Qıvrım – qıvrım qəltan axır.

Yarı uçuq qəbirlərdən,
Dışra çıxan ağkəllələr,
Torpaqlı göz yerilərdən,
Hürüt – hürüt çaya baxır.

Tikanların göy kolları,
Ağ çiçəkli üzərliklər,
Zəmi kimi övsələnir,

Yaz yelləri əsdikcən.

Baş çartladır gölməşlərdən,
Girdablardan qalxan iylər,
Sümsük itlər halsız – halsız,
Sümük gəzir küllüklərdən.

Daşqın arxın südüyənlı,
Qındırğalı qucağında,
Boz təpəcik donbalıban,
Çiçəkli kor göz tək durur.

Sarı sabın torpaqların,
Sel keçərin dodağında,
Quruşqamış yaralar tək,
Ürəkləri qarışdırır.

Paltar yuyan qız – gəlinlər,
Çay aşağı, tutqac əldə,
Dizə qədər çırmalayıb,
Qara yol – yol şalvarları.

Fındıqcalı ayaqları,
Mərmər kimi su içində,
Çoğan səpib tapdalayır,
Daşlar üstə paltarları.

Tüstüləyir daş ocaqlar,
Buğ yüksəlir qazanlardan,
Xırda – xırda lüt uşaqlar.
Səpələşıb məzarlığa.

Ayaqların yara – yara,
Acı dişli çağır tikan,
Kol – kos yığıb toplayırlar,
Qazan altda yandırmağa.

Onlar mənə tanışdılar,
“Küftə Xıdış” , “Həsən Bala”,
“Dəli Zeynal”, “Xallı Zivər”,
“Qara Zəhra”, “Çopur Əxtər”.

Odur orda dəmir təştdə,
Paltar yuyur “Mələk Xala”,
Burc dibindən tikan yığır,
“Əhməd” ilən “Güdə Qənbər”.

Bura bizim məhəllədir,
Mən burda boy atmışam.
Onlar mənim yoldaşımdır,

Bu yerlərsə oynağımız.

Uşaqlığın pərdisini,
Mən bunlarla qaratmışam.
Bu yer olub olurumuz,
Həm baxçamız, həm bağımız.

Mən bu yerdə günlərimin,
İlk baharın utuzmuşam.
Min bir həsrət tozu qonub,
Ürəyimin aynasına.

Çatlatdığım saplanların,
Aynasına oturmuşam.
Tullanmışam taleimin,
Fırtınalı dəryasına.

Diriliyin, yaşayışın,
Fəlakətin, məşəqqətin,
Bu yerlərdə dadıban mən,
Acısını, tamsınmışam.

Sadə, yoxsul insanların,
Sədaqətin, məhəbbətin,
Bu yerlərdə mən duyuban,
Alovuyla isinmişəm.

Məhrum insan taleinin,
Lövhələrin, qəm dəftərin,
Mən burada varaq – varaq,
Açıb – baxıb oxumuşam.

Şe`rimin, amalımın,
Xalçasının ilməklərin,
Naxışların örnəklərlə,
Boyamışam, toxumuşam.
Uzun günlər burada biz,
Evcik tikib, bağ əkmişik.
Bəyan olub, tikan olub.
Baxçamızın ağacları.

Saatlarla çalışmışıq,
Can atmışıq, tər tökmüşük.
Göl düzəldib toplamışıq,
Başsız axan nil soları.

Çaya qalxan dolayıya,
Qayırmışıq pilləkanlar.
Ağır – ağır daşlar ilən,
Düzəltmişik atlamaclar.

Fırlanıbdır səhər – axşam,
Qurduğumuz dəyirmanlar.
Əlimizlə əkilibdir,
Sahil boyu bu ağaclar.

Bax! O, “Bulut” bulağıdır,
Mən qazmışam o bulağı.
Baxsan əyər dum durudur,
Novçasından axan sular.

Burda hər yan su olsa da,
Gün örtanın şaxlov çağı.
İçmək üçün su tapılmaz,
Ürəklərdən alov qalxar.

Səhər – axşam, gün ortası,
Dibin kəsər arvad – uşaq.
Əli dollu, küzəkçəli,
Dövrə qurar, növbə tutar.

Ehsanımı çoxda belə,
Müftə bilmə, hər kəs ancaq,
Neçə saat ömrün vərər,
Neçə içim su doldurar.

Mətrətdə süzmə qatıq,
Qab – qaşığı məjmeyidə.
“Xanım Xala” dalan altda,
Oturubdur gözü yolda.

Balam Hüsen! Əxtər gedib,
Doğramaya su gətirə.
İndi “Sadat” işdən gələr,
Qaç gör bacın harda qaldı.

“Sadatqulu” evə girir,
Əldə muşar, yorqun – arqın,
Muşarını söykərəyək,
Kuşxananın bucağına.

Çökür köhnə palaz üstə,
Uzadırı ayaqların.
Alnındakı qırışlardan,
Tər süzülür yanağına:

-Dilim çıxır susuzumdan,
Ay qız! Bir az su ver mənə.
(Xanım üzün dırnaxlayır):
_Kül başıma! Qız gəlmədi.

Ayaq yalın evdən çıxır,
Qıza qarşı yazıq nənə.
Lakin qıza növbət yoxdu,
Bulaq başə vəlvələdi.

Yüzə yaxın arvad – uşaq,
İztirabda üzə - üzə,
Düzülüblər oturublar,
Göz tikiblər çeşməciyə.

Üzlərində tələsmənin,
İntizarın cizgiləri.
Ürəkləri suya dönür,
Novçacıqdan su gəldikcə.

Yığınağın arasında,
Yaşıl gözlü çeşməciyin,
Qıtmır suyu göz yaşı tək,
Novçacıqdan süzüb axır.

Axışına yuz bu qədər,
Göz baxsa da qəmgin – qəmgin,
Küzəkçənin diblərindən,
Hələ cansız bir səs qalxır.

*Tehran 1346*

***Bir məzar boyunda***
***Yers sorağında***

*Səhəndi duman alıb,*
*Yaşıl donu saralıb.*
*Burda bir qərib ölüb,*
*Ölüsü yerdə qalıb.*

Mən yaranan gündən dərdli yarandım,
“Vay nənə” çağırar bizdə dərdlilər.
Ağladım, qışqırdım, bağırdım–sandım,
Ana vətənim var, qayğı çəkər.

Sən demə əzəldən yetimmişəm mən,
Ana yurddan ana vətəndən sarı.
Bunu gizləmişdı hamılar məndən,
Haq qarqısın insan aldadanları.

Elə də qayğısız, əlsiz, ayaqsız,

Tullandım həyatın burqanlarına.
Baltasız, nacaqsız, dayanacaqsız,
Atıldlm talein ümmanlarına.

İlişə - ilişə ilişimlərə,
Sərimsədim, boya – başa yetişdim.
Yanğınlara atılsam da min kərə,
Yanıb kül olmadım, qaynadım–pişdim.

Az –maz göz – qulağım açılan zaman,
Gördüm hamıların adı – sanı var.
Bir mənim adıma deyirlər cırtdan,
Hər kəsin el – günü, dudumanı var.

Bu dəddən, bu ğəmdən yandım, alişdim,
Həsrətim dağları-daşı yandırdı
Kol-olban torpaqlar qarşım,
Əlovum qurunu, yaşı yandırır,

Məndə məcnun kimi düşdüm çöllərə,
Leyla isə yurdum, vətənim oldu.
Çox dolandım, baş uzatdim, hər yerə,
Ayaqlarım qabar çaldı, yoruldu.

Səhər – axşam yollar üstə dayandım,
Gələndən – gedəndən xəbər soruşdum.
Soraq alanmadım, ancaq, boşandım,
Get – gedə həsrətə, qəmə yandım.

Bir gün bir qocaya tuş gəldim sordum,
Gördüm gizli – gizli mənə göz vurdu.
Vardım, xəlvət yerə yolunda durdum,
Əlimə köhnə bir kitab qısdırdı.

Oxudum, dirçəldim, ayağa qalxdım,
Şimşək olub çaxdım, vulkana dönüm.
Bulud tək kişnədim, sel olub axdım,
Köksü dağ dalğalı ümmana döndüm.

Varlığımı danan qəlbəzənlərlə,
Yaman yaxalaşdım, yaman vuruşdum.
Yalan – palanların tapışırdım yelə,
Haqsızlığa qarşı yaman vuruşdum.

Ürək sözlərimi, haq sözlərimi,
Qaya kimi düşman köksünə vurdum.
Qəsbkara comərd babalar kimi,
Gah qan qusduruban, gah qan utdurdum.

Əlimdən zinhara, zara gələnlər,

Köpək küşgütdülər, it buraxdılar.
Haq sözümə cavab verənməyənlər,
Qəddərə qullanıb, qəmə taxdılar.

Gücüm güclərinə çatanmadıqda,
Hər tərəfdən məni dövrələdilər.
Süngünü böyrümə sancıb, adıma,
“Vətənsiz” dedilər, nələr dedilər.

Yenə dağlar kimi durdum dayandım,
Nə çəkindim, nə də sözümü çaşdım.
Məhkəmələrini əyləncə sandım,
Dəniz kimi coşdum, kükrədim, daşdım.

Ayağı kündəli, qolları bağlı,
Səsimi ucaltdım, açdım dilimi.
Ürəyi qubarlı, sinəsi dağlı,
Dedim hər dərdimi, hər nisgilimi.

Ey ırq əfsanəsini üzə çəkənlər,
Ruhunuzu şeytan çoşlayıb bütün.
Qardaş qırqınına tuxum əkənlər,
Əkdiyinizə peşman olarsız bir gün.

Bir para sözü çox üzə çəkməyin,
Boş sanmayin belə çoxda meydanı.
Qıpçının, bu qədər soxmayin, gözə,
Ananızdan qalan kirli tumanı.

Kaş bu “təmiz nəjad”, “pak qan”larızla,
Hitlerin dırnağı ola bileydiz.
Xam xəyallar, gülünc yalanlarızla,
Qubelzdən ibrət ala bileydiz!

Gedəydiz Berlinə ya da Londona,
Üstün nəjadların görəydiz halın.
Bəlkə sığınaydız insan qoynuna,
Sonun düşünəydiz boş xəyalların.

Görəydiz meydana çox gec gəlibsiz,
Mə`rəkə yığışıb, oyun qurtulub.
Boş yerə çapıban at çərlədibsiz,
Gəlin ərkək çıxıb toy batil olub.

Görəydiz xalqlar qalxıb ayağa,
Varlığın,mənliyin axtarır sin – sin.
Kimsə nə nökrdir nə də ki, ağa,
Nə istər əzilsin, nə də ki, əzsin.

Tarix kədərlənməz güzgüyə bənzər,

Onda görmək olar, əyrini, düzü.
Bir məsləhətim var, dinləsəz əyər.
Bu aynada görün öz – özünüzü.

Zənn etməyin yenə qələm sizdədir,
Sizlərə məxsusdur kitabxanalar.
Ağı – qara yazmaq əlinizdədir,
Yox!...Bu gun milyonlar başa düşən var.

Dirəşə bilsə də kim həqiyqətlə.
Xalqı aldadanmır, özü aldanır.
Dizə çökdürülsə milyon “Qaliylə”,
Yenə yer dolanır, yenə fırlanır.

Çox yaxşı bilirsiz fırıldaqçılar,
Mən nə vətənsizəm, nə də “göbələk”.
Doğma diyarım var. Böyük elim var,
Mənimdir həm keçmiş, həm də gələcək.

Mənə nə ırq, nə də baba yontayın,
Özüm, öz kökümü yaxşı tanıram.
Gedin özünüzə “baba” arayın,
Sizin yerinizə mən utanıram.

Qatırınız çoxda baş aparmasın,
Qudurmayın, beş gün yayan olmuşam.
Məni çox da belə həqir sanmayın,
İynəmi yeyənə qıyıq qusdurram.

Xama bağlamışam qır atı hələ,
Bir gün bütün minib oynadacağam.
El - ulusunuza salıb vəlvələ,
Sizə qan qusdurub, qan alacağam.

Beş günlük bəyliyi bəylik sanmayın,
İşin dalısını düşünün, duyun.
Boş yerə öyünüb xoruzlanmayın,
Dalı gününüzə bir körpü qoyun.

Bir an zəncirləri açın dilimdən,
Bu dil milyonların ana dilidir.
Qorxun qəzəbimdən, qorxun kinimdən,
Sağalmayan yaram dil nisgilidir.

Min il qabaq babam Qazan demişkən:
Bütün sizin olsun torpağım, daşım
Talandıqlarınızı almıram sizdən,
Qoyun anam ilə bir qucaqlaşım.

Yanılmayın əyər yalvardım sizə,

Anam ayaq altda qalmamaq uçun.
Ana müqəddəsdir əzəldən bizə,
Qıymarıq ayaqlar altına düşsün.

Namərdlər zinhara gəldi əlimdən,
Çarmıxa çəkdilər məni hər yandan.
Qənnaraya asladılar dilimdən,
Yatağım quru yer, otağım zindan.

İçimdə boğulan qışqırıq səsim,
Dəmir qalaları titrətdi yalnız,
Tək başıma artıq nə coşub daşım,
Ulduzsuz yaranıb zavallı – yalqız.

Nə qədər bağırdım, haray qopardım,
Boşluqlarda itdi ancaq harayım.
Dəmir zəncirləri çeynədim, dartdım,
Dadıma çatmadı havadarlarım.

Kiridim, ağardı saqqalım, saçım,
Qapını açdılar, dedilər, itil!
Bilmədim hayana üz qoyub qaçım,
Umudsuz, arzısız, yer – yurdsuz, səfil.

Yenə də üz qoydum dağlara sarı,
Bəlkə daldanacaq araya biləm.
Bəlkə tapa biləm anam diyarı,
Qoynuna sığınıb, bir az dincələm.

Yoruldum, xurd düşdüm, getdim uyquya,
Dərbədər gəzməkdən demək usandım.
Əprimiş bir “qarı” gəldi yuxuma,
Diskindim, xoflandım, isklet sandım.

Başıma əl çəkdi, qorxum töküldü,
Xoş baxışlarından gördüm tanışdı.
Mehriban – mehriban üzümə güldü,
Döndü dilə gəldi, mənlə danışdı:

Qorxma, əziz balam! Gəzdiyin mənəm,
Əprimiş olsam da, gəl qucaqlaşaq.
Haman axtardığın doğma vətənəm,
Ana ölüsündən çəkinməz uşaq.

Bilirəm dərdivi, hər nisgilivi,
Dolanım başıva, dönüm gözüvə.
Danış, qoy dinləyim dərdli dilivi,
Canım qurban olsun şirin sözüvə!

Söylədim: Yox ana! Sən danış gilən,

Söylə nə olub bu günə düşübsən?
Danış taleindən, danış günündən,
Danış, yazıq ana, zavallı vətən.

Quru kəllədəki göz yerlərindən,
Baxdım, damla– damla yaş damcıladı.
Lakin, kəlmə verib almadı əsla,
İçim alov çəkdi, ürəyim yandı.

Ətəyin axtardım ələ gəlmədi,
Yalvardım, aslandım sümüklərindən.
Ana ürəyi idi dözə bilmədi,
Axır dilə gəldi, danışdı mənlən:

-Dinlə, dərdlı balam, dərdimi dinlə,
Dərd əhlı artıq dərd çəkməyə nə var?
Gəl, bir- bir tanış ol kədərlərimlə,
“Dərdin dolu gərək” demiş atalar.

Günahkar tutursan, get, tut hər kəsi,
Ancaq, o gündən ki, əsir tutuldum,
Boyunduruq altda qara mal kimi,
Yer şumladım, holalara qoşuldum.

Yaralı çiynimlə, çəmənlər sürdüm,
Tarlalar yetirdim, çayırlıqlardan.
Gecələr ac qaldım, günüz tər tökdüm,
Dizimin taqəti tükənən zaman,

Döndülər ətliyə kəsdilər məni.
Qoşa çatma qurub tonqal yapdılar,
Çağırdılar bütün yoldan ötəni,
Dərimi soydular, şişə taxdılar.

Dövrələndim şülən buryanı təkin,
Hər kabab iyinə yığışıb gələn,
Pıçağın çıxarıb, çəkdi qəməsin,
Bir parça siyirib, kəsdi ətimdən.

Yaramaz oğullar yarımasınlar,
Çox qafasız çıxdı son babaların.
Yurd verib qulluğu satın aldılar,
Əldən getdı, bütün varlığım – varım.

Dönərgə dolandı, ocağım söndü,
Doğma yurdum, doğraq–doğraq doğrandı.
Qarqalar qartala, laçına döndü,
Qartal quzğun oldu, quş qarqalandı.

Ətim yeyilsə də, neylək, yeyilsin,

Çalış xatirəmi əzizlə, saxla.
Qoyma barı məzarım ola itgin,
Yığ sümüklərimi, bir yer tap quyla.

Biz də ana haqqı, tanrı haqqıdır,
Məyər vəsiyyətin unutmaq olar?
Ana tapışırığın yerinə yetir!
Mərd iyit borc üstə canını qoyar.

Ananın hər sözün, hər vəsiyyətin,
Həlal süd əmənlər unuda bilməz.
Yürümək nə qədər olsa da çətin,
Mərd iyit yolundan üz döndərənməz.

O qorxunc röyadan ayılan gündən,
Nə gecəm qalıbdır, nə də gündüzüm.
Yalnız bir sevdanın dalıncayam mən,
Quru sümük gəzir hər yerdə gözüm.

Can atıb, axtarıb, yurddan, yuvadan,
Ancaq bir torbacıq sümük yığmışam.
Gəzib dolanıram, səfil sərgərdan,
Harada quylayam, harda basdıram.

Bu geniş dünyada ərlər, yaranlar,
Hər yer başdan–başa qapsanmış bütün.
Ey vətən daşını döşə vuranlar,
Məzar da tapılmır vətənim üçün.

Mən ki, bir vətənsiz, yurdsuz şairəm,
Bir ömürdür sıtqayıb inləyirəm.
Kimsədən nə qan, nə diyət istirəm,
Bir məzar boyunda yer diləyirəm.

Yurdumu – yuvamı basıb alanlar,
Fəqət, neçə qarış yer verin mənə.
Bütün sizin olsun bu ölkə, diyar,
Bir məzar qayırım anam vətənə.

***Xatirə***

Bu uca dağların qarlı başında,
Hər bir qayasında, hər bir daşında,
Şairlərin ilham xəziynəsi var.
Böyük üsyanların xatirəsi var.

Ey əziz vətənim, ey böyük diyar,
Yeri var adınla etsəm iftixar.

Şərqin şərəfisən, şöhrətisən sən,
Əslanlar yurdusan qurulan gündən.
Sən yeni həyatın yaradanısan,
Şərq tarixinin qəhrəmanısan.
Səndən ilham alır böyük duyğular,
Dərin mə`nalıdır, sən də hər nə var.
Sənin bu üsyankar təbiyətində,
Hər tutqunluğunda, hər behcətində,
Sənin boranında, sənin qarında,
Sənin bahar açan şən baharında,
Yaşıl düzlərində, ovlaqlarında,
Çay – çəmənli gözəl yaylaqlarında,
Sızıldayıb əsən sərin yelində,
İyit ellərində, şirin dilində,
Uca dağlarının qarlı başında,
Hər bir qayasında, hər bir daşında,
Şairlərin ilham xəziynəsi var,
Böyük üsyanların xatirəsi var.
"Dəryalar mirəkkəb, meşələr qələm",
Mən ki, keçmişini yaza bilmirəm,
Keçmişi qoy yazsın ancaq tarixlər,
Hər "aşıq" dünyada gördöyün söylər.
Məncə millətimin "Azər üsyanı",
Kütlələr üsyanı, ellər üsyanı,
Şərəf ulduzudur, sənin yaxana,
İftixar adına, ey böyük ana!
İyirmi dördüncü ilin payız çağında,
Bu uca dağların boz qucağında,
Azərlər yurdunun mərd oğlanları,
Xalqımın şərəfli qəhrəmanları,
Azadlıq bayrağın yerə vurmuşdu,
Qasiblərə qarşı dövran sürmüşdü.

O gün haqqi itmiş məhkum ellərə,
Zəncirli qollara, bağlı dillərə,
Burdan ucalırdı azadlıq səsi,
Qurtuluş nəğməsi, həyat nəğməsi.
Yoxsul əkinçilər, haqsız fəhlələr,
Məhrum ziyalılar, məhkum kütlələr,
Bu səsi dinləyib hərə bir yandan,
Nə tək azərbaycan, bütün irandan,
Tüfəng götürürdü, silah taxırdı,
Sel kimi hər yandan bura axırdı.

Xalqın üsyan səsi qalxıb ucaldı,
Yağının canına vəlvələ saldı.
Nəhayət, azərin igirmi birində,
Düşman təslim oldu öz səngərində.
Döndü qasiblərin qara dövranı,
Xalqın iradəsi yıxdı zindanı.

Güldü həyatımız, güldü elimiz,
Bulbul tək açıldı şirin dilimiz.

Açıldı səhər tək şairin qəlbi,
Sahilsiz dəniz tək sevinci daşdı.
Görüb çiçəklənən şən həyatını,
Min əsər yaratdı, min nəğmə qoşdu.
Xəyalı quş kimi qanadlanaraq,
Ucaldı göylərin nəhayəsinə.
Yazdı ellərinin zəfər nəğməsin,
Səhər buludunun ağ sinəsinə.

Yenə bir də od parladı,
Azərlərin ocağından.
Qaranlıqlar köçün çatdı,
Azərbaycan torpağından.

Üfüqdə ki, qızıl günəş,
Işığını saçdı bizə.
Yeni həyat bağışladı,
Azad olmuş nəslimizə.

Günəş çıxdı, ətəkləndi,
Zülmətləri çəkdi dara.
Göylərdəki, boz çuxalı,
Bulutları yara – yara.

Gül üzlü bir bahar doğdu,
Qışın qarlı sinəsindən.
Dağlar güldü, bağ oynadı,
Azad həyat nəğməsindən.

Qoy yayılsın qoca şərqə,
Bu çov, bu səs başdan – başa.
Biz sitəmkeş xalqları,
Çağırırıq qurtuluşa.

Gəlin ellər əl bir olaq,
Vuraq, yıxaq qəsbkarı.
Quduz dişli işğalçıdan,
Təmizləyək hər diyarı.

Bərbad edək yer üzündən,
Bayquşların yuvasını.
Sahmanlayaq səadətin,
Qardaşlığın dünyasını.

Bu səs gurladıqca bir şimşək kimi,
Vurub titrədirdi zülmün binasın.
Onun hiddətindən gurlayan odlar,

Yaxırdı şahların köhnə dünyasın.

Yaxıb yandırırdı, bərbad edirdi,
Qarı şeytanların abidısini.
Kəsirdi ellərə əfsun oxuyan,
Alçaq kələkbazın məşum səsini.

Yoxsa düşmanlar da duyurdu bunu,
Bu səsdə toplanan böyük qudrəti.
“Bütün asiyanı tutacaq bu səs”,
O ki, görənməzdi bu “fəlakəti”.

Hər yandan ulaşdı bayquşlar, itlər,
Sanki kainata düşdü vəlvələ.
“Gərəkdir şərqdə boğula bu səs”,
Diyə, köhnə dünya verdi əl - ələ.

Londonda başladı gizli hərəkat,
Vaşinqtondaki şum tədarükat.
“Xəlicə” yollandı hərbi gəmilər,
Köndümüzdən isə “türk əfəndilər”...

Qara bir totiə, böyük vəsvəsə,
Barış əleyhinə qanlı dəsisə.
Qolumuz güclü idi, əlimiz üstün,
Şanlı ordumuzun qılınci kəsgin.
Mərzimizdən güllə geçə bilməzdi,
Üzərində quşlar uça bilməzdi.
Unutmaq olmazdı leyk bunları,
Bu fitnəkarlığı, bu oyunları,
Düşman istəyirdi Azər yurdunun,
İyitlər yurdunun, ərlər yurdunun,
Haqlı üsyanını ünvan edərək,
Qurtuluşunu bir böhtan edərək,
Sülhün binasını tarumar etsin,
Əmək dünyasına hücuma keçsin.

Tarixdə hədəfə, vətənə, yola,
Can qurban edənlər heç də az dəyil.
Əzizlərin qurban verənlər də var,
(Minaya aparmış oğlunu Xəlil).

Ancq bir millətin qurban olmasın,
Tarix göstərməyir, heç vaxt, heç zaman.
Qoy bir də söyləyim dünyalar bilsin,
Sülhə qurban oldu Azərbaycan.

Dedi qoy mən ölüm yaşasın insan,
Vuruşma oduna yanmasın cahan.
Qoy mənim varlığım tarumar olsun,

Azadlıq dünyası paydar olsun.
Qoy talana getsin bu gözəl həyat,
Dünyanı tutmasın bir də zülümat.
Açdı sərhədlərin, silahın atdı,
Namərdlər əlində al qana batdı.
Tülkülər bürüdü aslan ovlağın,
Çaqqallar qapsadı qaflan yatağın.
Aslan meşəsinə tülkü bəy oldu,
Xalqımın yanağı saraldı soldu.

Aslan meşəsinə tülkübəy olmaq,
Nə qədər ağırdır, nə qədər çətin?
Zəlil bayquşların tərlan şikarı,
Gör buna olarmı eləmək təmkin?!

Leyk, Azər eli dözərək buna,
Bir daha mərdliyin aşikar etdi.
Dünya gəncləri ölməsin, - diyə,
Bir çox iyitləri əlindən getdi.

Hələ də gərnəşir bir para qolçaq,
Utanmaz – utanmaz sarsaxlıyaraq!
-"Vuruşdum, döyüşdüm, qələbə çaldım,
Azərbaycanı mən zorunan aldım".
Tökdürür xalqımın günahsız qanın,
Talayır yurdumun hər dörd bir yanın.
Ölüm ərməğanı göndərir bizə,
Zindanlar tikdirir gənc nəslimizə.
Mərd iyitlərimi çəkdirir dara,
Yurdumun üstünə çəkilir qara.

Qarı düşman dov taparaq,
Alçaqlığın verdi nişan.
Vətənimi al boyadı,
İyitlərin al qanıylan.
Cəllad olub beşiklərdə,
Körpələrin kəsdi başın.
Ümman kimi axızdırdı,
Anaların qanlı yaşın.

Ailəsi qarşısında,
Güllələdi ataları.
Balkonlarda dara asdı,
Ağ birçəkli anaları.

İnsanlığın, şərafətin,
Bir dəfəlik daşın atdı.
Namuslu qız – gəlinlərin,
Namusuna əl uzatdı.

Quldurluqla mədəniyyət,
Sarayların talan etdi.
Hitler kimi incəsənət,
Ocaqlqrın veran etdi.

Bərbad olmuş vətənimdə,
Bayquş kimi yuva saldı.
Quzğun olub ellərimin,
Nə`şi üstə qanad çaldı.

Günəş batdı, ay gizləndi,
Duman çökdü bu diyara.
Al geyinmiş şən vətənim,
Çevrilibdi bir məzara.

Hər bir duvar çatdağından,
Hər pusqudan, hər dəlikdən,
Hər bir qurd – quş yuvasından,
Hər coladan, hər deşikdən,

Üz gizlətmiş, kəmin etmiş,
Bir canavar yavaş – yavaş.
Dişlərini itildərək,
Birdən – birə qaldırdı baş.

Hücum etdi vətənimə,
Kəsmək - diyə, basmaq – diyə.
Yaxmaq - diyə, talan diyə,
Ölüm – diyə, asmaq – diyə.

Bir sürü çalağan, bir sürü quzğun
Bir sürü alabaş, bir sürü meymun
Bir sürü əqrəb, bir sürü ilan
Bir sürü yan – yanış, bir sürü çayan
Bir sürü satılmış, bir sürü casus
Bir sürü...bir sürü...
Bir naxır köhnə qurd səksən yaşında
Fitnəkar “Corc Alen” onun başında.
Supasın bizlədi yurduma sarı
Sel kimi bürüdü bizim diyarı.
Soldu vətənimin baharı – bağı
Oldu gülşənlərim bayquş yatağı.
Boğuldı xalqimin azadlıq səsi
Susdu bulbullərin azad nəğməsi.
Döndü baharımız zimistan oldu
Qızıl güllərimiz saralıb – soldu.

Dərənin təkində calanır bir çay
Dağ – daşı bürüyür, qəmli bir haray.
Əsdikcə muğanın isti yelləri

Aparır hər yana o nəğmələri.
Bu odlu nəğmələr, bu zəmzəmələr
Qulaq as, gör sənə söylyir nələr:

Burda iki dünya durmuş üz – üzə
Burda çaxnaşırı gecə, gündüzə.
Bir yanda azadlıq, həyat, səadət
Bir yanda əsarət, ölüm, fəlakət.

Qarşımda canlanır hər iki sahil
Bağrımı dişləyir ağır bir nisgil.
Taza gəlin kimi bəzənmiş o yan
Lalədən, çiçəkdən bürünmüş əlvan.
Dəniz tək öysənir yaşıl tarlalar
Uc – uca düzülmüş gözəl binalar.
Çöllərdə bulud tək gurlayır motor
Şumlayır yerləri kotan, tıraktor.
Kəndin ətəyində dayanır qatar
Çıxır kupələrdən gənc – ixtiyar.
İnsandan gül açır bütün dağ – təpə
Qaçır yaşıllığa bir dəstə körpə.
Çəməndə toplanır gül kimi onlar
Sonra da başlayır gözəl oyunlar.
Bilmirəm yuxudur, yoxsa bir röya
(Ustadın sözləri düşür yadıma):
“Oynaşıb – gülüşüb, aşıb – daşırlar”
“Bəzən kəhlik kimi qaqqıldaşırlar”
“Sankı görməmişlər nə qəm, nə möhnət”
“Yağır üzlərindən yalnız səadət”.

Yel əsir düzlərdə, öysənir çiçək
Qyş kimi sinəmdə çirpınır ürək.
Tarlada çalışır bir dəstə gəlin
Qollarında zənbil, əldə bizərçin.
Əyinlərdə damən, başda ağ çalma
Sinələr ağ mərmər, yanaqlar alma.
Bir ahu gözlü qız qaldırır başın
Qırışdırır alnın, oynadır qaşın.
Şeyda bülbül kimi ucaldır səsin
Oxuyur yurdunun azad nəğməsin:
“Bulutlar dağılıb söküləndə dan”
“Lalədən don geyir, bəzənir muğan”
“Gülür cicək kimi çöllərdə insan”
“Çıxırsan tarlaya sən muğan qızı”...

Bu taya baxıram, görürəm nələr?
Qarğıdan tikilmiş alçaq kömələr.
Çığın dalısında yatmış bir qarı
Oğrun qızdırmadan rəngi sap – sarı.
Qumsalda bir neçə körpə oynaşır

Onlara baxanın bağrı odlaşır.
Gözləri tıraxum, qıçları çıplaq
Başları keçəldən bağlamış qatmaq.
Yüz addımlıqda bir uzun saçlı qız
Qara tikanlıqdan toplayır mayız.
Kirli yaylığını çəkmiş qaşına
Təzək kərəliyin almış başına.
Gah addım götürür gahdan da durur
Bə`zən birdən – birə yerə oturur.
Çıplaq ayaqların yardıqca tikan
Qorxmuş adam kimi diskinir hər an.
Yol üstə oturmuş düşgün bir qoca
Qəddinin kamanı dəymiş uc – uca.
Bununla o yenə nıqqıldayaraq
Bir küt kərki ilə yonur doğanaq.
Bu iş isə ancaq onu çox yorur
Ara bir işləyir, ara bir durur.
Baxıram, sümüyü çıxmış üzünə
İçim alovlanır, alışır sinə.
Asta sovuşuram onun yanından
Söyləyirəm, baba, yorulmayasan.
Bozarmış gözlərin tikir üzümə
Yorğun baxışlarla baxır üzümıə.
Zarıncı bir səslə xoş gəldin, edir
Yenə də tövşəkdən nəfəsi gedir.
İçimdə gurlayır yenə də tufan
Asta sovuşuram onun yanından.
Bağrımı dişləyir ağır bir nisgil
Qarşımda canlanır hər iki sahil.
Burda iki dünya durmuş üz – üzə
Burda çaxnaşırı gecə  gündüzə.
Bir yanda azadlıq, həyat, səadət
Bir yanda əsarət, ölüm, fəlakət.
Çayın o tayında qaynayır həyat
Bu tayı çulqamış qara zülümat.
O tayda bahar var, bu tayda qış var
Orda bulbul oxur gül qucağında
Burda quruyub qonçalar qında.

Orada insanın yaradan əli
Gün bə gün zor gəlir kor təbiyətə.
Əğlə sığınmayan böyük qüvvələr
Buyuruq quludur bəşəriyyətə.
Orada sənətin, elmin ovsunu
Seli dayandırır, dağı qoparır.
Qəhhar təbiyəti dəyişmək,- deyə
Odlu səhraların bağrını yarır.

Burdasa bir yanğın, bir qar, bir boran
Bir külək, bir dolu, bir sel, bir tufan

Xəlq kəndirinin həyatın kəsir
İnsan təbiyətə əsirdir, əsir.
İgirmi səkkizin  qoraqlıq ili
Kəndçi kütlələri, bu Azər eli
Nə günlər görmədi, çəkmədi nələr?
İnsan o günləri unudar məyər?

Gəzirəm çölləri, kora yolları
Külək pıçıldadır quru kolları.
Qarşıma çıxırı bir sürü davar
Bütün mürgüləyır keçi – qoyunlar.
Bir - birinə keçmiş qabırqaları
Duz tək yalayırlar boş qayaları.
On iki yaşında kiçik bir çoban
Çiynindəki böyük bir dağarcıqlan
Sakit dayanmışdır, nə səmir, nə səs
Gahdan bir çəkirdi dərindən nəfəs.
Üzündə qüssədən gizli bir iz var
Mə`sum baxışında bir dünya söz var.
İntizar gözləri yolda qalmışdır
Bilməm tütəyini harda salmışdır.
Görünür çoxdandır nəğmə çalmayır
Dağlara daşlara nəğmə salmayır.
Onun da ruhunu öldürmüş sitəm
Onun da gözlərin tutmuş kədər – qəm.
Onun da qəlb evin zülm əli yıxmış.
Bütün nəğmələri yadından çıxmış.

Dərənin təkində calanırı çay
Dağ – döşü bürüyür qəmli bir haray.
Əsir yamaclarda isti bir külək
İçimdə odlanır, alışır ürək.
Burda iki dünya durmuş üz – üzə
Burda çaxnaşırı gecə gündüzə.
Ürəim istəyir atılam çayı
Bir dəfə tərk edəm bu qəmli tayı.
Tülək tərlan kimi qol – qanad açam
Bu üstü dumanlı ovlaqdan uçam.
Uçam səadətin şən dünyasına
Işıq dünyasına, gən dünyasına.
Lakin birdən birə dizlərim əsir
Ağır bir sıxıntı bağrımı kəsir.
Qıçlarım quruyur, qizişır üzüm
Başım gicəllənir, qaralır gözüm.
İstirəm götürəm addım – adımdan
İçimdə bir qüvvə qışqırır, dayan!
Qışqırır tərpənmə hara gedirsən?
Nə üçün yurdunu sən tərk edirsən?
Nə üçün atırsan yarı – yoldaşı?
Bu doğma elləri, qohum – qardaşı?

Yox, atma elləri, tərki yar olma!
Vətəndən əl üzmə, beilqar olmar!
Köçəri quş kimi ovlaqdan uçma!
Başını götürüb vətəndən qaçma!
Dənizlər daşsa da, qopsa da tufan
Əsil quş əl üzməz öz uyvasından.
Düzdüur ki, orada öz vətənimizdir,
Öz bağın, öz bağça, öz çəmənindir.
Düzdürki, orada gülür səadət
Gülürü insanlar, gülür təbiyət
Lakin bərbad olmuş bu qəmli diyar
Bu pozqun dərələr, dumanlı dğlar
Sitəm zəncirinə bağlanan əllər
Haqqı pamal olmuş obalar – ellər
Südünü əmdiyin ağ saçlı ana
Yolunu gözləyən ala göz sona
Hamısı – hamısı göz tikmiş sənə
Hər öz millətinin dərdin bilənə
Bu sönük duduman sənindir, sənin
Sənə göz tikmişdir indi vətənin.
Zülmətə uğramış bu pozğun diyar
Babəklərdən qalmış sənə yadigar.
Döyüş meydanıdır, indilik vətən
Sən də o meydanın bir əsgərisən
Qaçma bu davadan,qaçma bu dovdan
Qaçma səngərindən, qaçma bu lovdan.

Vuruş öz xalqınla sən də yan – yana
Qır tök düşmanları mərdi – mərdana.
Qov öz vətənindən işqalçıları
Hər iste`marçını, hər zülmkarı,
Qorxma, doyüşlərdə axsa da qanın
Yaxud dodağından çıxsa da canın.
Dayan qoy düşmənlər taru mar olsun
Sənin də vətənin bəxtiyar olsun.
Doğsun qızıl günəş, açılsın səhər
Sənin də ellərin olsun bəxtəvər.
Gül açsın düzlərdə sünbül - şəlalə
Qurusun tikanlar, göyərsin lalə.
Bütün köhnə dünya od tutsun yansın
Azadlıq bayrağı şən dalqalansın.

Qocaman Təbrizi bürümüş duman
Yüz minlər insanı sarsıdır hirman.
Bütün dudkeşlərdə boğulmuş nəfəs
Heç bir sivistovdan çıxmayır bir səs
Susub çalışqanlıq, dayanıb zəhmət
Bütün hər tərəfi bürüyüb dəhşət.
Qaraldıb göyləri zülmün qubarı
Yağıb yer üzünə fəlakət qarı.

Bütün kargər əli qoynunda
Məişətin ağır yükü boynunda.
Qalıb küçələrdə səfil sərgərdan
Kəsib amanını işsizlik, hirman.
Kəndçi kərvanları tutmuş yolları
Gəlir hər tərəfdən insan qatarı.
Yanıqlığa düşmüş yazıq obalı
Çarıq – pətavalı, yırtıq çuxalı.
Bütün var – yoxunu dalına almış
Çıplaq uşaqların yanına almış.
Sel kimi axışır şəhrə hər yandan
Ara Həştəridən, ara Muğandan.

Hər qapıda bir cüt çiyni torbalı
Göz yaşı axıdır, dilənir çörək.
Soyuq alazlayır lüt bədənləri
Sümük sızıldayır, qovuşur kürək.
Gərmxanalarda ölüm qoxuyur
Aclıq insanlara kəfən toxuyur.

Gecədir hər yana köçüb qaranlıq
Bütün təbiyəti dondurub soyuq.
Külək vıyıldayır, boran övsənir
Sankı, göydən yerə kafur ələnir.
Bir məzar kimidir bütün kayinat
Təbiyət bürünüb qardan ağ həyat.
Yolun qırağında çəkibdir qatar
Bir sıra kələmə - kötür daxmalar.
Hansısından isə solğun bir ışıq
Boylanır eşiyə tüstü qarışıq.
(Ağır addımlarla yarıram qarı
İrəliləyirəm, daxmaya sarı.)
Işığın qarşısı kəsilir bir an
Çıxır içəridən məfluk bir insan.
Qanşarda dayanır cansız heykəli
Qarşıma uzanır damarlı əli:
-Rəhm et mənə ağa! Yamandır halım
Bir həftədən çoxdır acdır əyalım.
(Deyən bir qocadır, axıdır yaşın
Şərmindən yuxarı qaldırmır başın.)
Haradansa gəlir sızıltı səsi
Bir yığın insanın həzin naləsi.
Gecənin bağrını yarır nalələr
Qonur xatirimə ağır bir kədər.
İçərim alışır, bağrım odlanır
Ruhum şö`lə çəkir, ürəyim yanır.
Baxdıqca bu məhrum, səfil insana
İçimdə nifrətdən qopur fırtana.
Nifrət tanrıların puç röyasına
Bu kor quruluşun şum dünyasına.

Düşünürəm, kimdir bu düşgün səfil
Qoca əkinçidir, dilənçi dəyil.

Hələ əllərindən getməmiş onun
Orağın, şənənin illik qabarı.
Heç zaman yuxuda görməmiş onu
Səhər günəşinin ilk şüaları.

Düşünürəm kimdir bu məhkum insan
O dur ruzu verən, o dur yaradan.
“Mənə rəhm eləyin”, deyə o dillər
Suala açılan bu qabar əllər.
Soyuqdan titrəyən o mə`sum uşaq
Bənövşəyə dönmüş o lalə yanaq.
O, səadətli bir rəhmət əlidir
Vətən qunçasıdır, vətən gülüdür.
Onundur bu aləm, onundur cahan
Onun əməgiylə yaşayır insan.
Bağrıma basıram düşgün qocanı
Öpürəm əlinin qabarlarını.
Hörmətlə əlini əlimə alıb
Məhəbbət qolumu boynuna salıb:
Demə ehsan elə, rəhm elə mənə
Mən ki, varlığımı borcluyam sənə.
Sənindir həyatım, yediyim çörək
Sənindir köksümdə çırpınan ürək.
Sənindir iliyim, sənindir qanım
Sənindir varlığım, sənindir canım.
Sənin zəhmətindir məni yaradan
Sənin möhnətindir məni oyadan.
Bu, günəşdən aydın bir həqiqətdir
İnsanın varlığı sənə minnətdir.
O, qabar əllər ki, qap – qara yanmış
O, yorqun gözlər ki, qəmdən usanmış
O, qara quylanan donmuş ayaqlar
Kömür tək qaralan yanmış dodaqlar
Bütün keçirdiyin o qara günlər
Ürəyini sıxan ağır düyünlər
Dəmirçixanada döydüyün dəmir
Bütün məşəqqətlə sürdüyün ömür
İstisi cismini yandıran günəş
Şumladığın yerlər, dərdiyin küləş
Işığında buğda sovurduğun ay
Ömrünü çürədən yaz, payız, qış. yay
Qoluna bağlanan iplərin yeri
Torpağa tökdüyün alninin təri
Üzərində kələk qurduğun dağlar
Əkib becərdiyin səfalı bağlar
Hamısı – hamısı şahiddir ki, mən
Sənə minnətdaram doğulan gündən.

Bu tək mən deyiləm, dünya bilir ki,
Sən bəşəriyyətə ruzu verənsən.
İnan ki, həyatın ocağı sönür
Əyər sən əkməsən, sən işləməsən.

Qoca sakit – sakit baxır üzümə
Sonra da çatılır ağarmış qaşı.
Nələr düşünürsə sözlərimdən o
Mə`nalı – mə`nalı yırğanır başı.

-Nə deyirsən oğul, kəsilmiş çaram
Birkərə üzülmüş hər yandan əlim.
Hanı əməyimin qədrini bilən?
Dünyanın zülmündən bükülmüş belim.

Nələr çəkməmişdir bəlalı başım
Nələr oxumuşam, nələr çalmışam.
Budur həyatımın son sərəncamı
Divarlar dibində mələr qalmışam.

Mənə bu dövranin vəfası budur
Bir ömür məşəqqət, aqibət sual.
Yetmiş il çalışmaq, yetmiş il zəhmət
Axırsı olmuşdur boynuma vəbal.

Hansı gün ömrümdə mən şad olmuşam?
Günüm bəxtim kimi qaralmış hər an.
Yetmiş il çalışdım, çox cəfa çəkdim
Bircə xoş saatdan tapmadım nişan.

-Yaddan çıxarmışsan bəs o bir ili?
Mənlə bir səngərdə yatan zamanı?
Yoxsa unudmuşsan o xoş günləri?
O xoşbəxt həyatı, o şən dövranı?

-Ox demə! Tarixin qaranlığında
O il bir ay idi, doğdu da batdı.
Ömür çiçəkləndi ancaq bir bahar
Lakin, güllərini yanağın saratdı.

Qərnlər zülmətdən, dumandan sonra
Bir günəş doğdu, bir il yaz oldu.
Lakin, o yeganə şən baharın da
Bir qızıl gül qədər ömrü az oldu.

Xalq hökümətinin şən dövranında
Ancaq biz anladıq ömrün ləzzətin.
Dedik: axşamimiz səhərə döndü
Əlindən qurtardıq zülmün, zillətin.

Demə qəsbkarın qara kiynəsi
O həyatı bizə qoymayacaqmış.
Demə əkdiyimiz umud zəmisin
Quldurlar od vurub yandıracaqmış.

Rizaxan oğlunun ziyankar əli
O həyatı bizə qala, qoymadı.
O quduz, milyonlar iran xalqının
Qanını büsbütün sordu, doymadı.

-Yox ata, darıxma, bu qara dövran
Bu tüstü, bu duman, bu qar, bu boran
Çox çəkməz ışıq bir bahara dönər
Yenə də həyatın gülşəni gülər.

Yatar qarlı qışın soyuq yelləri
Açar şən baharın qızıl gülləri.
Bizimdir gələcək, böyük gələcək
Tarix cəlladlara baş əymiyəcək.[1]

Beş milyon zəhmətkeş məhrun insana
Demək "nəcat tapmış"Azərbaycana
Rizaxan oğlunun zülüm töhfəsi
Fəlakət töhfəsi,ölüm töhfəsi.

Vətəni bürüyüb qanlı bir dəhşət
Sarsıdır xalqımı aclıq, fəlakət.
Kəsir nəfəsləri süngü, zindan, dar
Tikilib dodaqlar, bağlanıb qollar.

Lakin, tarix boyu bu böyük diyar
Təslim olmamışdır və olmayacaq.
Doğma torpağımda quduz düşmana
Əyər yer vardısa məzar olacaq.

Dönməz iydlərin hər şərayitdə
Mübarizəsinin idaməsi var
Şanlı firqəmizin susdurulmayan
Qurtuluş nəğməsi, ilham səsi var.

Qanlı dodaqlarda sözlər qanlıdır
Diləklər də qandır, ürəklər də qan.
Cilov gəmiriri qan almaq diyə
Hər yerindən duran hər baş qaldıran.

---

[1] *Demək tarix əyə bilməz cəlladlara öz başını*
*Qoca dünya tez qucaqlar öz səadət qardaşını*

Yurdum odlar yurdu Azərbaycandır
Mərdliyin alınmaz möhkəm qalası.
Yurdum baş əyməmiş İskəndərlərə
Gəlməmişdir yerə iyid arxası.

Yurdum, Babəklərin yadıgarıdır
Hər tülkü buradan bac aparanmaz.
Elimin qəzəbi tuğyana gəlsə
Aslanlar əlindən can qurtaranmaz.

Zalım, sağ baş gora apara bilməz
Oğru çırağının olmaz ışığı.
Əyri ilan tezraq gülləyə gələr
Düşmani boğacaq öz qaranlığı.

Çəkməsi mamızlı, əyri papaqlı
Üz – gözü podurlu, çiyni yaraqlı
Danışanda min cür işvələr satan
Hər ötən qadına bir qaş – göz atan

Şahlıq qoşununun “Don Kişotları”
Tülək tülküləri, qoca qurdları
Baş aparmayacaq Azər yurdundan
Ərənlər yurdundan, ərlər yurdundan.

Günahsız tökülən nahaq qanların
Hər damlasından bir Babək qalxacaq
Tufanlar qopacaq el qəzəbindən
Düşmanın gözünə şimşək çaxacaq.

Qana batmış zalım əllərə qarşı
Qalxacaq ellərin intiqam əli
Son zəfər şübhəsiz kütlələrindir
Qalib gələcəkdir xalqın əməli.

Gecə hər nə qədər uzun olsa da
Səhər açılacaq, günəş doğacaq.
Bu söz daha bugun əfsanə dəyil
“Işıq qaranlığı bir gün boğacaq!”

Daradıqcan günəş sarı tellərin
Gedəcək Səhəndin başının qarı
Gül çiçəklər üstə inci səpəcək
Dumanlı dağların boz bulutları.

Yenə yurdumuza bahar gələcək
Solğun güllərimiz yenə güləcək
Tarix cəlladlara baş əyməyəcək
Bizimdir gələcək, böyük gələcək.

*Təbriz 1328*

***Araz***

Mən Arazın adıylan
Çox zamandır tanışam.
Ən kiçik yaşlarımdan
Onu ravanlamışam.

Qoca babam nə vaxt ki,
Boğazım ağrıyardı
"Araz keçmişəm" – diyə,
Boğazımı sığardı.

Soruşardım: - Ay baba,
Araz nədir, keçmisən!
Nə kimi şeydir o ki,
Suyundan da içmisən!

Sualımdan babamın
Yaşarardı gözləri.
Üzünün çinlərində
Gizlənərdi kədəri.

Üzümə mə`yus – mə`yus
Baxıb deməzdi bir söz.
Görərdim ancaq olub
Onun tükləri biz – biz.

Sonra da qardaşımın
Adın qoydular Araz.
Lakin onda da mənə
Aydınlaşmadı bu raz.

Ancaq Araz beşikdə
Yatıb yırğanan zaman,
Bu sözləri dinlərdim
Anamın laylasından:

"*Arazı ayırdılar,*
*Qum ilən doyurdular,*
*Mən səndən ayrılmazdım,*
*Zülmünən ayırdılar*".

Neçə il ondan sonra
Dərs oxuyan zaman biz,
Bunları dərs keçirdi
Bizə müə`limimiz:

-Araz böyük bir çaydır
İranın şimalinda.
Qafqaz ölkəsi durur
Bu çayın o tayında.

Bir parçaymış əzəldən
Başdan başa bu diyar,
İndi isə ayırməş
Onu bizdən "qəsbkar"...

İndi ora hökm edir
"Urus istismarçıları"
Ona görə "fəlakət"
Bürümüş o diyarı.

"Vətən" gözləyir bizdən
Basıb keçək Arazı
Düşmanların əlindən
"Azad" edək qafqazı.

Müə`llimin süzüylə
"Qafqazı azad etmək"
O günlərdə olmuşdu
Mənə ən böyük dılək.

Həyəcanlar içində
Ayılmışdı bu sevda:
"Gərəkdir zülm əlindən
"Qurtara qafqaziya."

O gün evə gəldikdə
Babamı yaxladım.
Gözlərimin yaşını
Yanağıma cladım:

-Baba, niyə sən mənə
Tanitmadın Arazı!
Onun o tayındaki,
Bizim "əsir" qafqazı!

Babam heyrətlənərək
Mat – mat baxdı üzümə
O, acıqlı – acıqlı
Cavab verdi sözümə:

-Bu. Nə sözdür deyirsən!
Nə əsarət, nə Araz!
Sənə kim demişdir ki,
Əsirdir indi qafqaz!

Babam acıqlandıqda
Qəhər tutdu gözümü
İki əlimlə bərk - bərk
Tutdum pörtmüş üzümü:

-Mən nə edim, ay baba,
Müəllim dedi bizə.
Bax, onların hamısı
Yazılmış dərsimizə.

Burda yazır ki, qafqaz
Bizim imiş bir zaman
İndi isə ayırmış
Qəsbkarlar irandan.
Yenə babam qızardı
Çatıldı çal qaşları.
Təssürdən süzüldü
Saqqalına yaşları.

Bədəni əsə -əsə
Qucaqladı başımı,
Qabarlı əlləriylə
Sildi isti yaşımı:

-Yazıq balacığazlar,
Vətənin körpələri.
Sizləri hədələyir
Vicdan təhlükələri.

Afərin, qoçaq oğlum!
Qurban şirin sözüvə
Bu doğma duyğularla
Baban dönsün gözüvə.

Vətənpərvərlik hissi
Müqəddəs bir duyğudur,
Vətənini qorumaq
Hər iyidin borcudur.

Vətəndir bizə ürək,
Vətəndir bizə ana,
İliyimiz, qanımız
Bil ki, bağlıdır ona.

Öz şirin canımızdan
Bizə əzizdir vətən,
Qoy daima xar olsun
Vətənini sevməyən.

Doğrudur, qəlbimiz tək
Doğmadır bizə Qafgaz.
Bu vahid ürəyinsə
Bir damarıdır Araz.

Doğrudur, tarix boyu
Belə olmamışıq biz.
Bu cür bölünməmişdi
İki yerə ölkəmiz.

Ancaq inanmaq olmaz
Bə`zi uydurmalara,
Çox bəzəkli sözlərə,
Çox puç qoramalara.

Bu sözlərin hamısı
Doğrudur, düzdür, amma
Bir çox quyruqlu yalan
Soxulmuş arasına.

Tarix qəlbəzənləri
İste`mar dəllalları
Qoramış bu sözləri
Bu yalan məqalları.

Doğrudurki, müştərək
Şanlı keçmişimiz var
Böyük Azər yurdumuz
Odlardandır yadigar,

Yenə də doğrudur ki,
Biz iki qardaşları
Ayırmış, ayrı salmış
Tezar işqalçıları.

Lakin bu düz dəyil ki,
İndi Qafqaz elləri
"Əsarət altındadır,
Zəncirdədir əlləri".

Bir zaman beələydisə
İndi dəyişmiş dövran.
Əsarət köçün çatmış
Böyük Qafqaziyadan.

Bir zaman əsiridik
Həmi onlar, həmi biz.
Zülm odüna yanırdı
Keçmiş nəsillərimiz.

Sonra da parçalandı
Vətənimiz aradan.
Bir qolçomaq zorladı
Başqa qolu zorbadan.

O gün Qafqaz qurtardı
Qəcər əsarətindən.
O quldur zalımların
Zülmündən, zillətindən.

Və lakin mə`ruz qaldı
Başqa bir əsarətə.
Tazadan məhkum oldu
Yeni bir fəlakətə.

Tezar mütləqiyyəti
Süngü taxdı Araza.
İste`mar qarı yağdı
Bizim doğma Qafqaza.

Bu iki qat əsarət
Lakin tez çatdı başa.
Əməldə səbəb oldu
Əbədi qurtuluşa.

Bir qurtuluşa ki, o
Həyat verdi ellərə.
Bir dəfəlik son qoydu
O qaranlıq illərə.

Böyük rus millətinin
Səbiri başdan aşanda
Zəhmətkeş kütlələri
Dəniz kimi daşanda.

Böyük petroqradda
Al bayraqlar əsəndə.
Qabar əllər tezarın
Nəfəsini kəsəndə.

Rus zəhmətkeşləriylə
Dost diyə, yoldaş diyə.
Qanlı vuruşmalarda
Can diyə, qardaş diyə.

Əl bir olub döyüşdü
Yıxdı zülmün binasın.
Qalibiyyətlə qurdu
Sosyalizmin dünyasın.

Böyük proltaryanın
Yüksəltdi al bayrağın.
Əsarətdən qurtardı
Doğma vətən torpağın.

Dağıtdı xanın, bəyin
Qara hakimiyyətin.
İftixarla yaratdı
Şuralar cumhuriyyətin.

Qalibiyyət qazandı
İnsanın pak əməli.
Yeni bir dövran qurdu
Zəhmətkeşin mərd əli.

Darıxma, indi oğul
Əsir dəyildir Qafqaz.
Bu dediyim sözləri
Dinləyib könlünə yaz.

Hər kim ki, əməyinə
Malikdir bu dünyada
Ona məhkum və əsir
Demək olmaz əbəda.

İndi Qafqaz elləri
Malikdir varlığına.
Hamı xoşbəxt yaşayır
Azadlıq sağlığına.

Bəlkə də oğul indi
Əsir bizlərik, bizlər.
Bu quldur hökümətdən
Başımız çəkmir nələr.

İndi əsir bizik ki,
Görməyirik bir xoş gün.
Bağımız, əkinimiz
Talana gedir bütün.

Dünyada bundan ağır
Milli əsarət nə var?
Öz dilimizdə bizi
Danışmağa qoymazlar.

Bir hökümət ki, məni
Əzişdirir hər yanda.
Dilimi kəsiri, öz
Dilimdə danışanda.

Məgər işqalçı dəyil?
Ya dəyilmi qəsbkar?
Dünyada bundan ağır
Milli əsarət nə var?

Gör ki, əsir bizlərik
Əsir dəyildir Qafqaz.
Sosyalizm ölkəsində
Bil ki, əsarət olmaz.

Qafqazda çoxdandır ki,
Əsarət gedib bada.
Səadət gülü açıb
Hər daşda, hər qayada.

Qapılardan qovulub
Vaxtsız ölüm, fəlakət.
Luğətlərdən pozulub
Aclıq, zillət, səfalət.

Əsirlər zülmətindən
Aydınlığa çıxıb el.
Azad həyat, azad dil
Azad nəğmə, azad tel.

İşsizlıkdən, aclıqdan
Qalmamışdır bir əsər.
Səadət qucağında
Hamı olub bəxtəvər.

Getmış dağların qarı
Zimistan dönmüş yaza.
Qızıl günəş nur saçır
Bizim əziz Qafqaza.

Zülmkar xanın, bəyin
Kəsilib qanlı əlı.
Vaqeiyyətə çatıb
Kütlələrin əməli.

Şahların qızıl tacı
Muzələrə atılıb.
Adamcıl quzğunların
Qanadları çatılıb.

Başdan atıb insanlar
Cəhlin təhlükəsini.
Yuyub öz ətəyindən
Rəzalət ləkəsini.

Qulaq as,gör nə çəkir
Mənim bəlalı başım.
Baxsan əyər, yer salıb
Yanağımda göz yaşım.

Qara bir yalavaclıq
Çulqamış bizim eli.
Atama məzar olmuş
Mazəndəran tuneli.

Ağarmışdır anamın
Saçları gənc yaşında.
Ərimiş, kabab olmuş
Təndirlərin başında.

Dığlamış vərəm tutmuş
Kiçik bacım Yasəmən.
Fərş karxanalarında
Şeh yerdə işləməkdən.

İndi bizim ölkədə
Zülüm tutub həryanı.
Yurdumuz olub bütün
Dirilər qəbristanı.

Xalqını quduz yağı
Dağıdır, kəsir, basır.
Hər haq söz danışanı
Öldürür, dardan asır.

Ağır bir əsarətə
Məhkum olmuş elimiz.
Yüz yerdən qıfıllanmış
Ağzımızda dilimiz.

Belə bir “Vətəndaşlıq”
Bilmirəm nə təhərdir?
Bir adımız İranlı
Biri də türkəxərdir.

Görəsən sonu varmı
Bu ağır nisgillərin?
Baharı – yazı yoxmu
Bu boranlı illərin?

Yurdumuz çiçəklənir
Bəzənir başdan başa.
Əməyimiz ruh verir
Hər qayaya, hər daşa.

Köçünü çatıb gedib
Ölkəmizdən qara qış.
Ellərimiz əbədi
Səadətə uğramış.

Bizimdir azad həyat
Bizimdir bu şən həyat.
Qoy var olsun, yaşasın
Bu dövranı yaradan.

Babam hey danışırdı
Pörtürdü yanaqları.
Həyəcandan əsirdi
Rəməqsiz dodaqları.

Dedikcə dirçəlirdi
Yorğun gözləri müdam.
Məni titrədirdi
Gözlərindəki inam.
İnam bəşəriyyətin
O müqəddəs yoluna.
İnam dediklərinin
Müsəlləm olduğuna.

İnam sosyalizmə
İnam o həqiyqətə.
İnam onun ellərə
Verdiyi səadətə.

İçimdə oyanırdı
Gurultulu bir tufan.
Azğınlıqlara qarşı
Ruhum edirdi üsyan.

Üsyan cığalbazların
Kələkbazlıqlarına.
Vicdan oğrularının
Səhnəsazlıqlarına.

Aydın bir həqiyqətə
Baş əyirdi inamım.
Açırdı gözlərini
Uydurulmuş vicdanım.

Öpürdü haqqın üzün
Qəlbimin dodaqları.
Öpürdü onda olan
Dərin doğmalıqları.

Silinirdi qəlbimden

Cahiliyətin pası
Mənə uz göstərirdi
Vaqeiyət dünyasi.

Xəyalımın tərlanı
Bəzəyirdi şahpərin.
Qonurdu sinəsinə
Əlmas donlu göylərin.

Yenə də ucalırdı
Göyün lay balayına.
Ordan nəzər salırdı
Arazın o tayına...

Arazın o tayına
O, əmək dünyasına.
Sosyalızm ocağına
Səadət yuvasına.

Bakıya, Lənkərana
Tiflisə, İrəvana,
Şəkiyə,Nəxcivana
Şamaxıya, Şirvana.

Ötürdü kalxozlardan
Pambıq tarlalarından.
Xəzər sahillərindən
Taxıl poxalarından.

Səlamlayıb öpürdü
Öz qardaş ellərini.
Məhhəbətlə sıxırdı
Çalışqan əllərini.

Görürdü o şən diyar
Bəzənmiş başdan başa.
Səadət quşu qonmuş
Hər qayaya, hər daşa.

Alırdı çobanların
Nəğməli ney səsini.
Azad Azər qızının
Azadlıq nəğməsini.

Mayıl – mayıl baxırdı
Uşaq bağçalarına.
Vərhovluqla boy atan
Sovet balalarına.

Qaçıb qucaqlayırdı

Kamsamolçu “Aydın”ı.
Öz doğma qardaşını
Sosyalızm övladını.

Açırdı qarşısına
Ömrünün dəftərini.
Bir – bir nişan verirdi
Öz qara günlərini.

-Mənə qulaq as, Aydın
Eşıt, qara günümdən.
Yoxsa bilməyirsənmi
Sənin qardaşınam mən?

Lakin mənim məskənim
Qaranlıq daxmalardır.
Ömrümün hər anında
Min bir acılıq vardır.

Söylə, qardaş, nə üçün
Sən eləsən, mən belə?
Nə amil səbəb olmuş
Bu şum ikicəliyə?

Söylə, mən bu həyatdan
Neçün məhrum olmuşam?
Açmamış öz qınımda
Saralmışam, solmuşam.

Yoxsa cücərməmişik
Bir kötükdən sən və mən?
Məyər bəsləməmişdir
İkimizi bir vətən?
Damarımızda bizim
Vahid bir qan axmayır?
Qardaş, diyə gözümüz
Bir – birinə baxmayır.

Səadətli bir həyat
Sənin çəkir nazını.
Qara qış qapsamayır
Baharını, yazını.

Qaqqıldaşır, oynaşır
Gözəl kəhlik qayada.
Gündə toydur, bayramdır
Hər eldə, hər obada.

Çalınır sədəflı saz
Çırpınır azad ürək.

Deyir bir də bu diyar
Yaman gün görməyəcək.

Coşur şairin qəlbi
Sevinci aşır – daşır.
El diyə, vətən diyə
Min bir nəğmələr qoşur.

Çəmənləri oynadır
Bülbüllərin nəğməsi.
Dağa – daşa səs salır
Çobanların ney səsi.

Min zəfərlə qurrulur
Sosyalizmin cənnəti.
Təbiyəti dəyişir
İnsanların qüdrəti.

İnsanın comərd əli
Dəryalardan bac alır.
Yarır mavi göyləri
Ulduzlara yol salır.

Görəsən bu ayrılıq
Çatacaqdırmı başa?
İki qardaş bir daha
Yaşayacaqdır qoşa?

Söylə mənə, bəs Araz
Quruyacaqdır haçan?
Nə vəxta tək olacaq
Vətənim mənə zindan?

*Azər ayı 1331*

***Şəhriyara məktub***

Bir əlimdə qələm, bir əldə kağaz,
Xəyalım boylanır damdan – divardan.
Başımda yar bağın gəzmək havası,
Qapılar bağlıdı, yol haradan?

Hasarın dalında, gönül verdiyim,
O yar bir bağ salıb suyu bululdan.
Heyvası kəhriba, narı yaqutdan,
Tağı fiyruzədən, divarı güldən.

Mavi eyvanında, saz çalır zöhrə,

Burcunda yay çəkib, dayanıb keyvan.
Layiqi var girəm qəsrinə mən də?
Qıllı papağımlan, qırıx sazımlan?

O bu ehtişamla, bu təmtəraqla,
Qapısın üzümə açmazsa nə var?
Şahla rəiyyətin söhbəti tutmaz,
Mən bir obalıyam, o dur "Şəhriyar".

Gərək ruxsət alam, Heydər Babadan,
Yox cavabı, bəlkə mənə verməsin.
Bir də Şəhriyardan fərmanım vardır,
"Şair bir – birini olur görməsin?".

Yox... mən də Səhəndəm, başım ucadır,
İçimdə sönməyən eşq atəşi var.
Mənə səfası var güllü baharın,
Başımı dutsa da, qara buludlar.

Bir əlimdə od var, bir əlimdə su,
Bir üzüm qara qış, biri bahardır.
Dosta – istəkliyə, isti qoynum var,
Düşmana baxışım şaxtadır qardır.

Laləli çiçəkli çəmənlərimdə,
Gəlib yurd salsa da çoban – çuluqlar.
Yalvarram səfamdan üz döndərməsin,
Şəhriyara layıq, şah yurdum da var.

Könlüm havasıyla qol – qanad açır,
Qaf qalasın aşmaq deyə, ucalır.
Qalxdyqca boy atır, daş – divarlara,
Alıcı tərlanım, yorulur qalır.

Divarlar! Divarlar! Polad olsaz da,
Almas müşar ollam, kəsib biçərəm...
Külüngün borc allam Fərhad babamın,
Bistun olsaz da, çapıb geçərəm.

Divarlar! Divarlar! Yol verin geçim,
Vulqanam, nəfəsim tufan qoparar.
"Bulud"am, sallansa, qaşım–qabağım,
Ağlaram aləmi sellər aparar.

İçimdə boğulur, dadım, fəryadım,
Hayıma nə divar, hay verir nə yar.
Nə daşdan səs çıxır, nə də qardaşdan,
Sankı boşluqlarda itir dalğalar!

Bəlkə də xəyaldır məni sarsıdan,

Ya da ki, səhərdir yardan ayıran.
Deyirlər: "Dilbərim bulul qəsrində,
Dardadır, asılıb təpə saçından".

Səhəndi qorxutmaz nə səray, nə sehr,
Məhəbbət deyilən, bir əfsunu var.
Həm ismi ə`zəmdir, həm ismi şəbdir,
Bağlı qapıları üzünə açar.

Açılın! Açılın! Bağlı qapılar,
Məhəbbət naminə, İstək naminə.
Əriyin, tökülün dəmir qıfıllar!
Könül xatirinə, ürək naminə.

Sankı tufan qopur, göy guruldayır,
Buludlar çaxnaşır, şimşək şaxır.
Od – alov, ələnir yerin üzünə,
Dəmir dərvazalar, su olub axır.

Gəlir qulağıma iniltiləri,
"Burda bir şer darda qalıb bağırır".
Doğrudan da mən bir mürüvvətsizəm,
Qardaşım dardadır məni çağırır.

Çəkilin! Çəkilin! Yol verin keçim,
Ürəyim alışıb, alov saçaram.
Şəhriyar boynuna zəncir vurarlar?!
Çeynərəm, gəmirrəm, dartıb açaram.

İşləyir qoluma dəmir, pəxlələr,
Zəncir qıncıqdırır, yencir ətimi.
Can qardaş! Hələlik bağışla məni,
Deyəsən unutdum əsarətimi.

Əziz Şəhriyarım! Məni bağışla,
İncimə, darılma, fikrin hardadır.
Mürüvvətsiz dəyil sənin qardaşın,
Ancaq sənin kimi o da, dardadır.

Özün deməmisən: "Bizim ellərdə,
Vəkil müvəkkilin xərcini çəkər?".
Ana, eşq ocağı sönməsin deyə,
Ürəyin əridər, çirağa tökər!

Hər yanı bilmirım, bizim diyarda,
Heç də xəyal dəyil, dosluq, məhəbbət.
Ancaq ışıq saçan isti günəş də,
Bə`zən bulud altda gizlənir əlbət.

Bəlkə də nə bilim, sultan qardaşım!

Həqiyqətdə işin eybi bizdədir.
Həmin bu ilqarın düşgünüyük biz,
Günah yadda dəyil, özümüzdədir.

Bir avuc kələkbaz, qumarbaz iylə,
Pakbaz olmuşuq, pak uduzmuşuq.
Mərd ikən, namərdə rəhm eyləmişik,
İndi namərdlərə möhtac olmuşuq.

Dövlətliyə saxsı lazım olanda,
Vurub sındırmışıq öz küzəmizi.
Çıxdığımız qını bəyənməmişik,
Biz eli atmışıq, el atıb bizi.

Elimizə nə gün ağlamışıq biz,
Bağın şaxta vurub bostanı yanıb.
El bizə neyləsin, nə gün ağlasın?
Ağzı qıfıllanıb, dili bağlanıb.

İndi olan olub, keçənlər, keçib,
Calanan su, bir də küzəyə dolmaz!
Daldan atılan daş topuğa dəyər,
Göz yaşı tökməklə, yara sağalmaz!

Bu gun mən Səhəndəm, sən Şəhriyarsan,
Gəl başın ucaldaq qoca Təbrizin.
Bir kərə yadların daşını ataq,
Çəkək qayğısını, öz elimizin.

Şairim, dünyanı necə görürsən?
Duz yeyib, duz qabın sındıranlar var.
Qədir bilən yara can qurban eylə,
Qədir bilmiyənə heyifdir ilqar.

Özgə çırağına yağ olmaq bəsdir,
Doğma ellərimiz qaranlıqdadır.
Yanıb yandırmayaq yadın ocağın,
Evimiz soyuqdur, qışdır, şaxtadır.

Demirəm yanmayaq, alovlanmayaq,
Yanmasın, neyləsin, yazıq pərvana?
Yanmayaq vəfasız yarın oduna,
Yanaq elimizə, yanaq vətənə!

Vəfasız güllərin üstündən uçaq,
Qonaq sədaqətli el qucağına.
Sönməz eşqimizdən bir peyvəd salaq,
Elin şaxta vurmuş, gül budağına.

Bir yerdə qalmaqdan darıldıq, öldük,

Doğma yurdumuzu dolanaq, gəzək,
El ilə ağlayaq, el ilə gülək,
İncimizi vətən sapına düzək.

O gözəl şəhərdə, əziz diyarda,
Şairi coşduran səhnələr çox var.
Nisgilləri çoxdur dərdlı Təbrizin,
Biri sən özünsən, əziz Şəhriyar!

Hələlik kiçik bir damla olsaq da,
Süzülək, düzülək damaq göl olaq.
Biz də başımızı qataq başlara,
Qarışaq sulara, axar sel olaq.

Dərələri keçək, dənizə çataq,
Şıltaq dalğalara dönək, kükrəyək.
İsti günəş ilə qol – boyun olaq,
Qızınaq, tərləyək, buluda dönək.

Uçaq o qoraxlıq, pozğun diyara,
Susuzundan dili çıxan dağlara.
Yiyəsiz, qayğısız, yazsız, baharsız,
Çiçəksiz, yarpaqsız, barsız bağlara.

Şaxtalar, tufanlar, sərin küləklər,
Əssin üstümüzə bom – boz bozaraq.
Ağınaq, ağınaq uca dağlardan,
Danqaz qayaları dibdən qoparaq.

Çaylara səd vuraq, dərələr dolsun,
Daşqın axar sular, hədər axmasın.
Yaşarsın qurumuş kolların kökü,
Zəmilər susuzdan göyə baxmasın.

“Səhənd” də gül açsın, “Heydər baba” da,
Üzərimdə çadır qursun “Şəhriyar”.
Baxaq çiçəklənən yurda şe`r yazaq,
Şair də bəxtiyar, şe`r də bəxtiyar!

Kəsək dünyamızdan kiynənin kökün,
Eşqdən bir yeni quruluş quraq.
Verək şimşəklərlə qanad – qanada,
Gedək ulduzlara, günəşə qonaq.

Şairim! Sözümü qürbətə salma,
Qulaq as, dünyada gör bir nə səsdir?!
Bağrıvı sıxmasın bu hay – haraylar,
Qırılan zəncirdir, sınan qəfəsdir!
*1346 – 11 – 21*